# MİLLİ QURTULUŞ – 25

Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 134 (7861) CÜMƏ, 15 iyun 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik













# QURTULUŞUN "ÖVLADLARI"





"Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, BMT Təhlükəsizlik Şurasına sədrlik, kosmik kluba üzvlük, "Eurovision", Avropa Oyunları, İslamiada və "Formula-1"ə evsahibliyi, yeni neft müqaviləsi, Beynəlxalq Dəniz Ticarət Limanı, "Cənub qaz dəhlizi", Lələtəpə, Günnüt zəfəri... və

## Tarixin ən qüdrətli Azərbaycanı





**Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyun ayının 15-dən sonra başlanan yeni siyasət Azərbaycanın əsl müstəqillik salnaməsinin əsasını qoydu.**

Bu gün siyasi baxışlarından, statusundan asılı olmayaraq hər kəsin birmənalı olaraq qəbul etdiyi həqiqət ondan ibarətdir ki, 25 il əvvəl Heydər Əliyevin xalqın istək və arzularını nəzərə alaraq ölkə rəhbərliyinə başlaması ölkəmizi parçalanmaqdan, xalqımızı yenicə qazanılmış dövlət müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. Görkəmli dövlət xadimi olan ulu öndərin siyasi və idarəçilik təcrübəsi, müdrikliyi, uzaqgörənliyi Azərbaycana nicat bəxş etməklə yanaşı, ölkədə tamamilə yeni siyasi-ictimai və sosial-iqtisadi münasibətlərin əsasını qoydu.

### "Əsrin müqaviləsi" gənc müstəqil dövlətin tarixi nailiyyəti idi

1993-cü ilin keşməkeşli iyun günlərindən 25 il ötür. 25 il bir dövlətin tarixi üçün uzun zaman kəsiyi deyil. Amma bu dövrdə Azərbaycanın nailiyyətləri, əsasını qoyduğu, başa çatdırdığı möhtəşəm və dünyaya səs salan iqtisadi layihələri respublikamızın 25 ilə sığmayan sürətli inkişaf hekayəsidir. Və bu gün Milli Qurtuluşun 25-ci ildönümünü qeyd etdiyimiz bayram günündə haqlı olaraq həmin uğurlara istinad edirik. Bəli, ulu öndər Heydər Əliyev 1993-cü ilin çətin günlərində xalqın səsinə səs verərək Naxçıvandan Bakıya gəlməsəydi, bugünkü nailiyyətlərimiz barədə danışa bilməzdik. Ona görə, ötən 25 ildə Azərbaycan dövlətinin nail olduğu hər bir qələbə, hər bir nailiyyət ilk növbədə Qurtuluşun övladıdır.

Heydər Əliyev uzaqgörən insan idi. Təsadüfi deyil ki, bu insan 1993-cü ildən sonra ölkədə əmin-amanlığı bərpa etməklə yanaşı, Azərbaycanın inkişaf prioritetlərini də siyasi dəqiqliklə müəyyən etdi. Belə ki, ölkə Prezidenti kimi fəaliyyətə başlamasından cəmi 11 ay sonra Bakıda imzalanan "Əsrin müqaviləsi" müstəqilliyini yeni qazanmış, hələ dünya çapında o qədər də tanınmayan, yaxın keçmişində hərbi-siyasi qarşıdurmalar olan bir dövlət üçün olduqca mühüm və tarixi nailiyyət idi. Bu zəfərin müəllifi isə Heydər Əliyev idi.

*Ardı 8-ci səh.*


















## Qurtuluşdan intibaha doğru

**Yaşadığımız 2018-ci il xalqımız üçün əlamətdar hadisələrlə zəngin, yubileylər ilidir desək, yanılmarıq.**

Ölkə vətəndaşları müsəlman Şərqində ilk demokratik respublika olmuş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini, xalqımızın müstəqillik və azadlıq arzularını gerçəkliyə çevirmiş ulu öndər Heydər Əliyevin 95 illik yubileyini və Milli Qurtuluşumuzun 25 illik ildönümünü böyük coşğu ilə qeyd edir. Heydər Əliyevin qurub yaratdığı bugünkü müstəqil Azərbaycan nəinki ölkə vətəndaşlarının və dünya azərbaycanlılarının qürur mənbəyi, həm də bütün türk dünyasının nadir incilərindəndir.

*Ardı 5-ci səh.*

## İNAM VƏ ETİMAD ÜNVANI

*Azərbaycanlı milli düşüncə sistemində hakimiyyətə münasibət tarixən ictimai inam amili ilə şərtlənmişdir: insanlarımız əsrlər boyu ədalətli və sivil cəmiyyətə qovuşmağın yeganə yolunu məhz ölkəyə rəhbərlik edən liderin və onun formalaşdırdığı komandanın fəaliyyətində axtarmış, gələcək talelərini inandıqları, etimad bəslədikləri rəhbərə etibar etmişlər. Azərbaycan xalqı üçün məhz belə bir lider olmuş Heydər Əliyev dühası idarəçiliyin hər iki mərhələsində dövlətçiliyin ideoloji, siyasi, hüquqi və iqtisadi əsaslarını fundamental elmi prinsiplər əsasında müəyyənləşdirmiş, təkamülə əsaslanan tərəqqi yolunun alternativsizliyini real əməli nəticələrlə sübuta yetirmişdir.*

*Ardı 6-cı səh.*

## Müasir Azərbaycanın xilaskarı və qurucusu

*Ötən əsrin 90-cı illərinin əvvəllərində dünya miqyaslı dövlət xadimi və dahi siyasət korifeyi Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtması nəticəsində ölkəmiz tərəqqi yoluna qədəm qoydu, suverenliyimiz əbədi və sarsılmaz xarakter aldı, davamlı iqtisadi inkişaf üçün möhkəm təməl yaradıldı, xalqın milli-mənəvi ruhu yüksəldi, Azərbaycanda ümumbəşəri dəyərlərə əsaslanan demokratik, hüquqi, dünyəvi və müasir dövlətin ideya əsasları və strateji inkişaf istiqamətləri müəyyənləşdirildi. Ulu öndərin liderlik keyfiyyətləri, fədakar və yorulmaz fəaliyyəti sayəsində ölkəmiz müstəqil siyasət yürüdərək dünya birliyində mövqeyini gücləndirdi.*

Müstəqil Azərbaycanın qurucusu kimi gördüyü misilsiz işlər Heydər Əliyevə çağdaş tariximizdə xalqımızın xilaskarı və müasir dövlətçiliyimizin banisi kimi əbədiyaşarlıq qazandırdı. Dövlət suverenliyinin əldə edilməsini Azərbaycan üçün müstəsna dərəcədə önəmli hesab edən və xalqın yüksəlişi, dünyəvi, demokratik dəyərlərə yiyələnməsi yolunda əsas amil sayan ümummilli lider bu tarixi nailiyyəti yüksək qiymətləndirirdi: *"Dövlət istiqlaliyyətinin əldə edilməsi Azərbaycan xalqı üçün tarixi hadisədir və bizim vəzifəmiz, məqsədimiz istiqlaliyyətimizi, beynəlxalq mövqelərimizi hər vasitə ilə möhkəmləndirməkdən ibarətdir".*



### Milli iqtisadiyyatı formalaşdıran və gələcək uğurları təmin edən islahatlar

Ulu öndər Heydər Əliyev müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatlara böyük önəm verirdi. Azad bazar iqtisadiyyatının formalaşdırılması, istehsalın artırılması, sənayenin inkişafı, mülkiyyətin özəlləşdirilməsi, torpaq islahatının həyata keçirilməsi, sahibkarlığın formalaşması bu baxımdan xüsusi əhəmiyyət kəsb edirdi. Ümummilli lider iqtisadiyyatın inkişafını dövlət siyasətinin prioritetlərindən hesab edirdi: *"İqtisadi sahədə strateji yolumuz respublikada bazar iqtisadiyyatına keçmək üçün iqtisadi islahatlar aparmaqdan və tədricən Azərbaycanda bütün sahələrdə sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı formalarını tətbiq etməkdən ibarətdir".*

*Ardı 3-cü səh.*

## Azərbaycanın mövcud inkişafı Qurtuluşun məntiqi nəticəsidir

**Azərbaycan xalqı və dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutmasını, əsl müstəqilliyini əldə edərək qoruyub saxlamasını təmin edən başlıca amil məhz lider faktoru olmuşdur.**

Bu lider dahi şəxsiyyət, ulu öndər Heydər Əliyev olmuşdur. İctimai-siyasi sabitliyin təmin edilməsi və qorunmasının, iqtisadi tərəqqinin və milli inkişafın təməlində ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır.

*Ardı 4-cü səh.*

## Azərbaycanı iqtisadi güc mərkəzinə çevirmiş islahatlar strategiyası

İstənilən dövlətin milli inkişaf yolunun başlanğıcdan düzgün müəyyənləşdirilməsi onun mövcudluğunun qorunub saxlanılması və gələcək tərəqqisi baxımından vacib amildir. Dövlətçiliyin ideoloji-siyasi və iqtisadi əsaslarının elmi təməl üzərində qurulması, cəmiyyətin potensial imkanlarının milli intibah prosesinə cəlb olunması son nəticədə xalqları davamlı, sabit inkişaf yoluna çıxararaq dövrün ağır sınaqlarından, çətinliklərindən qoruyur.

*Ardı 7-ci səh.*

# Moskvada futbol üzrə dünya çempionatının təntənəli açılış mərasimi keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib









İyunun 14-də Moskvadakı "Lujniki" stadionunda futbol üzrə növbəti dünya çempionatının təntənəli açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva mərasimdə iştirak ediblər.

Qeyd edək ki, iyirmiyə yaxın ölkənin dövlət və hökumət başçılarının da qatıldığı açılış mərasiminin proqramı zənginliyi və əvvəlki dünya çempionatlarının açılış mərasimlərinin proqramlarından fərqli formatı ilə əsaslı şəkildə seçildi. Budəfəki tədbir daha qısa vaxt ərzində və yığcam oldu, məşq ərəfəsində deyil, birbaşa Rusiya-Səudiyyə Ərəbistanı matçından əvvəl keçirildi.

Britaniyalı müğənni Robbi Uilyamsın və Vyana Operasının solisti, tanınmış opera müğənnisi Aida Qarifullinanın ifası mundialın açılış mərasiminə əlavə əzəmət qatdı.

Açılış mərasiminin prodüseri Rusiyanın Birinci kanalıdır. Bu əzəmətli şounun konsepsiyasının müəllifi isə rejissor Feliks Mixaylovdur. Bu işdə ona İlya Averbux da kömək göstərib. İkiqat dünya çempionu, braziliyalı futbolçu Ronaldo da açılış mərasiminə qatılıb.

Dünya çempionatına evsahibliyi edən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mərasimdə çıxış etdi.

Rusiya dövlətinin başçısı bütün qonaqları Moskvanın əfsanəvi "Lujniki" stadionunda salamlayaraq dünyanın mehriban futbol ailəsini çempionatın açılışı münasibətilə təbrik etdi. Bu möhtəşəm idman hadisəsinin ilk dəfədir ki, Rusiyada keçirildiyini deyən Vladimir Putin ölkəsində bu idman növünə xüsusi sevginin bəslənildiyini də əlavə etdi. O, bu idman bayramını Rusiyada qəbul etmək üçün dünya çempionatına məsuliyyətlə hazırlaşdıqlarını bildirdi. "Harada yaşamağımızdan, hansı ənənələrə riayət etdiyimizdən asılı olmayaraq, bizim hamımızı bu parlaq idman növü - futbola sevgi birləşdirir. Futbolun gücünün əsasını humanizm təşkil edir. Çünki bu, birlikdir", - deyən Rusiya Prezidenti bu birliyi gələcək nəsillər üçün qoruyub saxlamağın vacibliyini vurğuladı.

FIFA-nın prezidenti Canni İnfantino da çıxışında Rusiyada başlayan futbol üzrə dünya çempionatının idmanın bu növünün həveskarlarına maraqlı anlar yaşadacağını söylədi.

Otuz iki ölkənin yığma komandalarının mübarizə apardığı budəfəki futbol üzrə dünya çempionatı iyunun 14-dən iyulun 15-dək davam edəcək. Çempionat Rusiyanın 11 şəhərinin 12 stadionunda keçiriləcək.

Xatırladaq ki, açılış mərasimini "Lujniki" stadionunda 80 min, televiziya ilə birbaşa yayımla isə təqribən 1 milyard nəfərə qədər tamaşaçı izləyib.

Rusiyada təşkil olunan futbol üzrə növbəti dünya çempionatı meydan sahiblərinin oyunu ilə başladı.

Açılış mərasimindən dərhal sonra "A" qrupunda mübarizə aparan Rusiya və Səudiyyə Ərəbistanının yığma komandalarının görüşü başladı.

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın da baxdıqları qarşılaşmada Rusiya yığma komandası 5:0 hesabı ilə qalib gəldi. Qolları futbolçular Yuri Qazinski, Dmitri Çerışev, Artyom Dzyuba və Aleksandr Qolovin vurdular.

Xatırladaq ki, dünya çempionatında 32 komanda əvvəlcə 8 qrupda mübarizə aparır. Qruplarda birinci və ikinci yer tutan komandalar səkkizdəbir finala çıxacaqlar. Səkkizdəbir final mərhələsindən başlayaraq yarışlar Olimpiya sistemi ilə keçiriləcək, yəni, uduzan komanda mübarizəni dayandıracaq.

Final görüşü iyulun 15-də Moskvada "Lujniki" stadionunda baş tutacaq.

Üçüncü yer uğrunda matç isə iyulun 14-də Sankt-Peterburqda keçiriləcək.

# Azərbaycanın Baş naziri Parisdə Fransa Prezidentinin diplomatik müşaviri ilə görüşüb



Parisə səfəri çərçivəsində Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov Fransa Prezidentinin diplomatik müşaviri Filip Etiyen ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə siyasət, iqtisadiyyat, mədəniyyət və humanitar sahələrdəki əlaqələr, eləcə də Dağlıq Qarabağ məsələsi, Azərbaycan-Aİ münasibətləri, həmçinin regional geosiyasi vəziyyət müzakirə edilib. Yüksəksəviyyəli qarşılıqlı səfərlərin təşkilinin əhəmiyyəti vurğulanıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyi bildirilib. Qeyd edilib ki, Dağlıq Qarabağ münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında, xüsusilə də BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində Fransadan səylərini artırması gözlənilir.

# Moskvada MDB İqtisadi Şurasının 78-ci iclası keçirilib



Moskvada Müstəqil Dövlətlər Birliyinin (MDB) İqtisadi Şurasının 78-ci iclası keçirilib. İclasda Azərbaycanı Baş nazirin birinci müavini Yaqub Eyyubov təmsil edib.

AZƏRTAC xəbər verir ki, iclasın gündəliyinə MDB ölkələrinin iqtisadiyyat sahəsində qarşılıqlı fəaliyyəti ilə bağlı geniş məsələlər daxil edilib. İclas iştirakçıları MDB ölkələri iqtisadiyyatının 2017-ci ildə inkişafının əsas makroiqtisadi göstəricilərini nəzərdən keçirib, MDB Dövlətlərarası Statistika Komitəsinə tapşırılıb ki, əsas makroiqtisadi göstəricilərin monitorinqini davam etdirsin. Əldə edilən məlumatlar MDB ölkələrinin hökumətlərinə göndəriləcək. Birlik ölkələrinin 2020-ci ilədək iqtisadi inkişaf strategiyasının yerinə yetirilməsi və bu strategiyanın 2016-2020-ci illəri əhatə edən üçüncü mərhələsinin tədbirlər planını, eləcə də ekonom-sinif mənzillər bazarında rəqabətin vəziyyəti ilə bağlı məsələlər də müzakirə edilib.

İclas iştirakçıları MDB ölkələrinin nüvə qəzaları və ya radiasiya qəzası vəziyyətlərində qarşılıqlı fəaliyyəti və bu cür qəzaların nəticələrinin aradan qaldırılması barədə saziş layihəsini, sərhədyanı ərazilərdə xəstəlik mənbələrinin və meşə zərərvericilərinin yaranmasının qarşısının alınması və məhv edilməsi barədə sazişlər və digər sənədlər təsdiq edilib.

Görüşdə yüksək texnologiyalı energetika avadanlığının istehsalının inkişafı sahəsində əməkdaşlıq konsepsiyası planı və milli hava hərəkətinin təşkili sistemlərinin uyğunlaşdırılması konsepsiyası layihəsi də təsdiq olunub.

İclasda Moskva Dövlət Avtomobil-Yol Texniki Universitetinin avtomobil-yol kompleksi sahəsində kadrların peşə səviyyəsinin artırılmasına dair baza təşkilatı statusu təsdiqlənib.

İqtisadi Şuranın üzvləri bir sıra maliyyə-büdcə məsələlərini müzakirə ediblər.

MDB İqtisadi Şurasının növbəti iclasını bu ilin sentyabr ayında Moskvada keçirmək qərara alınıb.

# Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Milli Qurtuluş Gününə həsr olunan tədbir keçirilib





İyunun 14-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə 15 iyun - Milli Qurtuluş Gününə həsr olunan tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini - icra katibi Əli Əhmədov tədbirdə çıxış edərək 15 iyun tarixinin Azərbaycan tarixində özünəməxsus yerindən danışıb, bu günün xalqımızın taleyində dönüş anı olduğunu vurğulayıb. Bildirib ki, 1993-cü ildə ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizdəki hərc-mərclik, təlatümlü ictimai-siyasi vəziyyətə son qoyuldu. "Bildiyimiz kimi, o dövrdə ölkəmizin ictimai-siyasi həyatının bütün sahələrində gərgin vəziyyət mövcud idi. Bu vəziyyətdən istifadə edən Ermənistan torpaqlarımızı işğal edirdi. Təbii ki, o dövrdə Azərbaycanı sevən insanlar ölkəmizin bu vəziyyətdən çıxarılmasının vacibliyini başa düşürdülər. Bunu bacara bilən yeganə insan isə ümummilli lider Heydər Əliyev idi. Beləliklə, ulu öndər xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdı. Məhz bundan sonra Azərbaycan inkişaf yoluna qədəm qoydu, respublikamızda mühüm siyasi və iqtisadi islahatlar həyata keçirildi, neft strategiyası reallaşdırıldı, cəbhədə atəşkəs əldə olundu, nizami ordu quruculuğu prosesinə başlanıldı, cəmiyyətin inkişafı üçün fundamental əsaslar yaradıldı",-deyə Əli Əhmədov vurğulayıb.

Qeyd edilib ki, ulu öndərin işləyib hazırladığı müasir müstəqil dövlət quruculuğu konsepsiyası müasir Azərbaycanın uğurlarının bünövrəsində dayanaraq gələcək inkişafın, misli görünməmiş uğurların əsasını qoyub. Azərbaycanın sürətli inkişaf dövrünün məhz Milli Qurtuluş Günü ilə başladığını vurğulayan Əli Əhmədov həmin siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Milli Məclisin komitə sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov qurtuluşa gedən yolun çox çətin olduğunu deyib. Çünki o dövrdə Azərbaycanda yarıtmaz, ancaq öz mənfəətini düşünən insanlar hakimiyyətdə idilər. Belə bir dövrdə ulu öndər Heydər Əliyevin ətrafında toplaşan, öz xalqının mənafeyini hər şeydən üstün tutan insanlar bilirdilər ki, yeni bir siyasi partiyanın yaradılmasına ehtiyac var. Bu partiya Yeni Azərbaycan Partiyası oldu. Xilaskarlıq missiyasını öz üzərinə götürərək hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev Azərbaycanı dünya xəritəsindən silinmək təhlükəsindən xilas etdi. Ölkədə siyasi sabitlik yaratdı. Ulu öndər Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdıqdan sonra Azərbaycanın geosiyasi imkanlarından istifadə edərək müstəqilliyini qoruyub saxlamağa, ölkəmizi sürətli inkişaf yoluna çıxarmağa, xalqımızın milli-mənəvi sərvətlərinə sahib çıxmasına, dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlının vahid məfkurə ətrafında birləşdirilməsinə nail oldu.

Məhz ulu öndərin səyləri nəticəsində "Əsrin müqaviləsi"nin imzalandığını bildirən Eldar İbrahimov deyib ki, bu gün Prezident İlham Əliyev ulu öndərin başladığı enerji, nəqliyyat layihələrini uğurla davam və inkişaf etdirir. Bu gün aparılan düzgün iqtisadi siyasət nəticəsində həm vətəndaşlarımız firavan həyat sürür, həm də Azərbaycan Avropanın enerji təhlükəsizliyində önəmli rol oynayır.

YAP Nəsimi rayon təşkilatı Gənclər Birliyinin üzvü Rəna Süleymanlı Milli Qurtuluş Gününün müasir Azərbaycan gənclərinin inkişafında yeri və rolunu xüsusi vurğulayıb. Qeyd edib ki, gənclərimiz Milli Qurtuluş Gününün əhəmiyyətini, ulu öndər Heydər Əliyevin vətən və xalq qarşısındakı misilsiz xidmətlərini dərindən öyrənməli, Prezident İlham Əliyevin həyata keçirdiyi və ölkəmizin sürətli inkişafını təmin edən dövlət siyasətinə sadiq qalaraq Azərbaycanın tərəqqisinə mühüm töhfə verməlidirlər.

# ABŞ-ın Oklahoma ştatının Milli Qvardiyasının nümayəndə heyəti Azərbaycanda səfərdədir

ABŞ-ın Oklahoma ştatının Milli Qvardiyasının komandanı, general-mayor Maykl Tompsonun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdədir.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində nümayəndə heyəti Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində olub və Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzini ziyarət edib.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və ABŞ-ın Oklahoma Ştatının Milli Qvardiyası arasında əməkdaşlıq 2002-ci ildən etibarən həyata keçirilir. Ştatla Tərəfdaşlıq Proqramı çərçivəsində ABŞ və NATO ilə əməliyyat uyarlılığı səviyyəsinin artırılması, peşəkar çavuş heyətinin, hərbi mühəndislərin və hərbi tibb mütəxəssislərinin hazırlığı sahələrində əməkdaşlıq və təcrübə mübadiləsi aparılır.



MİLLİ QURTULUŞ

- SÜRƏTLİ İNKİŞAF, MÜSTƏQİL SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993 2018

# Müasir Azərbaycanın xilaskarı və qurucusu

*Əvvəli 1-ci səh.*

Qeyd edək ki, islahatlar vasitəsilə Azərbaycanın milli iqtisadiyyatının formalaşdırılması siyasəti hələ 1969-cu ildə Heydər Əliyevin ölkəyə rəhbərlik etməsi ilə başlanan şərəfli və mühüm missiyanın əsas istiqamətlərindən idi. Məhz həmin dövrdən etibarən ölkəmizin milli iqtisadi inkişafının əsaslarının yaradılması, zəngin iqtisadi potensialın və təbii sərvətlərin ölkənin gələcək inkişafına, xalqın rifahının yüksəlməsinə yönəldilməsi üçün ciddi addımlar atıldı. Milli inkişaf ideyasından doğan və Azərbaycan iqtisadiyyatını bütün parametrlər baxımından Sovet İttifaqında ən öncül yerlərdən birinə çıxarmağı hədəfləyən bu islahatlar ümummilli liderin yüksək dövlət idarəçiliyi bacarıqları və liderlik keyfiyyətləri sayəsində o dövrdə Azərbaycanda tarixi dönüş yaratdı, köklü müsbət dəyişikliklərə səbəb oldu. Ulu öndərin səyi, əzmkarlığı və ittifaq miqyasında güclü nüfuzu sayəsində siyasi, sosial-iqtisadi, humanitar və digər sahələrdə SSRİ rəhbərliyi səviyyəsində Azərbaycanın inkişafını təmin edəcək əlverişli qərarlar qəbul edildi, bütün sahələrdə uzunmüddətli və sistemli proqramların icrasına, iqtisadiyyata dövrün yeni və mütərəqqi texnologiyalarının uğurla tətbiqinə başlandı.

Nəticədə Azərbaycan xammal ölkəsi və aqrar respublikadan qabaqcıl sənaye ölkəsinə çevrildi, kənd təsərrüfatının bütün sahələrində inkişafa nail olundu, yeni sənaye sahələri yaradıldı, ölkəmiz ittifaq respublikaları arasında iqtisadi uğurları və əldə etdiyi konkret nəticələri ilə önə çıxmaq imkanı əldə etdi. Belə ki, 1969-1982-ci illərdə Azərbaycanda elektron maşınqayırması, radiosənaye, yüngül və yeyinti sənayesi üçün maşın və avadanlıq istehsalı və digər mütərəqqi sahələr, 1971-1985-ci illərdə 581 adda yeni tipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradıldı. Həmin illər neft-kimya sənayesinin yeni dövrün tələblərinə uyğun inkişafı baxımından da önəmlidir. Ümummilli liderin böyük diqqəti sayəsində tam modernləşdirilmiş neft-kimya sənayesi ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynadı, Azərbaycan neft məhsulları və avadanlığı, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, məişət kondisionerləri, mineral gübrələr, xalça və digər istehsal sahələri üzrə Sovet İttifaqında aparıcı respublikalardan birinə çevrildi.

Əvvəllər kənd təsərrüfatının inkişafı baxımından da geridə qalan Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə səmərəli idarəçilik və mütərəqqi texnologiyaların uğurlu tətbiqi sayəsində sovetlərin qabaqcıl kənd təsərrüfatı, o cümlədən pambıqçılıq və üzümçülük, ümumilikdə aqrar-sənaye üzrə əsas respublikalardan biri oldu. O dövrdə Azərbaycanda istehsal edilən müxtəlif sahələr üzrə 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunmağa başladı.

Ulu öndərin Azərbaycanın hərtərəfli inkişaf strategiyası həm də infrastrukturun yenilənməsini, arxitekturaya yiyələnməsini şərtləndirirdi. Bunun nəticəsidir ki, paytaxta və regionlara gözəllik verən yüzlərlə müasir yaşayış binası, mehmanxana, iqtisadi inkişafda önəm kəsb edən iri istehsal kompleksləri, su anbarları, müasir yollar tikildi, yaşıllıq zonaları, istirahət ocaqları yaradıldı. Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövründə həyata keçirilən quruculuq siyasəti, yaradılmış infrastruktur, yeni sənaye sahələri, formalaşmış böyük potensial Azərbaycanın gələcək inkişafı üçün önəmli amillər oldu.

Sovet İttifaqında müasir istehsal və sənaye üsullarının və texnologiyaların burada cəmləşməsi, ulu öndərin müdrik idarəetmə və uzaqgörən strategiyası nəticəsində ölkədə baş verən sosial-iqtisadi inkişaf bumu məqsədli şəkildə milli inkişafa yönəldilmişdi və ölkənin gələcək müstəqilliyinin davamlı olması baxımından mühüm tarixi əhəmiyyət kəsb edirdi. Ümummilli liderin dövlət quruculuğu strategiyası qabaqcıl iqtisadiyyat və infrastruktura, sosial-iqtisadi inkişafa nail olmaqla yanaşı, həm də milli-mədəni dirçəliş, özünüdərk, milli ruhun yüksəlişi istiqamətində həyata keçirilən siyasətlə tamamlanırdı ki, bu da Azərbaycan xalqının müstəqil dövlətçilik ideyalarının reallaşmasında və xalqın milli-azadlıq mübarizəsinin uğurla nəticələnməsində həlledici rol oynadı. Ulu öndər Heydər Əliyev bu məqamı çox dəqiq ifadə etmişdir: *"1970-ci illərdə görülən işlər, yaranan bu böyük iqtisadi, sənaye potensialı və neft sənayesi sahəsində görülən işlər Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əsasıdır. Əgər onlar olmasaydı, biz bu gün dövlət müstəqilliyini əlimizdə bu qədər möhkəm saxlaya bilməzdik".*

## Müasirləşmə və inkişaf üçün yaradılan təməl

Qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycan XX əsrin sonlarında çox çətin sınaq qarşısında idi və bərpa edilmiş müstəqilliyin itirilməsi təhlükəsi yaranmışdı. Belə ki, 1990-cı illərin əvvəllərində xalqımız suverenliyini yenidən bərpa etsə də, ölkədə yaranmış siyasi böhran, Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunması, 1 milyondan artıq soydaşımızın doğma yurdundan didərgin düşməsi siyasi və sosial-iqtisadi böhranı daha da dərinləşdirmiş, ölkədə xaos yaranmış, iqtisadiyyat ciddi tənəzzülə uğramışdı. Müstəqilliyin ilk illərində bir ictimai-iqtisadi formasiyadan digərinə keçidin yaratdığı məhrumiyyətlər, yeni dövrün tələblərinə uyğun iqtisadiyyatın olmaması, yerli və ittifaq miqyasında müəssisələrarası əlaqələrin qırılması, ölkənin iqtisadi, siyasi və informasiya baxımından təcrid edilməsi nəticəsində ÜDM-in, sənaye istehsalının və xarici ticarət dövriyyəsinin həcmi ciddi şəkildə azalmış, inflyasiya idarəolunmaz səviyyəyə çatmışdı. İqtisadiyyatın iflic vəziyyətinə düşməsi, fabrik və zavodların fəaliyyətini dayandırması və sıradan çıxması nəticəsində işsizlik kütləviləşmiş, əhalinin gəlirləri azalmış, güzəranı ağırlaşmışdı.



Azərbaycan dövlətçiliyinin ciddi təhlükə ilə üzləşdiyi belə bir ağır zamanda xalqımız yenidən öz xilaskarına - dahi şəxsiyyət, bütün həyatını xalqına və Azərbaycanın inkişafına həsr etmiş Heydər Əliyevə üz tutdu. Xalqın iradəsi və təkidli tələbi ilə 1993-cü ilin iyununda siyasi hakimiyyətə qayıdan ulu öndər ölkədə daxili çaxnaşmanın, vətəndaş müharibəsinin, xaos və hərc-mərcliyin qarşısını aldı, atəşkəsə nail oldu, xalqımızın itirilmiş inamını özünə qaytardı, ölkənin davamlı inkişafının əsasını qoydu, müstəqilliyimizi möhkəmləndirdi. Ümummilli lider Heydər Əliyev siyasi fəaliyyətinin əsas qayəsini təşkil edən milli istiqlal, milli birlik, müstəqil dövlətçilik məfkurəsinə sadiq qalmaqla *"Azərbaycanın müstəqil dövlət olması, xalqımızın azadlığa çıxması tarixi hadisələrdir və biz bunları qiymətləndirməli, əldə edilmiş nailiyyətləri əbədiləşdirməliyik. Bu, istər bizim, istərsə də gələcək nəsillərin qarşısında duran strateji vəzifədir"* prinsipinin özünün həyat və siyasi fəaliyyət kredosu olduğunu bir daha sübut etdi.

Ulu öndərin hakimiyyətə qayıdışından sonra ictimai-siyasi, sosial-iqtisadi, humanitar sferada, beynəlxalq münasibətlərdə dönüş yarandı, müstəqil dövlət quruculuğu prosesi başlandı, bütün sahələrdə olduğu kimi, iqtisadiyyatda da institusional islahatlar həyata keçirildi, azad bazar iqtisadiyyatının formalaşması məqsədilə hüquqi baza yaradıldı, məqsədli dövlət proqramları qəbul edildi. Heydər Əliyevin həyata keçirdiyi irimiqyaslı islahatlar nəticəsində iqtisadi hədəflər və onlara nail olunması yolları müəyyənləşdirildi, maliyyə vəziyyəti sabitləşdi, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasına, investisiyaların cəlb olunmasına başlandı, xalqın həyat səviyyəsi yüksəldi.

Bu dövrdə qəbul olunmuş iqtisadi qanunlar Azərbaycanın milli iqtisadi inkişaf modelinin formalaşmasına və islahatların vətəndaşların mənafeyinə uyğun şəkildə həyata keçirilməsinə etibarlı zəmin yaratdı. Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70-dən artıq qanun qəbul edildi, 100-dən çox fərman və sərəncam imzalandı, 30-a yaxın dövlət proqramı təsdiq edildi. 1993-2003-cü illərdə qəbul edilmiş 1715 qanun və qərardan 975-i ümummilli lider Heydər Əliyevin təşəbbüsü əsasında Milli Məclisə təqdim olunmuşdu.

## Güclü iqtisadiyyata və sosial rifaha hesablanmış neft strategiyası

Müstəqilliyin ilk illərində sosial-iqtisadi məhrumiyyətlərlə üzləşmiş Azərbaycanın inkişafında ciddi dönüşə nail olmaq üçün ölkənin zəngin karbohidrogen ehtiyatlarından iqtisadiyyatda səmərəli istifadə olduqca zəruri və eyni zamanda çətin məsələ idi. Dahi siyasət korifeyi Heydər Əliyev bu məsələni ölkənin gələcəyi üçün həlledici amil hesab edirdi. Odur ki, neft strategiyasının hazırlanması və uğurla həyata keçirilməsi iqtisadi siyasətə qlobal və korrekt yanaşmanın ən ümdə məqamlarından biri kimi qarşıda dururdu. Azərbaycanın karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılmasına yaradılan maneələrin neytrallaşdırılmasına yalnız dəqiq strategiya və qlobal liderlik keyfiyyətləri ilə nail olmaq olardı. Məhz ümummilli liderin ölkə iqtisadiyyatının hərtərəfli inkişafı üçün neft amilindən məharətlə istifadə etməsi və "Əsrin müqaviləsi"nin imzalanması ilə bu maneələr tamamilə aradan qaldırıldı. *"Neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə məxsusdur"* deyən Heydər Əliyevin siyasi əzmkarlığının təntənəsi olan bu sənəd ölkənin enerji potensialının milli mənafelərimizə uyğun şəkildə dünya bazarına çıxarılmasına, iqtisadiyyatın digər sahələrinin də inkişafına geniş imkanlar açdı.

Beləliklə, Azərbaycan postsovet məkanında Qərbin transmilli neft şirkətləri ilə böyük miqyasda saziş imzalayan ilk dövlət kimi Xəzərdə beynəlxalq əməkdaşlığın əsasını qoydu, bununla Azərbaycanı dünya iqtisadiyyatına bağlayan ən önəmli addımlardan biri atıldı.

Neftin dünya bazarlarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasına dair sazişin imzalanması ilə neftin ixrac marşrutlarının şaxələndirilməsinə nail olundu. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsi Heydər Əliyevin neft strategiyasının ən böyük uğurlarından biridir. Məhz ulu öndərin qətiyyətli və uzaqgörən siyasəti nəticəsində reallaşan neft strategiyası ölkənin iqtisadi inkişafının qarantına çevrilməklə bu sahədə yeni bir mərhələnin əsasını qoydu. Çox böyük siyasi maneələr dəf edilməklə reallaşdırılmış Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisinə şübhə ilə yanaşanlara ümummilli lider sərrast cavab vermişdi: *"Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri var, olacaq və yaşayacaqdır. Bu, elə bir neft kəməridir ki, yüz il, bəlkə də ondan da çox yaşayacaqdır".*

Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə yanaşı, Azərbaycan qazının dünya bazarına ixracının təmin olunması üçün ulu öndərin təşəbbüsü ilə Cənubi Qafqaz Boru kəmərinin inşasına başlanıldı ki, bu faktor da respublikanın öz enerji resurslarından səmərəli istifadəsini, ölkənin ümumi inkişafına xidmət edən və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin reallaşdırılmasını təmin etmək baxımından olduqca vacibdir.

Enerji daşıyıcılarının satışından əldə olunan vəsaitlərin strateji sahələrin inkişafına yönəldilməsini təmin etməklə bağlı həyata keçirilən məqsədyönlü siyasət xüsusi vurğulanmalıdır. 1999-cu ildə ümummilli liderin fərmanı ilə neft yataqlarının xarici şirkətlərlə birgə işlənməsindən əldə edilən mənfəət neftin satışından daxil olan vəsaitlərin səmərəli idarə edilməsi, həmin gəlirlərin prioritet sahələrin inkişafına yönəldilməsini təmin etmək üçün Dövlət Neft Fondu yaradıldı. Bu fond ulu öndərin *"Neft sərvətimiz, ilk növbədə, müstəqil Azərbaycan Respublikasının inkişafı, xalqın sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, vətəndaşların maddi rifahının yüksəldilməsi üçün istifadə olunmalıdır"* fəlsəfəsindən irəli gəlməklə karbohidrogen ehtiyatlarının cəmiyyətin bütün vətəndaşlarının sosial rifahı və gələcək nəsillərin inkişafına yönəldilməsində mühüm mexanizmə çevrildi. Təsadüfi deyildir ki, ümummilli liderin təşəbbüsü ilə fondun ilk vəsaiti qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldildi. Hazırda fond bu sahədə səmərəli fəaliyyət göstərir və onun işində şəffaflığın təmin edilməsi beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir.

Beləliklə, Heydər Əliyevin Azərbaycan dövlətinin və xalqının uğurlu gələcəyini təmin edən uzaqgörən neft strategiyası, yaradılan neft-qaz sənayesi iqtisadi həyatın bütün digər sahələrinin harmonik inkişafı baxımından vacib faktor oldu.

## Uğurlu neft strategiyası - iqtisadi inkişafın əsası

Ulu öndərin rəhbərliyi ilə aqrar sektorda rentabelli təsərrüfatçılığın, səmərəli sahibkarlığın inkişafının təmin edilməsi mühüm istiqamətlərdən idi. Ümummilli lider sahibkarların və kənd təsərrüfatı sahəsində çalışanların maraq və mənafelərini nəzərə almaqla mühüm tədbirlər gerçəkləşdirdi, kənd təsərrüfatı məhsulları istehsalçılarının əvvəlki vergi borcları silindi, müddətli vergi tətillərinin verilməsinə başlandı, onlar torpaq vergisindən başqa bütün digər vergi ödənişlərindən azad edildilər və bu güzəştlər hazırda da davam edir. Heydər Əliyevin memarı olduğu və uğurla həyata keçirdiyi torpaq islahatı kəndlini onun əsl sahibinə çevirdi.

Müstəqillik dövründə sahibkarlar sinfinin formalaşması və inkişafı məhz ümummilli liderin məqsədyönlü siyasəti nəticəsində mümkün oldu. Ulu öndərin sahibkarlığın inkişafı strategiyası özəl bölmənin inkişafına yönəlmiş tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması kimi vacib məqamları özündə ehtiva edirdi. *"Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur"* xəttini iqtisadi yüksəlişin əsas prinsipi kimi müəyyən edən Heydər Əliyev özəl bölmənin inkişafına, sahibkarlar sinfinin formalaşmasına böyük diqqət və qayğı göstərir, onlarla mütəmadi görüşür, problemlərini öyrənir, təşəbbüsləri ilə tanış olur, qarşılaşdıqları çətinliklərin həlli üçün vacib qərarlar qəbul edir, müvafiq dövlət qurumlarına konkret tapşırıqlar verirdi. Ulu öndərin təşəbbüsü ilə qəbul olunmuş dövlət proqramlarının bu sahənin yüksəlişində xüsusi rolu oldu, kiçik və orta sahibkarlığın inkişafını iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirdi, onlara maliyyə dəstəyi və zəruri texniki yardım (məsləhət, informasiya və s. xidmətlər) göstərən strukturlar formalaşdı, vergi yükü azaldıldı, kiçik sahibkarlıq subyektlərinə vahid vergi tətbiq edildi. Dövlət mülkiyyətinin özəlləşdirilməsinin qanunvericilik bazası yaradıldı və bu sahədə müvafiq dövlət proqramları təsdiq olundu.

2002-ci ilin aprel-may aylarında Heydər Əliyevin yerli və xarici iş adamları ilə görüşləri sahibkarlığın inkişafı baxımından xüsusilə əlamətdar idi. Görüşlər və onların nəticəsi olaraq biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə imzalanmış bir sıra mühüm fərman və sərəncamlar ölkədə sahibkarlığın yeni inkişaf mərhələsinin əsasını qoydu.

## Regionların tarazlı inkişafı üçün yaradılmış etibarlı zəmin

Ümummilli liderin həyata keçirdiyi sosial-iqtisadi inkişaf strategiyası azad bazar münasibətlərinin geniş miqyasda bərqərar olması, hərtərəfli iqtisadi islahatların, özəlləşdirmə proqramlarının reallaşdırılması, milli sahibkarlar sinfinin formalaşmasını şərtləndirməklə ölkə regionlarının tərəqqisinə də əlverişli şərait yaratdı. 1995-2003-cü illərdə həyata keçirilmiş tədbirlər regionların sürətli sosial-iqtisadi inkişafına, sonrakı dövrlərdə bu sahədə vacib dövlət proqramlarının qəbul olunmasına və uğurlu icrasına möhkəm zəmin yaratdı.

Ulu öndər beynəlxalq bazarlara çıxmaq məqsədilə etibarlı və effektli nəqliyyat sisteminin reallaşdırılmasına çox böyük diqqət yetirirdi. Bu baxımdan, həyata keçirilən nəqliyyatın inkişafı siyasətinin mərkəzində tranzit dəhliz və yolların, ölkənin regionlararası, şəhər və rayondaxili yol-nəqliyyat infrastrukturunun inkişafı, eləcə də milli nəqliyyat-yol sisteminin dünya kommunikasiya məkanına sürətli inteqrasiyası dururdu. Azərbaycanın beynəlxalq nəqliyyat sisteminin gücləndirilməsi üçün həyata keçirilmiş TRASEKA, Şimal-Cənub, İNOGEYT Proqram layihələri bu müstəvidə xüsusi qeyd edilməlidir. Bu cür vacib layihələrin uğurla həyata keçirilməsi nəticəsində Azərbaycan Xəzər regionunda əsas multimodal nəqliyyat qovşağına və beynəlxalq əhəmiyyətli neft-qaz tranziti ölkəsinə çevrildi.

## Sosial-iqtisadi siyasətin prioriteti - insan amili

Heydər Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin əsasında insan amili və Azərbaycan vətəndaşlarının yüksək rifahı dururdu. *"Bizim apardığımız işlər, böyük layihələrimiz, neft müqavilələrimiz və həyata keçirdiyimiz iqtisadi islahatlar Azərbaycanın iqtisadiyyatını qısa bir zamanda gücləndirəcək və insanların rifah halı günü-gündən yaxşılaşacaqdır"* deyən ümummilli lider Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətə başladığı ilk gündən vətəndaşların həyat səviyyəsinin yüksəldilməsini başlıca məqsəd kimi müəyyənləşdirmişdi.

1995-ci il noyabrın 12-də böyük siyasət korifeyi Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış müstəqil Azərbaycanın ilk Konstitusiyasının ümumxalq səsverməsi yolu ilə qəbul olunması dövlətçilik tarixmizdə ən əlamətdar hadisələrdəndir. Milli maraqlara və dövrün çağırışlarına tam cavab verən Ali Qanunvericilik Aktında insan amili, vətəndaşların hüquq və azadlıqlarının, onların rifahının və təhlükəsizliyinin təmin olunması əsas prinsiplərdəndir. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər sayəsində artıq 1996-cı ildə sosial göstəricilərin dinamikasında müsbət meyillər nəzərəçarpacaq dərəcədə özünü göstərməyə başladı. Ölkə başçısının müxtəlif illərdə imzaladığı fərman və sərəncamlarla hərbi qulluqçuların, səhiyyə, təhsil, sosial müdafiə, elm, mədəniyyət sahəsində çalışanların əməkhaqqı, pensiyaların minimum məbləği, şəhid ailələrinin, 20 Yanvar və Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi uğrunda əlil olanların pensiya və müavinətləri bir neçə dəfə artırıldı, müxtəlif sahələrdə böyük xidmətləri olan şəxslərin sosial vəziyyətini yaxşılaşdırmaq məqsədilə fərdi təqaüdlər təsis edildi.

Ermənistanın təcavüzü nəticəsində öz doğma yurdlarından didərgin düşmüş qaçqınların və məcburi köçkünlərin maddi vəziyyətinin və yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə mühüm qanun, fərman və sərəncamlar imzalandı. Məcburi köçkünlərin çadırlardan müasir evlərə köçürülməsi, onların haqq səsinin dünyaya və beynəlxalq təşkilatlara çatdırılması sahəsində ilk addımları da məhz ulu öndər atmışdır.

Heydər Əliyevin balanslaşdırılmış xarici siyasəti sayəsində Azərbaycan dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirmiş, ölkəmiz Cənubi Qafqazın aparıcı dövlətinə, regionda gerçəkləşdirilən bütün transmilli layihələrin təşəbbüskarına və fəal iştirakçısına çevrilmişdir. Ulu öndərin çoxsaylı xarici səfərləri, ikitərəfli və beynəlxalq səviyyədə imzalanmış mühüm saziş və sənədlər, uğurlu neft diplomatiyası, beynəlxalq və regional təşkilatlarla aparılan gərgin iş ölkəmizin inkişafının sürətləndirilməsinə mühüm töhfəsini vermişdir. Heydər Əliyevin təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatı, Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. kimi mühüm beynəlxalq institutlarla səmərəli əməkdaşlıq yaradıldı.

Beləliklə, Heydər Əliyevin sosial-iqtisadi strategiyası 1995-ci ildən Azərbaycanda keyfiyyətcə yeni mərhələnin başlanmasına səbəb oldu. Bərpa və dinamik inkişaf dövrü kimi xarakterizə olunan 1995-2003-cü illər ərzində ümumi daxili məhsul 1,7 dəfə, büdcə gəlirləri 3,9 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 22,4 faiz, kənd təsərrüfatı istehsalı 52,8 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq əməkhaqqı 6,2 dəfə artdı, inflyasiya səviyyəsi 2-3 faizədək azaldı. Bu dövrdə iqtisadiyyata bütün maliyyə mənbələri hesabına 20 milyard ABŞ dolları həcmində investisiya qoyuldu.

## Böyük yolun uğurlu davamı

Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi, hüquqi dövlətçilik, vətəndaş cəmiyyəti quruculuğu və digər istiqamətlərdə qazandığı böyük nailiyyətlər məhz ümummilli lider Heydər Əliyevin müəllifi olduğu müasir Azərbaycan dövlətçiliyi və milli inkişaf amallarının uğurla həyata keçirilməsi nəticəsində mümkün olmuşdur.

Ulu öndərin uzaqgörən dünyəvi dövlət quruculuğu və milli inkişaf konsepsiyasının 2003-cü ildən yeni dövrün lideri Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ilə hazırda Azərbaycan beynəlxalq arenada suveren və milli maraqlara əsaslanan siyasət yürüdən güclü dövlətdir, beynəlxalq və regional layihələrin təşəbbüskarı və fəal iştirakçısı, Avropanın mühüm enerji təminatçılarından biridir. Milli dövlətçilik əsaslarının daha da möhkəmləndirilməsinin, müstəqilliyimizin əbədiliyinin, ölkəmizin hərtərəfli yüksəlişinin ən etibarlı təminatçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırda Azərbaycan ümumbəşəri dəyərlərə əsaslanan hərtərəfli inkişaf yolu ilə inamla irəliləyir, yeni uğurlara imza atır. Bu il aprelin 11-də keçirilmiş prezident seçkilərində qədirbilən xalqımız bir daha özünün işıqlı gələcəyinə, yüksək sosial rifaha, sabitliyə, sülhə səs verərək, bu yoldan dönməzliyini sübut etdi. Prezident seçkilərində yenidən özünün ümummilli və əbədiyaşar liderinin siyasi kursunun ən layiqli davamçısına səs verən xalqımız milli-mənəvi və ümumbəşəri dəyərlərə sadiqliyini, milli birliyini, ən başlıcası isə öz liderinə dərin inam və etibarını bütün dünyaya nümayiş etdirdi. Cənab İlham Əliyevin prezident seçkilərində inamlı və möhtəşəm qələbəsi ulu öndərin *"Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır"* müdrikliyinin, xalq-iqtidar birliyinin daha bir təntənəsinə çevrildi.

Azərbaycan xalqı İlham Əliyevə səs verməklə həyata keçirdiyi uğurlu siyasəti, genişmiqyaslı islahatları yekdilliklə dəstəklədiyini bariz şəkildə göstərmiş oldu, bu inkişaf kursunun davamının müstəqil Azərbaycanı işıqlı gələcəyə apardığından əminliyini bir daha ifadə etdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz siyasətdə, iqtisadiyyatda, beynəlxalq əlaqələrin genişlənməsi və möhkəmlənməsində böyük uğurlara imza atıb. 2004-2017-ci illərdə Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft iqtisadiyyatı 2,8 dəfə, sənaye məhsulu istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, qeyri-neft ixracı 4,1 dəfə artıb. Sahibkarlara şərtlərlə 2 milyard manatdan çox güzəştli kreditlər verilib. İndiyədək ölkə iqtisadiyyatına 250 milyard ABŞ dollarından çox sərmayə qoyulub, valyuta ehtiyatları 24 dəfə artaraq 44 milyard dollara çatıb, son 15 ildə ölkədə 1,9 milyondan çox yeni iş yeri açılıb. Maaşlar təxminən 7, pensiyalar 10 dəfədən çox artıb. İşsizlik 5 faizə, yoxsulluq 5,4 faizə enib.

Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin əsasında insan amili dayanır və bütün sosial layihələrin icrası dövlət başçısının daim diqqət mərkəzindədir. Bu istiqamətdə Azərbaycan Respublikasının Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə reallaşdırılan layihələr Azərbaycanda sosial sahənin, bütünlükdə iqtisadiyyatın inkişafına mühüm töhfələrdir.

Ölkədə iqtisadi islahatların uğurlu gedişində, ümumiyyətlə milli inkişaf prosesində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri var. Heydər Əliyev Fondunun prezidenti olaraq ötən 14 ildə göstərdiyi nümunəvi fəaliyyəti ilə dövlət siyasətinin həyata keçməsinə yardım göstərən Mehriban xanım bu ali vəzifəsində də ölkənin sosial-iqtisadi inkişaf prosesinə əhəmiyyətli müsbət təsirləri ilə fərqlənir.

Azərbaycan iqtisadiyyatında həyata keçirilən iqtisadi islahatlar innovativ layihələrin uğurla reallaşdırılmasına, rəqabətqabiliyyətli Azərbaycan məhsullarının istehsalının və ixracının artmasına, "Made in Azerbaijan" brendi ilə uğurla təmsil olunmasına, sənayenin ənənəvi sahələri ilə yanaşı, yeni sənaye sahələrinin formalaşması və inkişafına səbəb olub, son 15 ildə qeyri-neft ixracı 4,1 dəfə artıb.

Azərbaycanın təşəbbüskarı və fəal iştirakçısı olduğu qlobal transmilli iqtisadi və enerji layihələri - Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizləri kimi irimiqyaslı layihələr regionda və dünyada ölkəmizin mövqeyini daha da gücləndirir, Azərbaycanın, eyni zamanda region və dünya ölkələrinin inkişafında önəmli rol oynayır. Bu günlərdə rəsmi açılışı həyata keçirilmiş "Cənub qaz dəhlizi" və TANAP layihəsi, eləcə də tikintisi uğurla davam etdirilən TAP layihəsi Azərbaycanın beynəlxalq nüfuzunu daha da yüksəldir, ölkəmizin dünyada mühüm enerji təminatçısı kimi mövqeyini daha da möhkəmləndirir.

Azərbaycan iqtisadiyyatının davamlı inkişafını beynəlxalq maliyyə qurumları və reytinq agentlikləri də yüksək qiymətləndirir. Ümumdünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan reytinqdə daha 2 pillə yüksələrək 137 ölkə arasında 35-ci yerdə qərarlaşıb. Ümumiyyətlə, ölkəmiz 2005-2017-ci illərdə "Qlobal rəqabətlilik qabiliyyəti" hesabatları üzrə mövqeyini 34 pillə yaxşılaşdıraraq 69-cu yerdən 35-ci yerə yüksəlib və 2009-cu ildən MDB-də liderliyini qoruyur. 190 ölkənin biznes mühitini qiymətləndirən Dünya Bankının "Doing Business 2018" hesabatında son dövrlər aparılan davamlı islahatların məntiqi nəticəsi olaraq Azərbaycan reytinq üzrə irəliləyərək 57-ci mövqedə qərarlaşıb.

*Ümummilli liderin Azərbaycanın hərtərəfli inkişafı strategiyasının Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələb və çağırışlarına adekvat cavab verməklə yeni çalarlarla davam etdirilməsi ölkəmizin bütün sahələrdə davamlı inkişafını təmin edir, yeni islahatlar, innovativ yanaşmalar qazanılan nailiyyətləri daha da artırır. Dövlət başçısının dediyi kimi: "Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın banisidir, onun qurucusudur. Onun səyləri, fəaliyyəti nəticəsində 1993-cü ildə Azərbaycan inkişaf yoluna qədəm qoymuşdur. 2003-cü ildən isə bu siyasət davam etdirilir və bugünkü Azərbaycan əslində bu siyasətin gözəl nümunəsidir".*

***Şahin MUSTAFAYEV,***
***Azərbaycan Respublikasının iqtisadiyyat naziri***



MİLLİ QURTULUŞ

– SÜRƏTLİ İNKİŞAF, MÜSTƏQİL SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993 2018



# Azərbaycanın mövcud inkişafı Qurtuluşun məntiqi nəticəsidir

*Əvvəli 1-ci səh.*

Sevindirici haldır ki, ulu öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun onun layiqli davamçısı olan Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və inkişafa nail olub.

1991-ci il oktyabrın 18-də Azərbaycan müstəqilliyini elan etməsinə baxmayaraq, müstəqilliyi itirmək təhlükəsi ilə qarşı-qarşıya idi. Ordu və dövlət quruculuğu istiqamətində hər hansı bir əhəmiyyətli addımlar atılmırdı, daxili çəkişmələr nəticəsində Azərbaycan vətəndaş müharibəsi astanasında idi, separatizm baş qaldırmışdı, bədxah qonşularımızın ölkəmizə qarşı ərazi iddiaları və təcavüzkar siyasəti davam edirdi. Bu dövrdə bir sıra ərazilərimiz işğal olundu, Xocalı soyqırımı törədildi. Həmin dövrdə daxildəki bəzi qüvvələr hakimiyyətə gəlmək üçün müxtəlif xarici kəşfiyyat orqanları ilə işbirliyi edərək ölkəmizin müstəqilliyinə qarşı çıxırdılar. Siyasi partiyaların silahlı dəstələrə malik olması, ayrı-ayrı kriminal dəstələrin yaradılması, ictimai-siyasi sabitliyin olmaması Azərbaycanı süqutun astanasına gətirib çıxarmışdı. Yəni həmin dövrdə Azərbaycan olduqca çətin vəziyyətdə idi və çoxsaylı iqtisadi, siyasi problemlərlə qarşı-qarşıya idi. Milli maraqlardan uzaq mövqe tutan səriştəsiz insanların hakimiyyətdə olması həm ölkə daxilində hərc-mərcliyin, xaosun, ciddi böhran və tənəzzül meyillərinin yaranmasına səbəb olmuşdu, həm də erməni təcavüzü ilə üzləşən Azərbaycan çarəsiz vəziyyətdə qalmışdı. Ayrı-ayrı siyasi partiyalar isə ölkənin milli maraqlarını, təhlükəsizliyini qorumaq əvəzinə öz məhdud maraqları uğrunda mübarizə aparırdılar. Silahlı dəstələrə malik olan belə partiyaları məhz hakimiyyət uğrunda mübarizə maraqlandırırdı.

Həmin dövrdə Azərbaycanı xaos və anarxiyadan, vətəndaş müharibəsi təhlükəsindən xilas edəcək, ölkəni tərəqqi yoluna çıxaracaq yeganə lider məhz Heydər Əliyev idi. Azərbaycan xalqı məhz zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyevə ümid bəsləyirdi. Bu dövrdə - Azərbaycanın olduqca mürəkkəb şəraitdə olduğu zaman Naxçıvan da çətin vəziyyətdə idi. 1991-ci ilin sentyabr ayında ulu öndər Heydər Əliyevin Naxçıvan MSSR-in Ali Məclisinin Sədri seçilməsindən sonra sabitlik təmin edildi və muxtar qurumun sosial-iqtisadi vəziyyəti yaxşılaşdırıldı. Müharibənin davam etdiyi, sənaye məhsullarının çatışmadığı, elektrik enerjisinin olmadığı, sosial-iqtisadi durumun kəskin olduğu şəraitdə Ali Məclisin Sədri seçilən Heydər Əliyev həyata keçirdiyi islahatlar, gördüyü tədbirlər və işlər sayəsində sabitliyin, tərəqqinin və həmrəyliyin təmin olunmasına nail oldu. Eyni zamanda muxtar respublikada dövlət rəmzləri bərpa edildi, 17 noyabr 1990-cı il tarixdə Naxçıvan Ali Məclisinin I sessiyasında ilk dəfə olaraq üçrəngli bayrağımız qaldırıldı. Naxçıvan MSSR adından "Sovet" və "Sosialist" sözləri çıxarıldı. Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və Sovet ordusu, əsgəri birlikləri Naxçıvan MR ərazisindən çıxarıldı.

Belə bir şəraitdə Azərbaycanın vətənpərvər ziyalıları ulu öndər Heydər Əliyevin ölkəmizi xaos və anarxiyadan xilas edəcəyini düşünürdü. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalı ulu öndər Heydər Əliyevə müraciət etdi. Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və ulu öndər Heydər Əliyev partiyanın sədri seçildi. İnsanlar böyük dövlətçilik təcrübəsinə, xarizmaya malik olan güclü lider ətrafında yaranan Yeni Azərbaycan Partiyasına üz tutmağa başladılar. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası müstəqilliyimizin möhkəmləndirilməsinə, milli inkişafın təmin olunmasına xidmət edən fəaliyyətini davam etdirdi və bunun nəticəsində Azərbaycan tənəzzüldən xilas olaraq tərəqqi yoluna qədəm qoydu.

Həmin dövrdə AXC-"Müsavat" cütlüyü Azərbaycanı, sözün əsl mənasında, ayrı-ayrı xarici qüvvələrin "döyüş meydanı"na çevirmiş, ölkədə xaos və anarxiya idarəolunmaz həddə çatmışdı. Belə şəraitdə ölkədə separatizm meyilləri baş qaldırmağa başladı. Artıq ölkənin bir sıra ərazilərində - Gəncədə, Lənkəranda, Qusarda və digər regionlarda qanunsuz silahlı birliklər bölücü iddialarla çıxış edərək mərkəzi hakimiyyətə tabe olmadıqlarını bildirirdilər. Məhz 1993-cü ilin 4 iyun hadisələri də belə bir şəraitdə baş verdi. Beləliklə, Azərbaycan vətəndaş müharibəsi və parçalanmaq təhlükəsinin astanasında idi. Belə bir situasiyada xalqımız 1993-cü ildə parçalanmaq təhlükəsi ilə üzləşən Azərbaycan dövlətini xilas etmək üçün ümummilli lider Heydər Əliyevə üz tutdu. O zaman ölkəyə "rəhbərlik" edən qüvvələr də Azərbaycanı məruz qoyduqları təhlükədən xilas etmək üçün ulu öndər Heydər Əliyevin Bakıya gəlməsini yeganə çıxış yolu kimi dəyərləndirirdilər.

Beləliklə, iyunun 9-da ulu öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi Azərbaycanın taleyi ilə bağlı narahatlıqlara son qoydu. Bu qayıdış xalqımızı fəlakətdən xilas etdi. Böyük xilaskarın Bakıya gəlməsi xəbəri xalq tərəfindən sevinclə qarşılandı. 1993-cü il iyunun 15-də isə Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Azərbaycanda davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi daxil oldu.

Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında ulu öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub saxlamaq idi və bu, ümummilli liderin iradəsi sayəsində reallığa çevrildi. Ulu öndər Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. Ümummilli lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışı dövlətçilik tariximizin şanlı qürur səhifəsini təşkil edir. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 iyun - Milli Qurtuluş Gününü hər il yüksək əhvali-ruhiyyə ilə qeyd edir. Bu günün mənası təkcə ölkənin xaos və anarxiyadan xilas edilməsi, xarici və daxili düşmənlərin Azərbaycanı parçalamaq, müstəqil dövlətimizi məhv etmək niyyətlərinin puça çıxarılması ilə məhdudlaşmır. Bu tarixi gün, eyni zamanda Azərbaycanın dünya birliyinə qovuşması, dünya dövlətləri tərəfindən tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın böyük etimadı və dəstəyi əsasında Prezident seçilməsindən sonra ölkəmizin inkişafının əsası qoyuldu, Azərbaycan sabitlik adasına çevrildi, vətəndaş həmrəyliyi yaradıldı və dünya birliyinə uğurla inteqrasiya etdi. Bir məqamı da xüsusi qeyd etməliyik ki, malik olduğu təbii resurslardan səmərəli istifadə etmək, Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirmək, ən əsası, birgə səylər, qarşılıqlı təcrübə mübadiləsi sayəsində qarşıya qoyulan məqsədlərə nail olmaq üçün 1994-cü ilin 20 sentyabrında ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə "Əsrin müqaviləsi" imzalandı. Bununla Azərbaycan öz iqtisadi imkanlarını dünyaya təqdim edərək növbəti sazişlərin imzalanmasına zəmin yaratdı.

Ölkəmizin beynəlxalq əlaqələri genişləndirildi və ən əsası düzgün qurulmayan xarici siyasətin uğursuz nəticələri aradan qaldırıldı. Bilirsiniz ki, müstəqillik əldə etdikdən sonra uğursuz və yanlış xarici siyasət nəticəsində Azərbaycan həm region dövlətləri ilə, həm də BMT-nin Təhlükəsizlik Şurasının üzv dövlətləri ilə normal münasibətlərə malik deyildi, müəyyən gərginliklər var idi. Ümummilli lider Heydər Əliyevin uğurlu xarici siyasəti nəticəsində bu münasibətlər normallaşdı, Azərbaycan geniş beynəlxalq əlaqələrə malik oldu.

Bir sözlə, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə yenidən qayıdışı ilə dövlətçilik tariximizin yeni mərhələsinin əsası qoyuldu. Ulu öndər Heydər Əliyev müstəqil, iqtisadi cəhətdən qüdrətli, dünya birliyinin layiqli üzvü olan Azərbaycanı yaratmaqla xalqla hər zaman bir olduğunu, vətənini, torpağını canından çox sevdiyini bir daha nümayiş etdirdi. 1993-cü ilin 3 oktyabrında prezident seçkilərində yüksək etimad qazanan və 11 oktyabr 1998-ci ildə qələbəsini yenidən təsdiqləyən ümummilli lider Heydər Əliyev bu dövr ərzində Azərbaycan xalqının maraqlarını əks etdirən tədbirlər reallaşdırdı, ölkənin strateji inkişaf istiqamətlərini müəyyənləşdirdi. Prezidentliyinin ilk mərhələsində həyata keçirdiyi islahatlar, böhran içində olan Azərbaycanın iqtisadiyyatının gücləndirilməsi istiqamətində reallaşdırdığı genişmiqyaslı quruculuq işləri xalqın gələcəyə olan inamını artırmaqla ölkəmizin dünya birliyinə açılan yoluna "yaşıl işıq" yandırdı.

Bütün bu nailiyyətlər öz ifadəsini müəllifi Heydər Əliyev olan, 1995-ci ilin 12 noyabrında referendum yolu ilə qəbul olunmuş müstəqil Azərbaycanın ilk Konstitusiyasında tapdı. Bu ali hüquqi sənəd nəinki ölkəmizin insan hüquqları, liberal iqtisadiyyat, dövlət idarəçiliyi prinsipləri sahəsindəki uğurlarını təsbit etdi və möhkəmləndirdi, həmçinin gələcək inkişaf istiqamətləri üçün mükəmməl normativ baza oldu. Ulu öndər Heydər Əliyevin irəli sürdüyü dövlətçilik prinsiplərinin əsasında konseptual və dünya siyasətinə uyğunlaşdırılan balanslaşdırılmış xarici siyasət, ölkə daxilində sabitliyin təminatı, dövlətçiliyin möhkəmlənməsi, bazar iqtisadiyyatı yolunu seçməklə malik olduğumuz təbii ehtiyatlardan xalqın mənafeyi və rifah halının yaxşılaşdırılması naminə səmərəli istifadə olunması, insan hüquq və azadlıqlarının qorunması kimi strateji əhəmiyyətli vəzifələr dayanırdı. Bu gün qürur hissi ilə deyə bilərik ki, bu vəzifələrin öhdəsindən layiqincə gəlinmişdir.

Nəticə etibarilə, 1993-2003-cü illər sabitlik və inkişaf dövrü kimi yadda qaldı. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət kursu Azərbaycanın yeni zirvələr fəth etməsini, müstəqil dövlət kimi beynəlxalq münasibətlər sistemində uğurla təmsil olunmasını, dünya azərbaycanlılarını vahid mərkəzdə birləşdirən güclü və qüdrətli ölkəyə çevrilməsini təmin etdi.

Ümummilli lider Heydər Əliyevin uğurlu inkişaf siyasəti onun layiqli varisi olan Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövr ərzində modernləşmə və islahatlar xətti davam etdirilib, dərin konseptual əsaslara söykənən və bütün sahələri əhatə edən proqramlar uğurla icra olunub. Xüsusilə də, müvafiq dövlət proqramlarının uğurla icra edilməsi sayəsində ölkənin bütün regionlarının siması dəyişib. İndiyədək respublikamızda Prezident İlham Əliyevin müvafiq fərmanları ilə təsdiqlənən regionların sosial-iqtisadi inkişafına dair 2004-2008 və 2009-2013-cü illəri əhatə edən iki Dövlət Proqramı uğurla reallaşdırılıb. Əvvəlki illərdə yaradılan möhkəm baza və qazanılan təcrübə 2014-2018-ci illəri əhatə edən sayca üçüncü Dövlət Proqramının qəbul edilməsi üçün möhkəm əsas olub. Hazırda üçüncü Dövlət Proqramı da böyük müvəffəqiyyətlə yerinə yetirilir.

Təsadüfi deyil ki, 15 il ərzində Azərbaycan qlobal rəqabətlilik indeksində dünyadakı mövqeyini xeyli gücləndirib, Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik Hesabatı"nda 35-ci pillədə qərarlaşıb və MDB məkanında liderliyini qoruyub saxlayıb. Azərbaycan dünyada ən çox islahat aparan qabaqcıl ölkələrdən biri kimi tanınıb. Ölkəmiz innovasiya potensialına görə dünyada 44-cü, dövlət orqanlarında İKT-nin tətbiqi üzrə 14-cü olub.

Digər tərəfdən, ötən müddət ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin məntiqi nəticəsi kimi, Azərbaycan dünyada islahatçı dövlət və sabitlik adası kimi tanınır. Ölkəmizdə etibarlı təhlükəsizlik mühiti formalaşdırılıb. Buna paralel olaraq demokratik islahatlar davam etdirilib, insan hüquqları və azadlıqlarının təmin olunması diqqət mərkəzində olub. Bunun nəticəsi kimi, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində mühüm nəticələr əldə olunub. İslahatlar həmçinin idarəetmə sahəsini də əhatə edib. Konstitusion və institusional islahatlar idarəetmədə yeni keyfiyyət mərhələsi yaradıb. Respublikamızda yeni vitse-prezidentlik institutu yaradılıb, vətəndaşlara dövlət diqqəti və qayğısı gücləndirilib.

Bir sözlə, Azərbaycan bu gün müasirləşən, sürətlə inkişaf edən, ictimai-siyasi sabitliyin mövcud olduğu bir ölkəyə çevrilib. Bunun nəticəsi kimi, ölkəmizdə möhkəm əsaslara söykənən xalq-iqtidar birliyi mövcuddur və xalq öz Prezidentinə mütləq inam və etimad bəsləyir.

Səmərəli xarici siyasət həyata keçirən, dünyada etibarlı tərəfdaş kimi tanınan, regional əməkdaşlıq və təhlükəsizliyə xidmət edən strateji əhəmiyyətli layihələrin təşəbbüskarı və müəllifi olan Azərbaycan yüksək beynəlxalq nüfuza malikdir. Ölkəmiz həm regional, həm də beynəlxalq miqyasda dövlətlərlə qarşılıqlı faydalı münasibətlər, bərabərhüquqlu əlaqələr yaradıb. Azərbaycan 155 ölkənin dəstəyi ilə 2011-ci ildə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib, 2014-cü ildə Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik edib. Hazırda ölkəmiz ikitərəfli və çoxtərəfli münasibətləri öz maraqları əsasında uğurla davam və inkişaf etdirir. Bunun da əsasında ümummilli lider Heydər Əliyevin siyasi kursunu davam etdirən Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi dayanır.

Bu gün Azərbaycan həm də beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi tanınır. Ölkəmizdə çoxsaylı mötəbər beynəlxalq tədbirlər keçirilir. Azərbaycan sivilizasiyalararası dialoqa mühüm töhfələr verən tədbirlərə uğurla evsahibliyi edir və dünyanın multikulturalizm mərkəzlərindən biri sayılır. Bütün bunlar uğurlu və hərtərəfli inkişaf siyasətinin səmərəli nəticələridir.

Bundan başqa, ötən müddət ərzində Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində qətiyyətli mövqe nümayiş etdirib, hücum diplomatiyası uğurla davam etdirilib. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlər müxtəlif beynəlxalq tribunalardan dünya ictimaiyyətinə çatdırılıb, İƏT-ə üzv olan ölkələr Ermənistanı işğalçı ölkə kimi tanıyıb, Avropa Şurası, ATƏT və digər təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanatlar qəbul edib, "Xocalıya ədalət!" beynəlxalq kampaniyası uğurla davam etdirilib, bir çox ölkələr Xocalı soyqırımını tanıyıb. Yəni Azərbaycanın Dağlıq Qarabağ məsələsinin həlli istiqamətində mövqeyi möhkəmlənib, hərbi, siyasi və diplomatik üstünlüyü təmin olunub. Bu isə onu deməyə əsas verir ki, Azərbaycan istənilən halda işğal altında olan torpaqları azad edərək öz ərazi bütövlüyünü təmin edəcək.

Nəticə etibarilə, Azərbaycanın xarici siyasəti həyata keçirilən səmərəli daxili siyasətə uyğundur, bu kursu tamamlayır. Azərbaycan heç bir beynəlxalq qurumdan, milli dövlətdən asılı olmayan müstəqil siyasət kursuna malikdir. Bunun nəticəsidir ki, ölkəmizin beynəlxalq mövqeyi davamlı olaraq möhkəmlənir, Azərbaycanın qarşısında yeni inkişaf perspektivləri yaranır.

***Siyavuş NOVRUZOV,***
***Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini,***
***Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri***

# TANAP-ın işə düşməsi "Cənub qaz dəhlizi"nin tam reallaşacağına zəmanət verir

## *Prezident İlham ƏLİYEV: "TANAP bu gün və gələcəkdə enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur layihəsidir"*

TANAP-ın (Transanadolu Qaz Boru Kəməri) istifadəyə verilməsi Azərbaycanın neft-qaz sənayesinin ən önəmli hadisələrindən biri kimi tarixə düşdü. TANAP-ın işə düşməsi Azərbaycanın təkcə neft diyarı deyil, həm də qaz ixrac edən ölkə olduğunu bir daha təsdiqlədi. Lakin TANAP elə bir qlobal layihədir ki, təkcə ölkəmiz üçün deyil, həm də region və Avrasiya məkanı üçün mühüm əhəmiyyət daşıyır.

TANAP möhkəm bünövrəyə əsaslanır. Bu layihənin həyata keçirilməsi ideyasını irəli sürərkən Azərbaycan artıq Bakı-Supsa, Bakı-Novorossiysk, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilişindəki zəngin təcrübəyə əsaslanmışdır. Üç ölkənin - Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisindən keçən BTC kimi nəhəng bir kəmərin inşası regionda möhkəm tərəfdaşlıq formatının əsasını qoymuşdur. Daha sonra BTC ilə yanaşı çəkilən Bakı-Tbilisi-Ərzurum kəməri geniş dəhlizlərə yol açmışdır. Bu gün Azərbaycanın liderliyi ilə gerçəkləşən "Cənub qaz dəhlizi"nin təməli də əslində elə bu kəmərlə qoyulmuşdur.

Təsadüfi deyil ki, bu il iyunun 12-də TANAP-ın istifadəyə verilməsi münasibətilə keçirilən təntənəli mərasimdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan məhz bu məqamı vurğulayaraq demişdir: "TANAP ilə Xəzər qazı ilk dəfə Avropaya çatacaq. Şübhəsiz, Xəzər hövzəsindəki zəngin enerji ehtiyatlarının Avropaya nəqli fikrinin yeni olmadığını hamımız bilirik. Daha əvvəl bu məqsədlə bir sıra nəhəng layihələr həyata keçirmişik. Bu yola Bakı-Tbilisi-Ceyhan xam neft boru kəmərinin inşası ilə başladıq. "Əsrin layihəsi" adlandırılan Bakı-Tbilisi-Ceyhan kəməri daha sonrakı fəaliyyətlərin də başlanğıcı oldu. Azərbaycan və Gürcüstan ilə strateji tərəfdaşlığımız ölkəmizə ilk dəfə Azərbaycan qazını gətirən Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəməri layihəsi ilə davam etdi".

İndi Azərbaycan yeddi ölkənin mavi yanacağa olan ehtiyacının önəmli bir hissəsini ödəyəcək möhtəşəm qaz dəhlizi çəkir. Ölkəmiz bu genişmiqyaslı işi yaratdığı möhkəm əməkdaşlıq və tərəfdaşlıq çərçivəsində həyata keçirir. "Cənub qaz dəhlizi"ndə yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya, Bolqarıstan və İtaliya iştirak edirlər. Gələcəkdə layihəyə üç Balkan ölkəsinin qoşulacağı da gözlənilir. "Cənub qaz dəhlizi"nin daha sonra bir sıra digər ölkələrə də qaz ötürəcəyi istisna edilmir.

"Cənub qaz dəhlizi"nin qloballığı ondadır ki, dörd seqmentinin hərəsi nəhəng bir layihədir. Birinci seqment "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsidir. Xəzərdən sualtı xətlərlə Səngəçala çatdırılan "Şahdəniz" qazını oradan Azərbaycan-Gürcüstan sərhədinə qədər nəql edən Cənubi Qafqaz Boru Kəməri (CQBK) dəhlizin ikinci seqmentini təşkil edir. Üçüncü seqment TANAP-dır və onun da əvvəlki iki hissə kimi artıq gerçəkliyə çevrilməsi "Cənub qaz dəhlizi"nin uğurla icra olunacağına inamı daha da artırır. Belə ki, TANAP-dan qazı qəbul edəcək TAP-ın (Transadriatik Qaz Boru Kəməri) tikintisi də rəvan gedir, orada işlərin 72 faizi tamamlanıb.

Bir tərəfi CQBK-ya, digər tərəfi TAP-a bağlanan TANAP "Cənub qaz dəhlizi"nin ən böyük hissəsidir. TANAP Azərbaycanın və Türkiyənin, bu iki ölkənin dövlət başçılarının birgə səyləri ilə həyata keçirilən layihədir. Odur ki, kəmərin istifadəyə verilməsi Azərbaycan-Türkiyə qardaşlığının və birliyinin növbəti bariz nümunəsini əks etdirir. Prezident İlham Əliyev açılış mərasimindəki çıxışında bunu bir daha vurğulamışdır: "TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir. Bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür".

TANAP Türkiyənin ərazisi ilə 1850 kilometr məsafə boyu uzanır. Bu o deməkdir ki, TANAP Türkiyənin, Yaxın Şərq və Avropanın ən uzun təbii qaz boru kəməridir. Kəmər Türkiyənin 20 vilayətindən, 67 rayonundan və Çanaqqala boğazında suyun altından keçir. TANAP-ın tikinti obyektlərində çoxsaylı iş yerləri açılmışdır ki, bu da həmin bölgələrin sakinləri üçün geniş məşğulluq imkanları yaratmışdır.

Bir sözlə, TANAP Türkiyəni regional enerji xətlərinin mərkəzinə çevirmək missiyasına bir addım da yaxınlaşdırmışdır.

Kəmərin açılışında iştirak edən bir sıra ölkə başçıları və mötəbər qurumların rəhbərləri də TANAP-ın istifadəyə verilməsinin "Cənub qaz dəhlizi"nin reallaşmasında mühüm amillərdən biri olduğunu bildirmişlər. Şimali Kipr xalqlarının lideri Mustafa Akıncı demişdir: "TANAP layihəsi zamanımızın mütərəqqi əməkdaşlığına yaxşı bir nümunədir. Xəzər dənizindəki təbii ehtiyatların ən münasib marşrutlarla daşınaraq Türkiyəyə və oradan da Avropa bazarlarına nəql edilməsi bölgədə iqtisadi inkişafa və təhlükəsizlik mühitinin yaranmasına da töhfə verəcək".

Serbiya Prezidenti Aleksandr Vuçiç Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına xidmət edən bu layihənin Cənub-Şərqi Avropanın tərəqqisində mühüm rol oynayacağını, bu regiona yeni investorların gəlişinə təsir göstərəcəyini, Serbiyanın da inkişafına töhfə verəcəyini demişdir.

Ukrayna Prezidenti Petro Poroşenko layihənin uğurla icra olunmasında Azərbaycanın və Türkiyənin dövlət başçılarının xidmətlərini xüsusi qeyd etmişdir: "Azərbaycanın və Türkiyənin birgə qətiyyəti, eləcə də digər Avropa ölkələrinin töhfəsi sayəsində "Cənub qaz dəhlizi"nin bu aparıcı seqmenti tamamlanıb. Bundan sonra bütün region enerji təhlükəsizliyi perspektivlərinin genişlənməsindən faydalana biləcək".

Əsas hissələrindən biri TANAP olan "Cənub qaz dəhlizi" enerji təhlükəsizliyi layihəsidir. Enerji təhlükəsizliyi isə hər bir ölkənin həm də milli təhlükəsizliyi məsələsidir. "Cənub qaz dəhlizi"nin önəmi həm enerji təhlükəsizliyində, həm də enerji ehtiyatlarının şaxələndirilməsindədir. "Cənub qaz dəhlizi" vasitəsilə Azərbaycan qazı yeni marşrutlarla Türkiyəyə və Avropa bazarlarına çıxarılacaq. Beləliklə, bu, həm yeni mənbə və yollar, həm də enerji təhlükəsizliyi və şaxələndirilməsi layihəsidir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***



# MİLLİ QURTULUŞ
## - SÜRƏTLİ İNKİŞAF, MÜSTƏQİL SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ




# Qurtuluşdan intibaha doğru

*Əvvəli 1-ci səh.*

Tale elə gətirmişdir ki, Şərqdə ilk parlamentli demokratik respublika olan Xalq Cümhuriyyətinin 100 illiyi müstəqilliyimizin memarı ulu öndərlə bağlı yubileylərlə eyni vaxta təsadüf edir. Bu özü bir rəmzi məna daşıyır. Əgər ötən əsrin əvvəllərində cəmi 23 ay fəaliyyət göstərən cümhuriyyəti qoruyub saxlamaq mümkün olmamışdırsa, xalqımız əsrin sonunda Heydər Əliyevin qətiyyəti və siyasi uzaqgörənliyi ilə bu istəyini reallığa çevirdi. Bugünkü müstəqil Azərbaycan xalqımızın uzun illər ürəyində yaşatdığı istiqlal istəyinin gerçək həyatda ifadəsi, onun milli mənliyinin təcəssümüdür!

1993-cü il iyunun 15-i Azərbaycan xalqının həyatında yeni dövrün başlanğıcıdır. Dövlətçiliyimizin formalaşmasında misilsiz xidmətlər göstərmiş Heydər Əliyevin həmin gün ölkənin qanunvericilik orqanına sədr seçilməsi ilə ikinci dəfə siyasi hakimiyyətə gəlməsi şanlı tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuşdur. Vətənini, xalqını sevən, odövrkü çətin və ağrılı günlərin dəhşətlərini yaşayan insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycanda ölüm-dirim mübarizəsinin tarixidir.

Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəlində Azərbaycan həlli çətin görünən problemlə üzləşmişdi. Azərbaycanlıların öz doğma obalarından didərgin düşməsi, Dağlıq Qarabağ münaqişəsi, torpaqlarımızın dalbadal işğalı, separatizm meyilləri - bütün bunlar o dövrün adi mənzərəsi idi. Xaos və özbaşınalıq, vətəndaş müharibəsi təhlükəsi insanlarda ölkənin gələcəyi ilə bağlı böyük suallar doğurmuşdu. Belə bir vaxtda hamı Heydər Əliyevin yenidən siyasi olimpə qayıdışını səbirsizliklə gözləyir və bu görkəmli dövlət xadiminə böyük ümidlər bağlayırdı. Dövlətçiliyimizin müqəddəratının həll edildiyi 1993-cü ilin vahiməli iyun günlərində xalqın təkidli tələbi ilə Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı Azərbaycanı məhv olmaq fəlakətindən, Xalq Cümhuriyyətinin aqibətindən xilas etdi.

Ulu öndər bütün şüurlu həyatını vətəninə, xalqına sərf etmişdir. Bu tarixi simanın Azərbaycana ilk dəfə rəhbərlik etdiyi 1969-1982-ci illər milli tariximizə tərəqqi illəri kimi daxil olmuşdur. Heydər Əliyev hələ o vaxt Azərbaycanı müstəqil ölkə kimi görürdü. Keçmiş İttifaq rəhbərliyində işlədiyi illərdə də bu uzaqgörən siyasətçi Azərbaycanın bütün sahələrdə daha da qüdrətlənməsi üçün əlindən gələni əsirgəmirdi. İttifaq rəhbərliyindən uzaqlaşdıqdan sonra da o, həmişə vətəni, xalqı ilə birlikdə olmuşdur. 1990-cı ilin Qanlı yanvar hadisələrini kəskin tənqid edən Heydər Əliyev Naxçıvana dönmüş, tezliklə Azərbaycan Ali Sovetinə və Naxçıvan Ali Məclisinə deputat seçilmişdi.

Təəssüf ki, müstəqilliyimizin ilk illərinə təsadüf edən 1992-1993-cü illər müasir tariximizdə hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xarakterizə olunur. Bu dövrdə ölkədə separatçı qüvvələrin fəallaşması, Gəncədə qardaş qanının tökülməsi ilə ölkədə vətəndaş müharibəsinin başlanması və respublikanın parçalanma təhlükəsinin artması nəticəsində xalqın və müstəqil Azərbaycan dövlətinin gələcəyi sual altına qoyulmuşdu. Bax belə bir ümidsiz siyasi, sosial, iqtisadi və hərbi şəraitdə xalqın təkidli tələbi və iqtidarın məcburiyyət qarşısında qalıb davamlı xahişi ilə Heydər Əliyev Bakıya qayıtmışdı.

Onun bu qayıdışının dövlətçiliyimiz üçün misilsiz faydası oldu. Bu, sözün həqiqi mənasında, Azərbaycan dövlətinin və xalqımızın qurtuluşu idi. Heç də təsadüfi deyil ki, sonralar xalqın müxtəlif təbəqələrinin nümayəndələri Milli Məclisə müraciət edərək bu günün Azərbaycan xalqının "Milli Qurtuluş Günü" elan olunmasını tələb edirdilər.

Həmin vaxt mən Milli Məclisin deputatı idim və tale elə gətirdi ki, 1997-ci il iyunun 17-də parlamentdə çıxış edərək belə bir qərarın qəbul edilməsini təklif etmək mənə qismət oldu. Bundan 10 gün sonra - iyunun 27-də Milli Məclisin 45 deputatının çıxışında da mənim təklifim dəstəkləndi və həmin gün Milli Məclisin qərarı ilə 15 iyun - Azərbaycan xalqının Milli Qurtuluş Günü elan olundu.

Milli Məclisin həmin tarixi qərarında deyilir: *"Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, əslində, onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi".*

Azərbaycan dövlətini tarixi burulğanlardan xətərsiz çıxarıb xilas etmək, sabit və ardıcıl inkişaf yoluna çıxarmaq üçün böyük siyasi iradə və qətiyyət, çevik və dərin ağıl, zəngin təcrübə, başlıcası isə xalqa tükənməz sevgi tələb olunurdu. Ulu öndər dünyanın güc mərkəzlərinin iradəsinə qarşı çıxaraq, onların Azərbaycan üçün hazırladıqları məkrli planları alt-üst etdi, xalqımızı və dövlətimizi təhlükələrdən xilas edərək ardıcıl inkişaf dövrünə çatdırdı. Söz düşmüşkən qeyd edim ki, hələ 17 noyabr 1990-cı ildə ilk dəfə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının qaldırılmasına nail olan Heydər Əliyev cümhuriyyət tariximizə varislik siyasəti gətirərək müstəqil Azərbaycan Respublikasının tezliklə bərpa olunacağını bəyan etmişdi.

Mübaliğəsiz demək olar ki, Heydər Əliyevin Ali Sovetin Sədri vəzifəsində çalışdığı qısa zaman kəsiyində Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi gələcək inkişafının təməli qoyuldu. Heydər Əliyev parlamentin dövlətçilik sistemində yerini və rolunu çox yaxşı bilir və ali məqsədlər naminə qanunverici orqanın imkanlarından maksimum yararlanmaq bacarığı göstərirdi. Ulu öndər ölkəyə ilk dəfə rəhbərlik etdiyi illərdə, sonralar Ali Sovetin Sədri olduğu dövrdə böyük məharətlə parlamentin gücünü tarixi vəzifələrin həllinə yönəldə bilmişdir. Heydər Əliyev ölkə başçısı seçildikdən sonra da parlamentlə sıx təmasda fəaliyyət göstərmiş, dəfələrlə Milli Məclisin tribunasından çıxış edərək, ölkə üçün taleyüklü məsələlərə öz münasibətini bildirmişdir.

Tarixi 15 iyun günündən sonra ulu öndərin Naxçıvanda başladığı milli qurtuluş savaşının əsl zəfər yürüşü başlandı. Onun təşəbbüsü ilə parlamentdə müstəqil dövlətimiz üçün həyati əhəmiyyətli qanunlar qəbul olundu. Tezliklə separatçıların ölkəni parçalamaq kimi məkrli niyyətlərinə layiqli cavablar verildi. Ordu quruculuğu sahəsində mühüm işlər görüldü, cəbhədə atəşkəs elan olundu.

Bütün türk dünyasının ən nadir tarixi simalarından sayılan Heydər Əliyevin rəhbərliyi ilə respublikamız dünyanın tanınmış neft şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzaladı, qədim İpək yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan,



Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. İqtisadiyyatın dirçəldilməsi üçün konkret addımlar atıldı, sənayedə, kənd təsərrüfatında islahatlar aparıldı, torpaq kəndliyə verildi. Ölkəmiz tezliklə vahid Avropa ailəsinə qəbul edildi, cəmiyyətin demokratikləşməsi, insan hüquq və azadlıqlarının qorunması sahəsində səmərəli tədbirlər həyata keçirildi. Müstəqil Azərbaycanın yeni Konstitusiyası qəbul edildi, ilk parlament və bələdiyyə seçkiləri keçirildi.

Onun heyrətamiz xilaskarlıq missiyası nəticəsində Azərbaycan tezliklə təlatümlərdən, sarsıntılardan çıxaraq gələcəyə inamla baxan bir dövlətə çevrildi. Heydər Əliyevin ikinci dəfə ölkəmizə rəhbərlik etdiyi 1993-2002-ci illəri əhatə edən dövr Azərbaycan xalqının həyatında baş verən taleyüklü mərhələni - müstəqilliyimizin möhkəmlənməsi dövrünü əhatə edir. Əgər 1989-1991-ci illərdə iqtisadi inkişafın ümumiləşdirici göstəricisi olan ümumi daxili məhsul istehsalı hər il orta hesabla 5,7 faiz azalırdısa, sonrakı üç il ərazində azalmanın sürəti 3,8 dəfə artmışdır. 1996-cı ildən isə ümumi daxili məhsul istehsalında ardıcıl yüksəlişə nail olunmuşdur. Belə ki, 1993-cü ilə nisbətən 2002-ci ildə ümumi daxili məhsul istehsalı cari qiymətlərlə 193, dövlət büdcəsinin gəlirləri 85, xərcləri 72 dəfə artmışdır.

Prezident İlham Əliyev ulu öndərin Azərbaycan xalqı və dövləti qarşısında göstərdiyi xidmətlər barədə belə deyir: *"1993-cü ildən başlanmış və bu günə qədər davam edən iqtisadi və siyasi islahatlar ölkəmizin dünya birliyinə layiqli üzv kimi daxil edilməsində çox mühüm rol oynadı. Azərbaycanda güclü sosial siyasətin əsasları da məhz o illərdə qoyulubdur. Ona görə ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri unudulmazdır, əvəzolunmazdır və onlar tarixi əhəmiyyət kəsb edir".*

Sonrakı mərhələdə əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ölkənin milli inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurlu davamı üçrəngli bayrağımızı zirvələrə yüksəltdi. Azərbaycan böyük dövlətlərin yüzillər ərzində keçdiyi yolu qısa zaman kəsiyində qət edərək böyük nailiyyətlərə imza atdı. Ölkənin daxili və xarici siyasət konsepsiyası beynəlxalq hüquq normalarına uyğun quruldu, dövlətçilik ənənələri zənginləşdirildi. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ölkənin neft strategiyasının reallaşmasına imkan yaratdı. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin fəaliyyətə başlaması, Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişi ölkənin böyük strateji uğuru oldu. Azərbaycan bölgədə lider dövlətə çevrildi.

Hazırda respublikamızın iqtisadi inkişafı hər bir sahədə innovasiyanın və müasir texnologiyanın tətbiqinə əsaslanmaqla kompleks inkişafı təmin edən strategiya üzrə həyata keçirilir. Bu məqsədlə Prezidentin 2016-cı il 16 mart tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" sərəncamına uyğun olaraq, 11 istiqamət üzrə strateji yol xəritələri hazırlanmış və dövlət başçısının fərmanı ilə təsdiq edilmişdir. Tezliklə bu strateji yol xəritələri üzrə fəaliyyətə başlamaq üçün geniş hazırlıq işləri aparılır.

Bünövrəsi ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan aqrar siyasət Prezident İlham Əliyev tərəfindən bu gün də çox uğurla, müasir tələblər səviyyəsində davam etdirilir. Dövlət başçısının ayrı-ayrı rayonların sosial-iqtisadi inkişafına dair imzaladığı çoxsaylı sərəncamların həyata keçirilməsi kənd yerlərinin inkişafına böyük təkan verir, kəndlərə və kənd təsərrüfatına marağı artırır. Respublikamızın kənd rayonlarında 43 aqroparkın və 30-dan çox iri təsərrüfatın yaradılması nəzərdə tutulur ki, bunlardan da bir neçəsi artıq fəaliyyət göstərir. Onlarda taxılın məhsuldarlığı hər hektardan 50-55 sentner, hər inəkdən süd istehsalı isə 6-7 min litr və daha çoxdur. Son illər 200 min hektardan çox əvvəllər istifadə olunmayan və istifadəyə yararsız torpaqlar yararlı hala salınaraq əkin dövriyyəsinə daxil edilmişdir.

Ölkəmizdə pambıqçılığın, üzümçülüyün, baramaçılığın və ipəkçiliyin, çayçılığın, tütünçülüyün inkişafı, habelə kənd təsərrüfatı kooperasiyasının inkişafına dair dövlət proqramları qəbul edilmiş və onlar uğurla həyata keçirilir. Bu tədbirlər nəticəsində ölkəmiz yaxın vaxtlarda əhalini əsas ərzaq malları ilə daxili istehsal hesabına təmin etməklə yanaşı, bu məhsulları idxal edən ölkədən ixrac edən ölkəyə, aqrar sektor isə ümumi daxili məhsul istehsalında mühüm çəkisi olan bir sahəyə çevriləcək.

Bugünün fövqündən baxanda Azərbaycanın gələcəyi daha işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı ulu öndər Heydər Əliyevin siyasi varisi İlham Əliyevin əlindədir. Prezident və Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan misli görünməmiş sosial-iqtisadi inkişafa nail olmuş, regionda, beynəlxalq aləmdə tanınan lider statusunu qazanmışdır. İlham Əliyev ulu öndərin dövlətçilik siyasəti ilə bərabər, onun xalqı arxasınca aparmaq bacarığı, liderlik missiyasını da uğurla həyata keçirir.

İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanın əldə etdiyi uğurlar həqiqətən heyrətamizdir. Azərbaycan artıq xarici dövlətlərdən yardım alan ölkədən onların iqtisadiyyatına sərmayələr yatıran dövlətə çevrilmişdir. Son 14 ildə (2004-2017-ci illər) Azərbaycan iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulmuş, ölkəmizin valyuta ehtiyatları 23 dəfə artaraq 42 milyard dollara çatmışdır. Bu dövrdə maaşlar 5, pensiyalar isə 8 dəfə artıb, 1,9 milyon yeni iş yeri yaradılıb, işsizlik 5 faizə düşüb, yoxsulluq 5,4 faizə enib. Sahibkarlara güzəştli şərtlərlə 2 milyard manatdan çox kreditlər verilib, sənaye sahəsində 2,6, kənd təsərrüfatında 1,7, qeyri-neft ixracında 4,1 dəfə artım əldə edilib. Oğuz-Qəbələ-Bakı su xəttinin çəkilməsi ilə ölkə üzrə fasiləsiz içməli su təminatı 26 faizdən 67 faizə çatlb, qazlaşdırma 51 faizdən 93 faizə yüksəlib. İlham Əliyevin prezidentliyi dövründə Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay su anbarları tikilib, 12 min kilometrdən çox yol çəkilib, 3100 məktəb və 642 tibb müəssisəsi tikilib, yaxud təmir edilib, digər infrastruktur obyektlər istifadəyə verilib.

Sənayenin inkişafı istiqamətində də əsaslı işlər görülüb. Son vaxtlar bu məqsədlə sənaye parkları yaradılır. Belə ki, Sumqayıt şəhərində 506 hektar sahəni əhatə edən 15 zavodun fəaliyyət göstərməsi üçün hər bir şəraiti olan ən iri sənaye parkı yaradılmış və bu müəssisələrin bir çoxu artıq məhsul istehsal etməyə başlamışdır. Mingəçevir şəhərində isə tekstil sənayesi üçün ölkəmizdə istehsal edilən xammalın son məhsulacan emalını təmin edən sənaye parkı yaradılmış və parkın rezidentləri fəaliyyətə başlamışdır. Yaradılan sənaye parklarında əsasən idxal olunan malları əvəz edən məhsullar istehsal olunacaq ki, bu da ölkəmizi bəzi məhsulların idxalından qurtaracaq və onların bir çoxunu ixrac etmək imkanı yaradacaq.

Hazırda ölkəmizin haqq səsi dünyanın mötəbər kürsülərindən eşidilir. Bu gün Bakı nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi edir. Heydər Əliyevin qurucusu olduğu Azərbaycan sivilizasiyaların qovuşduğu və anlaşdığı bir məkana çevrilir.

Əbəs yerə deyildir ki, Davos Dünya İqtisadi Forumu rəqabətqabiliyyətliliyinə görə Azərbaycanı 35-ci, inklüziv inkişaf indeksinə görə isə inkişafda olan 80 ölkə sırasında 3-cü yerə layiq görüb. Forumun digər hesablamasına əsasən, ölkəmiz ərzaq təhlükəsizliyi indeksinə görə 57-ci yerdədir.

Heydər Əliyevin yaratdığı möhkəm təməl üzərində inkişaf edən Azərbaycan bu gün geniş bir bölgədə söz sahibi olan güclü bir dövlətdir. Ölkəmizin getdikcə daha da artan imkanları qarşıya qoyulan hər bir mürəkkəb vəzifəni uğurla yerinə yetirməyə imkan yaradır. Azərbaycan Avropanın enerji təhlükəsizliyinə böyük töhfələr verməklə yanaşı, həm də Avropa ilə Asiyanı, Şimalla Cənubu bir-birinə sıx bağlayan nəhəng transmilli layihələrin həyata keçirilməsində həlledici rol oynayır. "Əsrin müqaviləsi"nin daha bir neçə on il uzadılması, TANAP qaz kəmərinin istifadəyə verilməsi fikirlərimizi bir daha təsdiqləyir.

Bəli, ulu öndərin qurucusu olduğu Azərbaycan bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə dünya çapında özünü təsdiqləmiş bir ölkədir. *"Artıq yaşadığımız bölgədə heç bir qlobal layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz".* Ölkəmiz regionda kosmik klubun ilk üzvü, bölgənin söz sahibidir. Builki prezident seçkilərində vətəndaşların İlham Əliyevi yenidən ölkə başçısı seçməsi məhz xalqın dövlət başçısına olan inamının parlaq təcəssümü, Heydər Əliyev ideyalarına sədaqət nümunəsidir!

***Eldar İBRAHİMOV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, iqtisad üzrə elmlər doktoru, professor***

# ÜÇ GÖRÜŞÜN UNUDULMAZ TƏƏSSÜRATI

Zəmanəmizin böyük şəxsiyyəti, müstəqilliyimizin əsas qurucusu möhtərəm Heydər Əliyevlə üç görüşüm olub.

İlk tanışlığımız 1982-ci ilin qızmar avqust ayının axırlarına təsadüf edir.

Bürkülü, cansıxıcı axşamların birində Mərkəzi Komitənin Mədəniyyət şöbəsindən mənə zəng çalındı. Tanımadığım məsul bir işçi özünü təqdim edib bildirdi ki, Heydər Əliyevin başçılığı ilə sabah Bərdə rayonuna, pambıq yığımı mövsümünün açılışına dair müşavirəyə getməliyəm. Bir qədər karıxdım. Mən hara, pambıqçılıq müşavirəsi hara? Yadıma düşdü ki, son illər pambıq toplanışı zamanı, bir qayda olaraq, belə müşavirələr keçirilir, kolxozçularla görüşə, müşavirədə iştiraka yaradıcılıq təşkilatlarından da nümayəndələr aparılır. Heç nə demədim. Çaşqınlığım daxili gərginliklə əvəzləndi. Evdə ağır xəstəm vardı. Onu xəstəxanaya çatdırmalı, müalicəsi ilə məşğul olmalı idim. Mənim tərəddüdümü anlayan məsul işçi kiçik açıqlama verdi:

- Getmək mütləq lazımdır. Tədbir iştirakçılarının siyahısına sizin adınızı Heydər Əliyeviç şəxsən saldırıb. Xahiş edirik axşam saat on tamamda dəmir yolu vağzalının "Deputatlar otağı"nda olasınız.

Ertəsi gün təyin olunmuş vaxtda vağzalın "Deputatlar otağı" adlanan xüsusi avadanlıqlı, geniş və yaraşıqlı salonunda tədbir iştirakçılarının hamısı cəm idi. Buraya toplanmış rəssamlar, bəstəkarlar, jurnalistlər, fotomüxbirlər, radio və televiziya işçiləri arasında tanıdıqlarım, salam verib, salam aldıqlarım az deyildi. Tələbəlik yoldaşım, yazıçı-publisist Nurəddin Babayevi də aralıdan gördüm. Deməli, bizim zümrədən budəfəki səfərə ikimiz qatılmışdıq. Ürəyimdə bir qədər rahatlıq yarandı.

Heydər Əliyev gecə saat on bir radələrində gəldi. Xeyli solğunlamış sifətindən yorğunluq yağırdı. Çox yəqin ki, hansısa vacib müşavirə, yaxud büro iclası keçirmişdi. Salona qədəm qoyan kimi gülümsədi. Xoş təbəssüm tutqun çöhrəsini xeyli durultsa da, gərginlik izlərini tamam silə bilmədi. İrəli yeriyib salondakılara ümumi salam verdi və dərhal da gecikdiyi üçün üzr istədi. Nəfəsini dərib perrona - açıq havaya çıxmağı təklif etdi:

- Necə düşünürsünüz, bəlkə gedək çöldə söhbət eləyək? İçərini kondisioner sərinlətsə də, çölün havası burdakından təmizdir, - dedi. Yorğunluq səsində də aydın duyuldu.

Bayırda hava həqiqətən xoşagələn idi. Astaqanad meh əsirdi. Gecədən xeyli keçdiyindən xəfə azalmışdı. Həm də perron yaxşıca sulanmış, asfalt döşəmə yuyulub silinmiş, istisinin hovu alınmışdı. Nəfəsimiz genişləndi.

Sakit perronda Heydər Əlirza oğlunu dövrəyə aldıq. O, cərgənin əvvəlindən başlayıb, axıra qədər hamı ilə əl tutuşub görüşdü. Mənə çatanda ayaq saxladı. Diqqətlə üzümə baxdı. Yarıhəlim-yarıciddi iradla soruşdu:

- Sən niyə bizdən qaçırsan? Tədbirlərdə az-az görürəm səni. Dəvət almırsan, ya öz vaxtına qıymırsan?

Mən dinmədim. Doğrusu, inciklliyim vardı... Əvvəllərdə, yəni Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib (indiki anlayışla başçı) təyin olunmazdan qabaq adlarını çəkmək istəmədiyim bəzi yüksək vəzifəlilər tərəfindən qapılar arxasında çox saxlanmışdım.

Heydər Əliyev susqunluğumun kökünə varmadı. Vaxtın azlığındanmı, ya nədənsə yönünü çevirib məndən sonrakı yoldaşlara yanaşdı. Axırda hamıya xeyirli gecə, xoş istirahət arzuladı. Ağır, ləngərli addımlarla "xüsusi qatar"ın özünə məxsus vaqonuna istiqamət götürdü.

"Xüsusi qatar" cəmi üç vaqondan ibarət idi. Bizi sonuncu vaqonda yerləşdirdilər. Burada hər şey üzə gülürdü. Səliqə-sahman, avadanlıq göz oxşayırdı. İçəri qədərincə sərindi, kondisioner işləyirdi. Qar ağlığında, ütülü, kraxmallı yatacaq adama şirin yuxu gətirirdi. Nurəddin Babayevlə bir kupeyə düşmüşdük. O, bərk yorulduğunu, bütün günü qaç-qovda olduğunu söylədi. Gözlərini yuman kimi də mışıldadı.

Mən, necə deyərlər, "gecəquşu" idim. Yuxusuzluğa vərdişkardım. Ev şəraitimin pisliyi ucbatından yazı-pozu ilə yalnız gecələr, uşaqlarım dərin yuxuya gedəndən, nisbi sakitlik yaranandan sonra məşğul olur, səhərləri diri gözlə açırdım. Odur ki, vaqonun əla rahatlığı da gözlərimə uzun müddət mürgü çirişi gətirmədi...

❖ ❖ ❖

Yevlaxa günəş üfüqdə təzəcə boy göstərəndə çatdıq. Vağzal bayramsayağı bəzədilmişdi. Sabahın yenicə açılmasına baxmayaraq, məktəblilər, müəllimlər, rayonun məsul işçiləri, idarə-müəssisə əməkdaşları (kişili-qadınlı) pişvaza çıxmışdılar. Balaca oğlan və qızların əllərində əlvan gül-çiçək dəstələri vardı. Bu gül-çiçəklər, lap yəqin ki, Heydər Əliyevə xalq məhəbbətinin rəmzi kimi təqdim ediləcəkdi.

Belə də oldu. Heydər Əliyev öz vaqonunun pillələri üstündə görününcə cərgələr pozuldu. Gül-çiçəkli uşaqlar hərəkətə gəldilər. Bir-birini qova-qova Heydər Əliyevi dövrələdilər. Hədiyyələrini növbə ilə ona təqdim etdilər. Heydər Əliyev balacaların kimisinin üzündən öpdü, kimisinin başını sığalladı. Sonra rayon təşkilatlarının başçıları, ağsaqqallar və müəllimlər görüşə tələsdilər.

Heydər Əliyev əlavə təmtərağa şərait yaratmadı. Hamı ilə ümumi şəkildə salamlaşıb, yola davam etməyə göstəriş verdi. Təyinatlı maşınlara mindik. "Çayka"ların, "Volqa"ların, "Qaz-51"lərin, "Jiquli"lərin işə düşmüş mühərrikləri sabahın sakit ovqatına xələl qatdı.

Bərdə rayonunun girəcəyinə yaxın, mənzərəli bir yerdə maşın karvanı yoldan azacıq qırağa çıxıb əyləndi. Sıx və qollu-budaqlı ağaclar çətirində uzun-uzun masalar uc-uca dayanmışdı. Süfrələrə neçə cür meyvələr, mineral sular səliqə ilə düzülmüşdü.

Səhər yeməyinə dəvət aldıq. On beş-iyirmi dəqiqə ərzində aclığımızın, ilk növbədə susuzluğumuzun "qurd"unu öldürüb yenidən maşınlara doluşduq.

O gün axşama qədər beş kolxozun pambıq sahələrini gəzdik. Qabaqcıl pambıqçılarla görüşdük. Yığımın gedişi, ümumi vəziyyətlə maraqlandıq. Cib dəftərçəmizə müəyyən qeydlər etdik. Fotomüxbirlər şəkillər çəkdilər. Jurnalistlər müsahibələr apardılar. Rəssamlar eskizlər götürdülər. Bəstəkarlar notlarına nəsə yazdılar.

Heydər Əliyev hər yerdə bizim önümüzdə gedirdi. Üst-başının toz-torpağa bələnəcəyinə əhəmiyyət vermir, şax-şəvəlləri yara-yara tarlanın içərilərinə girir, kolxozçularla iş əsnasında görüşür, hal-əhval tutur, problemlərini elə oradaca öyrənirdi. Şirin söhbətlə bərabər belinə önlük bağlayıb özü də pambıq yığırdı. Beləcə sadə insanlarla qaynayıb-qarışır, səmimiyyətə, açıq söhbətə körpü salırdı.

İşlərlə, vəziyyətlə bu sayaq tanışlıqdan sonra hər briqadanın öz "tarla çardağı" altında məsləhət-məşvərət iclası başlanırdı. İclasların gedişinə də Heydər Əliyev bilavasitə özü rəhbərlik edirdi. Kolxozçularla söhbəti elə qurur, elə səmtə yönəldirdi ki, yerli rəhbərlərin müdaxiləsinə, nəsə söyləməsinə ehtiyac yaranmırdı. Briqadirlər, manqa başçıları, sıravi zəhmətkeşlər bir-birinin ardınca ortaya çıxıb məsələ barədə rəy bildirir, dil-dil ötürdülər. Çıxışlarının axırında da könüllü öhdəliklər götürür, planı bir neçə faiz artıqlaması ilə yerinə yetirəcəklərini bildirirdilər.

Bu öhdəliklərdən, əmək coşqunluğundan məmnun qalan Heydər Əliyev lap sonda alovlu yekun nitqi söyləyirdi. Adamları daha əzmlə çalışmağa səsləyir, bol məhsulu itkisiz və vaxtında yığmaqda uğurlar arzulayır, yeni-yeni qələbələrə ruhlandırırdı.

...Gecikmiş naharımızı rayon mərkəzində elədik. Artıq şər qarışırdı, axşam toranlığı düşhadüş idi. Qədim Bərdə şəhəri ilə ötəri tanışlıqdan sonra mədəniyyət evinə - rayonlararası müşavirəyə toplaşdıq. Pambıqçılıqla məşğul olan yaxın rayonların rəhbər işçiləri, qabaqcıl briqadir və manqabaşçıları dəvət almış bu müşavirə çox sıxlıq idi. Böyük salonda boş yer yoxdu. Müşavirə canlı keçdi. Çıxışların arası kəsilmədi. Əksər nümayəndələr işə mane olan texniki çatışmazlıqları önə çəkib, ürəklərini boşaltdılar. Sonda yenə Heydər Əliyev geniş, məzmunlu yekun nitqi söylədi. Yeknəsəq danışıqlardan yorulub mürgüləmişləri onun gur, yapışıqlı səsi diksindirib oyatdı. Görülmüş işlərə ətraflı təhlil verib, müvəffəqiyyətləri alqışladı. İşdə buraxılmış bəzi nöqsanlardan da yan keçmədi.

*Ardı 9-cu səh.*



# MİLLİ QURTULUŞ

## - SÜRƏTLİ İNKİŞAF, MÜSTƏQİL SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993 2018

# İNAM VƏ ETİMAD ÜNVANI

## Qurtuluşdan başlanan dinamik inkişaf strategiyası davamlı uğurlara təminatdır



*Əvvəli 1-ci səh.*

Müxtəlif zaman və məkanlarda yaranan hər bir əlverişli şəraitdə xalq malik olduğu mənəvi-intellektual potensialı, zəngin mədəniyyəti və milli özünüdərk səviyyəsi ilə yüksək azadlıq idealına, tarixin yaddaşında saxlanan milli dövlətçilik, müstəqillik ənənələrinin bərpasına can atır. Bu mənada indi mütləq əksəriyyət etiraf edir ki, zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı üçün belə real tarixi şans ötən əsrin ikinci yarısında - ulu öndər Heydər Əliyevin 1969-cu ilin 14 iyulunda respublika rəhbərliyinə təyinatından sonrakı mərhələdə yaranmışdır.

### Heyrətamiz iradə və məqsədyönlülük

O, çox sadə bir həqiqəti rəhbər tuturdu: nə qədər ki insanlar özlərinin həyatı və yaşamaq hüququ, müstəqillik və milli dövlətçilik uğrunda mübarizə aparmağa qadirdir, onlar üçün nə ictimai əmin-amanlığın və barışığın bərqərar olmasında, nə də yaranmış siyasi, sosial və iqtisadi böhrandan çıxış yollarının tapılmasında ədəfedilməz maneələr yoxdur və ola da bilməz.

Bütöv və kamil şəxsiyyət olan Heydər Əliyevin hələ o dövrdən sosial ədalət, düzgünlük və humanizm prinsiplərinə söykənməsi ilk növbədə onun yüksək daxili demokratizmindən və hər kəsə örnək olacaq vətəndaşlıq məsuliyyətindən irəli gəlmişdir. İlk gündən respublikanın həyatı ilə bağlı ən müxtəlif problemlərə toxunan ümummilli lider hüquq mühafizə orqanlarındakı nöqsanlara, ən başlıcası, vətəndaşların hüquq və azadlıqlarının təminatı sahəsində mövcud olan problemlərə toxunmuş, onların həlli yollarını göstərmişdir.

Ulu öndərin Azərbaycana birinci rəhbərliyi dövründə böyük uzaqgörənliklə həyata keçirdiyi elm, təhsil və mədəniyyət siyasəti müstəqillik illərində milli ziyalı elitasının intellektual potensialının yüksəkliyinə özünü göstərməklə aparılan islahatların praktik nəticələr verməsini təmin etmişdir. 1970-1980-ci illərdə ümummilli liderin rəhbərliyi altında təhsil müəssisələrinin zəngin şəbəkəsinin yaradılması və onların maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənarda yüksəkixtisaslı mütəxəssislərin, o cümlədən hərbi kadrların yetişdirilməsi, Elmlər Akademiyasının tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması gələcəkdə milli müstəqilliyimiz üçün zəruri intellektual zəmin yaratmışdır.

Ulu öndərin yeritdiyi siyasətin dərinliyi və uzaq hədəflərə hesablanması onun zəngin intellektual potensiala söykənməsi ilə şərtlənmişdir. Həmin illərdə respublikamızda məktəb tikintisi prosesinin sürətlənməsi, maarif işinin yüksək səviyyədə təşkili, ixtisaslı kadrlar hazırlanması yeni ali məktəblərin açılması, fundamental və humanitar elmlərin inkişafı, əldə olunan kəşflərin iqtisadiyyatın bütün sahələrində tətbiqi böyük rəhbərin təhsil siyasətinin əsas leytmotivini təşkil etmişdir.

Heydər Əliyevin respublika rəhbərliyinə gəlişindən sonrakı dövr həm də milli özünüdərk və özünəqayıdışın başlanğıcı kimi qəbul edilir. Ulu öndər paytaxt Bakının kosmopolit ruhlu kadr potensialından azad olması üçün milli kadrların yetişdirilməsi işinə də xüsusi qayğı ilə yanaşmış, bu məqsədlə təhsilin səviyyəsinin yüksəldilməsini vacib məsələ kimi önə çəkmişdir. Həmin illərdə milli-mütərəqqi fikrin və ictimai düşüncənin başlıca mərkəzi olaraq flaqman ali məktəb statusunu qoruyub saxlayan, milli kadr hazırlığında əsas yükü üzərinə götürən Azərbaycan Dövlət Universitetinə (indi BDU) diqqət və qayğının artırılması, bu təhsil ocağının fəaliyyətinin gücləndirilməsi Heydər Əliyevin daim diqqətində olmuşdur. Ulu öndərin 1969-cu ilin noyabrında universitetin 50 illik yubileyinin keçirilməsinə qərar verməsi və həmin toplantıda Azərbaycan dilində dərin məzmunlu nitq söyləməsi də onun bu elm məbədinə verdiyi yüksək qiymətin təzahürü kimi bu gün də ehtiramla xatırlanır.

Böyük rəhbər Heydər Əliyev ideoloji baryerlərin son dərəcə sərtliklə işə düşdüyü keçmiş imperiya dövründə böyük təzyiqlərlə, təqiblərlə üzləşsə də, heç bir riskdən çəkinməyərək əzmkar fəaliyyəti ilə xalqın tarixi keçmişini, milli kimliyini, dilini, mədəniyyətini, milli adət-ənənələrini qoruyub saxlaya bilmişdir. O dövrdə repressiya qurbanlarına bəraət verilməsi istiqamətində gördüyü işlər də məhz azərbaycançılıq məfkurəsinin gücləndirilməsinə xidmət etmişdir. Dahi rəhbərin vətənpərvər fəaliyyətinin nəticəsi olaraq respublikada milli ruhlu ziyalı təbəqəsi formalaşmış, Azərbaycan tarixçiləri şanlı keçmişimizin mümkün qədər obyektiv tədqiqi istiqamətində ilk addımlarını atmağa başlamışlar. Yaranmış əlverişli imkanlardan istifadə edərək Atabəylər dövlətinin tarixini yazan mərhum akademik Ziya Bünyadov 70-ci illərin ortalarında ümummilli lider tərəfindən dövlət mükafatına layiq görülmüşdür. Azərbaycan SSR-in 1978-ci ildə qəbul edilmiş Konstitusiyasında Azərbaycan dilinin rəsmi dövlət dili kimi təsbit edilməsi də ulu öndərin prinsipiallığı, cəsarəti, ən əsası, milli ideallara bağlılığının bariz göstəricisi kimi bu gün də qürurla xatırlanır.

Heydər Əliyevin şəxsiyyəti kimi böyüklüyünü təcəssüm etdirən ən başlıca keyfiyyətlərdən biri də onun siyasi fəaliyyətinin bütün mərhələlərində ümumxalq mənafeyi ilə bağlı məsələlərdə heç bir riskdən çəkinməməsi, cəsarət və qətiyyət göstərməsi, ədalət meyarına sadiqliyi idi. 1982-ci ildən sonrakı mərhələdə - SSRİ rəhbərliyində olanda da Heydər Əliyev doğma vətənini, xalqını unutmamış, hər zaman Azərbaycanın mənafeyini müdafiə etmişdir. 1990-cı ilin 20 Yanvarında həyatını risk qarşısında qoyaraq ailəsi ilə birgə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlmiş, Bakı şəhərinə təcavüz olunması barədə qərar qəbul edən insanların hərəkətlərini bağışlanmaz siyasi səhv adlandırmış, faciənin törədilməsində günahkar olan respublika və imperiya rəhbərlərini açıq ittiham etmişdir.

### Xilaskar rəhbər

Tarix boyu böyük siyasi liderlər üçün seçiciyəvi keyfiyyətlərdən biri də onların xalq və dövlət üçün ən böhranlı, çətin sınaq anlarında məsuliyyəti çiyinlərinə götürməsi, bütöv bir xalqın, millətin xilaskarına çevrilməsi olmuşdur. Bu mənada ümummilli lider Heydər Əliyevin fitri idarəçilik keyfiyyətləri sırasında onun ən ekstremal və millətin taleyi baxımından məsuliyyətli dönəmlərdə ictimai mənafeləri özündə tamamilə ehtiva edən qətiyyəti, eyni zamanda yaranmış şərait üçün ən optimal qərarlar qəbul etmək məharətini xüsusi qeyd etmək lazımdır.

1991-1993-cü illərdə respublikada cərəyan edən mürəkkəb proseslər - siyasi böhranın, xaos və anarxiya mühitinin dərinləşməsi, xalqın canı, qanı bahasına əldə etdiyi dövlətçiliyin itirilməsi təhlükəsinin yaranması bu reallığı bir daha təsdiqlədi ki, yalnız böyük ictimai dəstəyə malik liderlər xalqlarının müstəqilliyinə etibarlı təminat yarada, onu qoruyub saxlaya bilərlər. Həmin illərdə Azərbaycanda hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə yanaşı, daxili böhranın, vətəndaş itaətsizliyinin, xaos və anarxiyanın yaranmasına rəvac vermiş, qanunçuluğun və hüquq qaydalarının təminatı, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun, ən nəhayət, ictimai asayişin qorunması sahəsində əsaslı problemlər yaratmışdı.

Əgər bu həlledici mərhələdə tarixə Milli Qurtuluş Günü kimi daxil olmuş əlamətdar hadisə baş verməsəydi, xalqın təkidi tələbi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, indi biz müstəqil, qüdrətli, hər zaman tərəqqi edən, yenilәşən və demokratikləşən Azərbaycan dövlətindən danışa bilməzdik. Ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 15-də Ali Sovetin Sədri seçilməsi onun sadəcə hakimiyyətə qayıdışı deyildi, eyni zamanda xalqın qurtuluş, qəhrəmanlıq tarixidir. Bu qayıdış ilk növbədə Azərbaycanın varlığını, müstəqilliyini, dövlətçiliyini qoruyub saxlamış, ölkəni parçalanmaqdan, vətəndaş müharibəsindən, düşmən işğalının geniş miqyas almasından xilas etmişdir.

Dünya şöhrətli alim İhsan Doğramacı Heydər Əliyev şəxsiyyətini qiymətləndirərkən demişdir: "Heydər Əliyev zəmanəmizin nadir yetişdirdiyi dövlət xadimlərindəndir. Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və öz xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Azərbaycanın ən çətin anlarında vətəni xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmişdir... O, ölkəsini bəlalardan qurtaran dövlət başçısıdır".

Azərbaycan Respublikası Milli Məclisinin 1997-ci il 27 iyun tarixli qərarı ilə 15 iyunun hər il Milli Qurtuluş Günü kimi qeyd edilməsi də obyektiv reallığa əsaslanır. "Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin, müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması əslində onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin, şərəfli missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, sözün əsl mənasında "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib meydana atılan böyük ürəkli vətən oğlunun öz xalqı, vətəni qarşısında misilsiz fədakarlığı idi", - deyə Milli Məclisin qərarında vurğulanır.

Ulu öndər Heydər Əliyev Azərbaycanda dövlətçiliyin qorunub saxlanılması və inkişaf etdirilməsi üçün çoxşaxəli islahatların reallaşdırılmasını da uğurla təmin etmişdir. Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası baxımından hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu siyasətini diqqət mərkəzində saxlayan ümummilli lider Heydər Əliyev bu istiqamətdə mühüm tədbirlər həyata keçirmişdir. Böyük rəhbər hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü hər zaman vurğulamış, vətəndaşlara göstərilən əməli-hüquqi yardımın səviyyəsinin müntəzəm surətdə artırılmasının əsas təşəbbüskarı kimi çıxış etmişdir.

### Sabitliyi qorumaq, ölkəni dəyişmək zamanın tələbi idi

Ulu öndərin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dövlətin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur. Azərbaycan demokratik dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir.

Həyat sübut edir ki, sınaqlara tab gətirməyənlər iflasa uğrayır, özünü dəf edə bilənlər isə xalqın rəğbətini qazanır. Heydər Əliyev istər fiziki, istərsə də ictimai baxımdan ciddi sınaqlardan keçmişdir. Bu sınaqlar ona cəsarət və səbirlə yanaşı, dəyişiklikləri həssaslıqla hiss etmək, iti tarixi duyum kimi keyfiyyətlər də aşılamışdır. O, dönüş məqamının başlandığını əvvəlcədən duymaq və qarşıdakı işlərin zəruriliyini buna uyğun olaraq əsaslandırmaq üçün kifayət qədər uzaqgörən idi. Öz liderinin dövlətçilik istedadına və müdrikliyinə güvənən xalq həmişə bilir ki, o, sabitliyi qoruyub saxlamaq, ölkəni dəyişmək, zamanın tələblərinə layiqli cavab vermək üçün nə kimi tədbirlər görəcəkdir.

Konstitusiyanın qəbulundan sonra müstəqil Azərbaycanda çoxpartiyalı sistem, siyasi plüralizim, söz, mətbuat və sərbəst toplaşmaq azadlığı bərqərar olmuş, dövlət idarəçiliyi sistemi tamamilə yenidən qurulmuş, məhkəmə-hüquq islahatları uğurla davam etdirilmişdir. Ölkənin idarəetmə sistemində siyasi mədəniyyət elementləri güclənmiş, icra hakimiyyəti orqanlarının işinin dinamikliyi artmış, yerli özünüidarə orqanları formalaşmışdır. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi sahəsində genişmiqyaslı işlər görülmüş, müstəqil məhkəmə hakimiyyəti formalaşdırılmışdır.

Dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə malik ümummilli lider xarici siyasətdə yol verilmiş kobud səhvlərin aradan qaldırılması istiqamətində də qətiyyətli addımlar ataraq birinci növbədə qonşu dövlətlərlə münasibətləri sahmana salmağa çalışmış, balanslaşdırılmış xarici siyasət yeritməklə respublikamızın geosiyasi rəqabət meydanına çevrilməsinə yol verməmişdir. *"Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrin həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir"* deyən ümummilli lider həmçinin əlavə etmişdir ki, müxtəlif dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulması, Avratlantik məkana inteqrasiya, sivil Qərb dəyərlərinin mənimsənilməsi Azərbaycanın xarici siyasət prioritetləri sırasında mühüm yer tutur. Müstəqil respublikamızın 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş ilk milli Konstitusiyasında xarici siyasətin konseptual xarakterinin, məqsəd və vəzifələrinin səhih şəkildə əksini tapması məhz ulu öndər Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi sayəsində mümkün olmuşdur.

Ölkə rəhbəri Cənubi Qafqaz regionunun müxtəlif güc mərkəzlərinin rəqabət və qarşıdurma meydanına çevrilməsini yolverilməz saymış, bölgə dövlətlərinin ərazisində xarici qoşun və hərbi bazaların yerləşdirilməsinin, bir sözlə, Qafqazın militaristləşdirilməsinin əleyhinə olmuşdur. Respublikamız həmin illərdə təkcə səmərəli iqtisadi təşəbbüslərlə, konkret enerji-kommunikasiya layihələri, əlverişli tranzit-kommunikasiya imkanları ilə deyil, eyni zamanda demokratikləşmə xəttinə, Avratlantik məkana inteqrasiya kursuna sadiqliyi ilə Qərbin diqqətini cəlb etmiş, Avropa məkanında etibarlı tərəfdaş imici qazanmışdır.

Ulu öndər Heydər Əliyev birləşdirici lider kimi respublikamızdan kənarda güclü diaspor və lobbi təşkilatlarının formalaşdırılmasına da xüsusi qayğı ilə yanaşmışdır. Ümummilli liderin vətən və xalq qarşısında göstərdiyi böyük xidmətlərdən biri də milli dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından çox əhəmiyyətli olan azərbaycançılıq ideyasını irəli sürməsi, milli birlik meyillərinin daha da dərinləşdirilməsidir. 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I qurultayının kecirilməsi, ümummilli lider Heydər Əliyevin fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması da milli həmrəyliyə nail olmaq amalının Azərbaycanın dövlət siyasətinin tərkib hissəsinə çevrildiyini nümayiş etdirmişdir.

### Maarifçilik siyasəti

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri eyni zamanda onun ciddi təmələ əsaslanmaqla həyata keçirdiyi fəal maarifçilik siyasətində parlaq təcəssümünü tapır. Həmin illərdə Azərbaycan təhsilinin milli əsaslar üzərində çağdaş dünya təhsil sisteminə inteqrasiyası başlıca vəzifə kimi gündəlikdə olmuş, elm və təhsil sahəsində mütərəqqi islahatlar ardıcıllıqla həyata keçirilmişdir. Xüsusi vurğulamaq lazımdır ki, 1993-2003-cü illərdə BDU-nun inkişafı, bu ali təhsil ocağında ixtisaslı kadrların yetişdirilməsi, universitetin maddi-texniki bazasının müasirləşdirilməsi məsələləri də ümummilli liderin diqqət mərkəzində olmuşdur.

Respublikamızın yüzlərlə görkəmli şəxsiyyətinin məzunu olduğu BDU bu gün həm də Heydər Əliyev kimi fenomen liderin, böyük duhanın ali təhsil aldığı elm ocağı olması ilə də qürur duyur. Universitetin məzunu olan ulu öndər onun cəmiyyətdəki xidmətlərini, rolunu daim yüksək dəyərləndirmiş, bu elm ocağına lazımi diqqət və qayğını əsirgəməmişdir. 100 illik tarixinə nəzər saldıqda məlum olur ki, universitetin fəaliyyətində intibah və tərəqqi mərhələləri də Heydər Əliyevin respublikaya rəhbərliyi illərinə təsadüf edir. BDU-nun 50, 60, 75 və 80 illik yubileyləri məhz ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə qeyd edilmiş, nüfuzlu elm və təhsil müəssisəsi müdrik dövlət başçısının qayğısı ilə sürətli inkişaf yolu keçmiş, maddi-texniki bazasını möhkəmləndirmiş, elmi sahədə nəzərəçarpacaq uğurlara imza atmışdır. Bu mənada universitetin 40 illik tarixi bilavasitə ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə ayrılmaz surətdə bağlıdır.

Bu gün əminliklə demək olar ki, müstəqil Azərbaycanın hazırkı böyük və həlledici uğurları bünövrəsini 1993-cü ilin 15 iyun tarixindən götürür. Respublikamız Heydər Əliyevin dövlətçilik və siyasi idarəçilik konsepsiyasına istinad edərək yeni-yeni uğurlarına doğru inamla irəliləyir. 2003-cü ildən ölkəyə inamla rəhbərlik edən cənab İlham Əliyev mütərəqqi inkişaf strategiyasını davam etdirməklə yanaşı, onu yeni dövrün tələblərinə uyğun zənginləşdirmiş, sosial-iqtisadi islahatlarla demokratikləşmə proseslərinin paralel şəkildə aparılmasına, birinin digərini tamamlamasına çalışmışdır.

Məhz bunun nəticəsidir ki, Azərbaycan cəmi 26 il müddətində inanılmaz inkişaf yolu keçərək bir sıra Qərb dövlətlərinin onilliklər ərzində zərrə-zərrə əldə etdiyi iqtisadi tərəqqiyə nail olmuş, demokratikləşmə, vətəndaş cəmiyyəti quruculuğu, insan hüquq və azadlıqlarının təminatı sahəsində müəyyən uğurlar əldə etmişdir. Demokratiyanın davamlı milli inkişaf baxımından qaçılmazlığı və müstəsna əhəmiyyət daşıması fikri ictimaiyyət tərəfindən də birmənalı qəbul olunmuşdur.

Bu da təsadüfi deyildir ki, 2018-ci ilin 11 aprelində Yeni Azərbaycan Partiyasının layiqli namizədinə - cənab İlham Əliyevə yüksək etimad göstərmiş milyonlarla insan məhz ölkəmizin uğurlu sabahı və dinamik inkişafı baxımından ən düzgün qərarı vermiş, beləliklə də gələcəyə biganə olmadığını göstərmişdir. Tamamilə azad, ədalətli, şəffaf şəraitdə keçirilmiş prezident seçkiləri müstəqil Azərbaycanın demokratikləşməsi prosesində mühüm mərhələnin əsasını qoymuş, liberal dəyərlərə, demokratik norma və prinsiplərə səmimi sadiqliyini nümayiş etdirmişdir. Keçid mərhələsini başa vurmuş respublikamız demokratik inkişaf yolunun dönməzliyini və əbədiliyini özü üçün tam yəqinləşdirmiş, xalqın, dövlətin perspektiv inkişaf strategiyasında bu mütərəqqi dəyərlərin rolunu və əhəmiyyətini bir daha önə çəkmişdir.

### Vahid ideya-siyasi xəttə sadiqlik

Azərbaycan cəmiyyətində son nəticə həmişə siyasi illüziyaları deyil, real göstəriciləri qiymətləndirir - ictimai rəyin siyasi vədlərə deyil, konkret faktlara qiymət verməsi anlamında xalqımız kifayət qədər müdrikdir. Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci il aprelin 18-də Milli Məclisdə keçirilmiş andiçmə mərasimində bununla bağlı demişdir: *"Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz ulu öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur. Son 15 il ərzində bu yolla gedərək biz böyük uğurlara imza atdıq, Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşamışdır... Biz görürük ki, sabitlik pozulanda inkişafdan söhbət gedə bilməz. Sabitlik pozulanda xarici müdaxilə baş verir, ölkələr idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir".*

Azərbaycanı nəinki Cənubi Qafqaz regionunda, ümumilikdə Avratlantika geosiyasi arealında öz sözü və mövqeyi olan, səmərəli iqtisadi təşəbbüslərin müəllifi kimi tanınan dövlətə çevirən Prezident İlham Əliyevin 2003-cü ildən yürütdüyü siyasət ölkə başçısının xalqın, dövlətin gələcək inkişafı ilə bağlı aydın baxışlara malik olduğunu göstərir. İqtisadi-siyasi liberallaşmaya və demokratikləşməyə xidmət edən islahatların dərinləşdirilməsi, Azərbaycanın inkişaf etmiş ölkəyə çevrilməsi, hər bir vətəndaşın layiqli həyat tərzinin təmin edilməsi, ən başlıcası, respublikanın ərazi bütövlüyünün və suverenliyinin bərpası keyfiyyətcə yeni mərhələdə milli ideyanın mahiyyətində qərarlaşmış praktik məqsədlərdir.

Dövlət başçısının ötən illərdə praqmatizmə söykənən iqtisadi siyasətinin əsas qayəsində məhz insan amili dayanmış, cənab İlham Əliyev xalq qarşısında verdiyi bütün vədlərə sadiq qalmaqla hər bir azərbaycanlının layiqli Prezidenti olduğunu təsdiqləmişdir. "Hər bir məmur xalqının xidmətçisi olmalıdır", - deyə hakimiyyəti xalqa layiqli xidmət vasitəsi kimi dəyərləndirən dövlət başçısı hökumətin mütəmadi olaraq xalq qarşısında hesabat verməsini, görülən işlər barədə ictimaiyyətin hərtərəfli məlumatlandırılmasını da demokratik idarəetmənin zəruri tələbi kimi önə çəkmişdir. Ölkə başçısı ötən 15 ildə ayrı-ayrı dövlət məmurlarına etimad meyarını məhz onların fəaliyyətinə əsasən müəyyənləşdirmiş, ictimaiyyətin görülmüş işlər, qarşıda duran məqsədlər, həyata keçiriləcək layihələr barədə dolğun məlumatlandırılmasını zəruri saymışdır.

Prezident İlham Əliyevin ötən illərdə imzaladığı bir sıra dövlət proqramları ilk növbədə regionların tarazlı, davamlı inkişafını, onların potensialının bir-birinə kömək mexanizmi üzərində qurulmasını, qeyri-neft sektorunun möhkəmdirilməsini, iqtisadiyyatın neftdən asılılıq dərəcəsinin azaldılmasını, infrastrukturun yeniləşdirilməsini təmin edən kompleks proqram sənədləri olmaqla yanaşı, bölgələrdə özəl sektorun və sahibkarlığın inkişafına xüsusi diqqət ayırmışdır. 2004-2008, 2009-2013 və 2014-2018-ci illəri əhatə edən regional inkişaf proqramları bu baxımdan xüsusi əhəmiyyət kəsb etmiş, bölgələrdə intibah mərhələsinin əsasını qoymuşdur.

Ötən 15 ildə dövlət siyasətinin prioritet istiqamətlərindən biri də strateji əhəmiyyətli layihələrin reallaşdırılması olmuşdur. Ümummilli liderin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi Ərzurum qaz kəməri istifadəyə verilmiş, "Ümid", "Abşeron" kimi perspektivli yataqlar kəşf olunmuş, Şərqlə Qərbi qovuşduran Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi reallaşdırılmış, TAP, TANAP kimi enerji layihələri həyata vəsiqə almışdır. Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli məqsədilə boru kəmərlərinin şaxələndirilməsi respublikamızı bütövlükdə Avropa məkanının enerji təhlükəsizliyi sisteminin əsas təminatçılarından birinə çevrilməsini təmin etmişdir. Bu gün Azərbaycan MDB və Avropa məkanında heç bir ölkədən enerji asılılığı olmayan, müstəqil siyasət yeridən azsaylı dövlətlərdəndir. Bir müddət əvvəl "Cənub qaz dəhlizi" layihəsinin təntənəli açılış mərasiminin keçirilməsi Azərbaycanın Avropanın enerji təhlükəsizliyində strateji əhəmiyyətli ölkə olduğunu təsdiqləmişdir.

### İnkişafın düzgün yolu

Hər bir dövlətin demokratik inkişafının əsas şərtlərindən biri də dövrün tələblərinə cavab verən kadr potensialının formalaşdırılması, çevik və işlək mexanizmlər üzərində dövlət idarəçiliyi sisteminin yaradılmasıdır. Şübhəsiz, sosial modernləşmə olmadan, ölkənin məmur və idarəçi elitasını gəncləşdirmədən, həmin elitanı texnokratlar, bu və ya digər fəaliyyət sahəsində uğur rəmzinə çevrilmiş, müvafiq praktik iş təcrübəsinə malik insanlar hesabına genişləndirmədən məqsədə çatmaq mümkün deyildir. Xüsusi vurğulamaq lazımdır ki, 11 aprel seçkilərindən dərhal sonra dövlət başçısının siyasi iradəsi ilə hökumətin tərkibinin əsaslı şəkildə yenilənməsi, idarəetmədə çevikliyi, müasirliyi, novatorluğu ilə fərqlənən, müasir innovasiyaları mənimsəyən yüksək təfəkkürlü gənclərin dövlət idarəetməsinə irəli çəkilməsi də islahatların səmərəliliyini təmin etmək, şəffaflığı artırmaq məqsədindən irəli gəlir.

Azərbaycanın ən nüfuzlu və aparıcı ali təhsil ocağı olan Bakı Dövlət Universiteti bu reallıqları düzgün dəyərləndirərək ölkəmiz üçün müasir təfəkkürlü və bacarıqlı kadrların hazırlanması işinə öz sanballı töhfələrini verməyə çalışır. Xüsusi vurğulayaq ki, universitet bu prosesdə dövlət başçısı İlham Əliyevin yüksək diqqət və qayğısını hiss edir və bunu minnətdarlıqla qarşılayır. Prezidentin müvafiq sərəncamı ilə 100 illik yubileyini təntənə ilə qeyd etməyə hazırlaşan Bakı Dövlət Universiteti hələ ötən əsrin 20-ci ilinin əvvəllərindən etibarən respublikada ictimai, mədəni, elmi və siyasi düşüncənin milli mənafe və məfkurəyə uyğun inkişafında mühüm rol oynamışdır. Universitet son 15 ildə görkəmini, maddi-texniki bazasını inanılmaz dərəcədə müasirləşdirmiş, Avropa təhsil məkanına inteqrasiya prosesində böyük nailiyyətlərə imza atmışdır.

Xalqımızın müasir tarixinin ən məsuliyyətli məsələlərinin həll olunduğu məqamlarda universitetin kollektivi əsl vətəndaş mövqeyi nümayiş etdirmiş, dövlətçiliyin, sabitliyin və əmin-amanlığın qorunub saxlanılması işində öz sözünü demişdir. Milli ideologiyanın formalaşması və inkişafı, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, gənclərin milli-mənəvi ruhda yetişdirilməsi prosesində də BDU-nun misilsiz xidmətləri var. BDU keyfiyyətcə yeni mərhələdə ulu öndər Heydər Əliyevin layiqli siyasi davamçısı - Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatların səmərəli şəkildə reallaşdırılmasına layiqli töhfələrini verir.

Bütün bunlar bir daha təsdiqləyir ki, 15 iyun Milli Qurtuluş Günündən başlanan inkişaf yolu keyfiyyətcə yeni mərhələdə böyük uğurlarla zəngindir. Bu gün Azərbaycan dünya miqyasında iqtisadi inkişaf modeli olan, qısa müddətdə makroiqtisadi göstəricilər əldə edən, qlobal layihələri uğurla reallaşdıran müstəqil dövlət kimi tanınır.

Bu gün Azərbaycanda həyata keçirilən siyasi və hüquqi islahatlar, modernləşmə kursu keçid dövrünü yaşayan ölkələr üçün model olaraq qəbul edilir.

Bu gün Azərbaycanda xalqla hakimiyyət arasında çox güclü mənəvi birlik, həmrəylik var. Məhz bu birlik sayəsində ölkə iqtidarı böyük iqtisadi-mədəni inqilablara müəlliflik edir.

Heydər Əliyev yolu ilə irəliləyən Azərbaycan xalqı onun ən layiqli davamçısının rəhbərliyi altında gələcəyə çox nikbin baxır.

***Abel MƏHƏRRƏMOV,***
***Bakı Dövlət Universitetinin rektoru, akademik***



# MİLLİ QURTULUŞ

## - SÜRƏTLİ İNKİŞAF, MÜSTƏQİL SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993 2018



# Azərbaycanı iqtisadi güc mərkəzinə çevirmiş islahatlar strategiyası

*Əvvəli 1-ci səh.*

1991-ci ilin 18 oktyabrında dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında dövlətçiliyin iqtisadi, siyasi, hüquqi və ideoloji əsaslarını sarsıdan bir çox sosial-mənəvi problemlər də məhz milli strategiyanın olmaması üzündən meydana çıxmışdı.

Müstəqilliyin ilk illərində Azərbaycanın üzləşdiyi ağır və mürəkkəb proseslər təsdiqlədi ki, müstəqilliyi yalnız qətiyyətli liderlərin, xalqına bağlı rəhbərlərin yüksək idarəçilik səriştəsi sayəsində qoruyub saxlamaq olar. Ötən əsrin 90-cı illərinin əvvəlindən başlayaraq bir tərəfdən Ermənistanın Azərbaycana qarşı ərazi işğalçılığı siyasətinin genişlənməsi, digər tərəfdənsə respublikada hakimiyyəti qeyri-qanuni ələ keçirmiş diletant qüvvələrə qarşı ictimai inamsızlığın dərinləşməsi, sosial-iqtisadi tənəzzül, vətəndaş qarşıdurması, xaos və özbaşınalıq, habelə yeni dövrün tələblərinə cavab verən qanunların yoxluğu vətəndaş cəmiyyətini əlçatmaz ideyaya çevirmişdi.

1993-cü ilin iyun ayınadək respublikanın müstəqilliyi şərti mahiyyət kəsb etmiş, xalqımız demokratik, hüquqi və iqtisadi cəhətdən inkişaf edən dövlətdə yaşamaq arzusunu tam gerçəkləşdirə bilməmişdi. Həmin zaman kəsiyində ölkə iqtisadiyyatında tənəzzül prosesi dərinləşir, inflyasiyanın səviyyəsi günü-gündən yüksəlir, əhalinin sosial rifah halı pisləşir, ölkənin zəngin karbohidrogen ehtiyatlarından səmərəli istifadə yönümündə səmərəli addımlar atılmırdı. 1991-1993-cü illərdə ümumi daxili məhsul hər il orta hesabla 16,5 faiz aşağı düşürdü. 1985-ci ilə nisbətən sənaye istehsalının həcmi 1991-ci ildə 10, 1992-ci ildə 37, 1993-cü ildə 50 faizə qədər azalmışdı. Ölkə istehsal potensialının 23 faizini itirmiş, 1992-ci ildə inflyasiyanın səviyyəsi əvvəlki ilə nisbətən 4,9 dəfə artmışdı.

Ötən əsrin 90-cı illərinin əvvəlində ölkədə qiymət artımı hiperinflyasiya həddinə çatmışdı: inflyasiyanın səviyyəsi 1992-ci ildə 1174 faiz, 1993-cü ildə 1081 faiz təşkil edirdi. İnflyasiya tempinin əməkhaqqının artım tempini əhəmiyyətli dərəcədə qabaqlaması əhalinin alıcılıq qabiliyyətini kəskin şəkildə aşağı salırdı. Əhalinin sosial müdafiəsi ilk növbədə maliyyə sabitliyinin təmin olunmasını tələb edirdi. Yüksək inflyasiya şəraitində həyat səviyyəsini nəinki yüksəltmək, hətta qoruyub saxlamaq mümkün deyildi. Eyni zamanda, istehsalın kəskin şəkildə azalması, siyasi qeyri-sabitlik, müharibə, bazar elementlərinin kortəbii fəaliyyəti kimi iqtisadi proseslər və dövlət xərclərinin, əməkhaqqı səviyyəsinin bir neçə dəfə artırılması, maddi vəziyyyəti ağır olan sosial təbəqəyə güzəştlər, düşünülməmiş pul-kredit, büdcə, maliyyə-bank və xarici ticarət siyasəti tədbirləri dövlətin real iqtisadi imkanları ilə uzlaşmadığı üçün inflyasiyanı daha da sürətləndirirdi.

Bu acı gerçəkliklər fonunda ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli istəyi ilə Naxçıvandan Bakıya qayıtması onun sadəcə hakimiyyətə qayıdışı deyil, eyni zamanda xalqın xoasdan, tənəzzüldən qurtulması, davamlı inkişaf yoluna qədəm qoyması kimi xarakterizə olunur. Böyük strateq məhz bu mərhələdən müstəqilliyi BMT tərəfindən hüquqi baxımdan tanınmış Azərbaycan dövlətçiliyini faktiki olaraq qurmağa, onun milli dövlətçilik atributlarını formalaşdırmağa başlamışdır. Müstəqilliyin bir çoxlarının düşündüyündən də uzun və çətin yol olduğunu yaxşı bilən ulu öndər Azərbaycanı taleyin ixtiyarına buraxılmış dövlət düşüncəsindən uzaqlaşdırmışdır.

Həmin illərdə planlı təsərrüfat sistemindən bazar iqtisadiyyatına keçid şəraitində ümummilli liderin ölkənin böyük perspektivlərinə hesablanmış strateji inkişaf proqramının başlıca məqsədlərindən biri də xalqın rifahının təminatı, əhalinin sosial müdafiəsinin gücləndirilməsi olmuşdur. Sosialyönümlülük prinsipini daim əsas götürən Heydər Əliyevin bu istiqamətdə qabaqcıl dünya təcrübəsinə cavab verən, eyni zamanda ölkə və cəmiyyət reallıqlarını nəzərə alan məqsədyönlü siyasəti cəmiyyətdə özünü göstərən sosial ziddiyyətlərin aradan qaldırılmasına imkan vermişdir.

Bazar münasibətləri əsasında formalaşan sosialyönümlü milli iqtisadiyyatın qurulmasını əsas strategiya kimi müəyyənləşdirən ümummilli liderin həyata keçirdiyi sosial siyasətin iki əsas xarakterik cəhəti diqqəti xüsusilə cəlb edirdi. Bunlardan birincisi sosial siyasətin dayanıqlı xarakter daşıması, iqtisadi bazisə əsaslanması, ikincisi onun mükəmməl və dünya təcrübəsində uğurla sınaqdan çıxmış normativ hüquqi bazaya söykənməsi idi. Ümumilikdə ulu öndər Heydər Əliyevin rəhbərliyi altında yeni iqtisadi şəraitə uyğun olaraq ölkədə formalaşmaqda olan sosial müdafiə modeli cəmiyyətin və ayrılıqda hər bir vətəndaşın rifahının yüksəldilməsinə, onların sosial müdafiəsinə, layiqli həyat səviyyəsinin təmin olunmasına, habelə şəxsiyyətin azad inkişafı üçün bərabər imkanlar yaradılmasına xidmət edirdi.

Böyük strateq Heydər Əliyevin siyasi uzaqgörənliyinin və qətiyyət nümayişinin məntiqi nəticəsi olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin əfsanədən reallığa çevrilməsi ölkənin bütün strateji əhəmiyyətli sahələrinin inkişafına yeni təkan vermişdir. "Əsrin müqaviləsi"nin imzalanmasının milli inkişafdakı misilsiz əhəmiyyəti bügünkü intensiv sosial-iqtisadi inkişaf fonunda daha qabarıq görünür. Azərbaycana son illərdə daha böyük uğurlar gətirən bu strategiyanın əsas mahiyyəti ölkənin malik olduğu təbii sərvətlərdən Azərbaycan xalqının rifahı naminə daha uğurlu şəkildə istifadə prinsipinə əsaslanır.

Həmin dövrdə həyata keçirilən iqtisadi islahatlar qiymət islahatlarının da radikal şəkildə davam etdirilməsini tələb edirdi. 1995-1996-cı illərdə qiymətlərin formalaşması prosesinin inzibati-amirlik sisteminin qalıqlarından azad olunması başa çatdırıldı. Bununla da qiymətlərin bazarda sərbəst şəkildə - tələb və təklif amillərinin qarşılıqlı təsiri altında formalaşması prosesi təmin edildi. Bu proses bazar iqtisadiyyatının digər vacib elementi olan valyuta rejiminin sərbəstləşdirilməsi prosesi ilə tamamlandı.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli iqtisadi islahatlar tez bir zamanda geniş beynəlxalq dəstək aldı. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı Azərbaycanda iqtisadi islahatlar haqqında xüsusi proqram hazırlayaraq ölkəmizə maliyyə yardımı göstərdilər. Həmin təşkilatlarla sıx əməkdaşlıq şəraitində hazırlanmış sabitləşdirmə proqramına uyğun olaraq iqtisadiyyatın liberallaşdırılmasına yönələn radikal islahatlar həyata keçirildi. Çevik pul-kredit, büdcə, vergi, gömrük siyasətinin aparılması, qiymətlərin, xarici iqtisadi fəaliyyətin və valyuta bazarının liberallaşdırılması, xarici kapitalın cəlb olunması nəticəsində tezliklə ölkədə makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təminatına nail olundu.

Ümummilli liderin yeni iqtisadi sistemdə uğurlu həllinə nail olduğu məsələlərdən biri də torpaq islahatlarının əhalinin mənafeyinə uyğun həlli idi. Ölkə iqtisadiyyatının mühüm sahəsini və əhalinin 50 faizini əhatə edən aqrar bölməni keçmişdə olduğu kimi, inzibati-amirlik metodu ilə idarə etmək qeyri-mümkün idi. Aqrar islahatlara başlanılması üçün ilk növbədə müvafiq normativ hüquqi baza yaradıldı: 1995-ci ildən başlayaraq "Aqrar islahatın əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında", "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının qanunları, habelə "Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" fərman imzalandı. Yaradılan bu hüquqi baza əsasında respublikamızda analoqu olmayan aqrar islahat prosesinə start verildi. MDB-yə daxil olan respublikalarla müqayisədə çox qısa vaxtda sovxoz və kolxozlar ləğv olunaraq onların torpaqları və əmlakı kəndlilərə paylandı. Ölkəmizdə torpaq islahatının digər üstün cəhəti də ondadır ki, başqa ölkələrdən fərqli olaraq, torpaqların əhalinin xüsusi mülkiyyətinə verilməsini təsdiq edən hüquqi sənədlərin rəsmiləşdirilməsi dövlətin hesabına aparıldı, bu proses qısa müddətdə başa çatdırıldı. Bununla da bazar iqtisadiyyatının əsas atributlarından olan torpaq üzərində xüsusi mülkiyyət hüququ formalaşdı.

Yeni yaradılan təsərrüfatçılıq formalarının fəaliyyətini sonrakı illərdə ölkədə həyata keçirilən iqtisadi və siyasi islahatlarla əlaqələndirmək üçün "Torpaq icarəsi haqqında", "Torpaq bazarı haqqında", "Toxumçuluq haqqında", "Taxıl haqqında", "Yeyinti məhsulları haqqında", "Üzümçülük və şərabçılıq haqqında" və bir sıra digər qanunlar və bu qanunların tətbiqini şərtləndirən normativ hüquqi aktlar qəbul edildi.

Bundan başqa, aqrar-sənaye kompleksinin mühüm sahələri olan kənd təsərrüfatı maşınqayırması və emal müəssisələrinin özəlləşdirilməsi, onların bəzilərinin səhmdar cəmiyyətlərə çevrilməsi, bank-kredit və maliyyə sisteminin yenidən qurulması prosesinə başlanıldı. Ulu öndər Heydər Əliyevin 1999-cu ildə imzaladığı sərəncama əsasən kənd təsərrüfatı məhsulları istehsalçılarına neft məhsullarının pərakəndə satışında güzəştlərin tətbiqinə başlanmış, 2001-ci ildən istehsalçılar torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad olunmuşdular. Bu güzəştlər postsovet məkanında ilk dəfə məhz Azərbaycan Respublikasında tətbiq olunmuşdur və hazırda da davam etdirilir.

Bazar iqtisadiyyatı yolunu seçmiş istənilən dövlətin müstəqil yaşaması və inkişafı prosesində orta təbəqənin - iqtisadi inkişaf və sabitliyin təminatçısı sayılan sahibkarlar sinfinin rolu müstəsnadır. Bu reallığı böyük müdrikliklə nəzərə alan ümummilli ilder Heydər Əliyev milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu daim önə çəkir, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışırdı. Bunun nəticəsidir ki, 1995-2003-cü illərdə respublikada sahibkarlığın inkişafı üçün zəruri maliyyə təminatı yaradılmışdı. İnvestisiyaların təşviqi üçün respublikada daha münbit şərait yaratmaq, daxili və xarici sərmayəni stimullaşdıran səmərəli metodlardan istifadə etmək, xarici kapital qoyuluşunun başlıca istiqamətini regionların, qeyri-neft sektorunun inkişafına yönəltmək, habelə maddiləşən işgüzar fəallığı gücləndirmək üçün kompleks tədbirlər həyata keçirilmişdir.

1997-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (1997-2000-ci illər) Dövlət Proqramı" əhəmiyyətinə, aktuallığına və miqyasına görə milli sahibkarlığın inkişafında yeni mərhələnin başlanğıcı olmuş, bu sahədə dövlət siyasətinin başlıca prinsiplərini müəyyənləşdirmişdir. Dövlət proqramı çərçivəsində həyata keçirilmiş tədbirlər nəticəsində sahibkarlıq subyektlərində əsassız yoxlamaların aparılması qadağan edilmiş, iş adamlarının fəaliyyətinə əngəl yaradan problemlərin aradan qaldırılması yolları göstərilmişdir.

Kiçik və orta sahibkarlıq subyektlərinin normal fəaliyyəti üçün sonrakı mərhələdə "Azərbaycan Respublikasında kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının Qanununa bir sıra mütərəqqi dəyişiklik və əlavələr edilmiş, habelə "Haqsız rəqabət haqqında", "İnvestisiyaların qorunması haqqında", "İstehlak bazarı haqqında" və digər zəruri qanunlar qəbul edilmişdir. Bu qanunlar yerli və xarici sahibkarların təhlükəsiz və xüsusi risklilik tələb etməyən biznes fəaliyyətinə dövlət tərəfindən verilən hüquqi təminatı daha da gücləndirmiş, investisiyaların qarşılıqlı təşviqinə və qorunmasına əsaslı zəmin formalaşdırmışdır.

Sahibkarlığın inkişafı baxımından hüquqi şəxslərin, eləcə də kommersiya qurumlarının dövlət qeydiyyatı və reyestri ilə bağlı məsələlərin həlli də hökumətin diqqət yetirdiyi mühüm məsələlərdən olmuşdur. 1996-cı ildən etibarən həyata keçirilən ardıcıl və uğurlu islahatlar nəticəsində bu sahədə yeni mərhələ yaranmış, mövcud problemlərin aradan qaldırılması üçün zəruri qanun, fərman və digər normativ hüquqi aktlar qəbul olunmuşdur. 1996-cı ildə qəbul olunmuş "Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında" qanun dövlət reyestrinin mərkəzləşdirilmiş qaydada aparılmasına, bu sahədəki süründürməçilik hallarının aradan qaldırılmasına zəmin yaratmışdır.

Dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması da Azərbaycanda sahibkarlığın davamlı inkişafının təmin edilməsi baxımından son dərəcə vacib məsələlərdən olmuşdur. Ümummilli ilder Heydər Əliyevin fərmanı ilə yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Sahibkarlar Şurasının məqsədi ölkədə sahibkarlığın inkişafına nail olmaq, iş adamlarının dövlət başçısının yürütdüyü siyasətin həyata keçirilməsində səmərəli, fəal iştirakını istiqamətləndirmək, bu yolda mövcud olan problemləri araşdırmaq və onların həlli üçün təkliflər verməkdir.

Ümummilli lider sonrakı mərhələdə də sahibkarların problemləri ilə bilavasitə tanış olmaq üçün onlarla mütəmadi görüşlərin keçirilməsinə, iş adamlarını hansı məsələlərin narahat etməsini onların öz dilindən eşitməyə xüsusi diqqət yetirirdi. Buna nümunə kimi ulu öndərin 2002-ci il aprel ayının 10-da yerli, 25-də xarici sahibkarlarla görüşməsini, onların hər birinə şifahi və ya yazılı surətdə problemlərini söyləmək üçün əlverişli şərait yaratmasını göstərmək olar. Bu, yeni idarəçilik metodlarından istifadənin ən gözəl və səmərəli forması kimi tarixiləşmişdir.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev bir müddət əvvəl "Azərbaycan" qəzetində dərc olunmuş *"Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri"* əsərində ulu öndər Heydər Əliyevin Azərbaycanın dövlət siyasətinin konseptual əsasda formalaşması və iqtisadi inkişafın təmin olunması baxımından tarixi xidmətlərini xüsusi önə çəkmişdir: *"Heydər Əliyev iqtisadi strategiyası hələ uzunmüddətli dövr üçün Azərbaycanda əsas götürüləcək. Prezident İlham Əliyev 2003-cü ildə seçkiqabağı çıxışlarında ulu öndərin müəyyən etdiyi ümumi iqtisadi kursun davam etdiriləcəyini bəyan etmişdir. Çünki bu kurs dünya sivilizasiyasının qəbul etdiyi bazar iqtisadiyyatı prinsiplərinə, azad sahibkarlığa, beynəlxalq iqtisadi əməkdaşlığın dərinləşməsinə, sosialyönümlü iqtisadi siyasətin həyata keçirilməsinə əsaslanır".*

15 iyun - Milli Qurtuluş Günündən başlamış davamlı inkişaf strategiyası 2003-cü ildən Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. Uğurla gerçəkləşdirilən yeni neft strategiyasının yüksək nəticələrə yol açması, respublikamızın regionda analoqu olmayan inkişaf mərhələsinə qədəm qoyması - ümumi daxili məhsulun artımı, büdcə gəlirlərinin ildən-ilə əhəmiyyətli dərəcədə çoxalması iqtisadi sektorda islahatların genişləndirilməsinə imkan yaratmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev 2003-cü ilin oktyabrından etibarən ölkəmizin qarşısında duran problemləri və onların həlli yollarını düzgün müəyyənləşdirmiş, islahatlar kursunun çevikliyinə, işləkliyinə nail olmaq məqsədilə mühüm tədbirlər həyata keçirmiş, uzunmüddətli inkişaf proqramlarının hazırlanmasını və icrasını təmin etmişdir. Bu baxımdan ölkə başçısının 2003-cü il 24 noyabr tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" ilk iqtisadi fərmanın əhəmiyyəti xüsusi vurğulanmalıdır. Sonrakı mərhələ təsdiqlənərək icra edilmiş 11 fevral 2004-cü il tarixli "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" (2004-2008-ci illər), 2005-ci il 31 may tarixli "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında" fərman, 27 sentyabr 2004-cü il tarixli "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya" və s. sənədlər iqtisadi islahatların sürətləndirilməsi üçün zəruri əsaslar formalaşdırmışdır.

İqtisadi siyasətdə çevikliyin təmin edilməsi, struktur dəyişiklikləri ilə institusional islahatların paralel aparılması, konkret hədəflərə və maliyyə mənbəyinə əsaslanan proqramlı idarəetmə səmərəli nəticələrə yol açır. Son 15 ildə 201 proqram xarakterli sənəd, o cümlədən 12 konsepsiya, 12 milli strategiya, 12 strateji yol xəritəsi, 94 dövlət proqramı, 10 milli fəaliyyət planı, 23 tədbirlər planı və s. qəbul edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" fərmanı isə keyfiyyətcə yeni mərhələdə iqtisadi inkişafı stimullaşdırmaq və böhranın mənfi təsirlərini aradan qaldırmaq məqsədi güdür. Strateji Yol Xəritəsində nəzərdə tutulmuş məqsədlərin həyata keçirilməsi nəticəsində qeyri-neft sektoru üzrə ixracın 2015-ci ildəki adambaşına 170 ABŞ dollarından 2025-ci ildə ən azı 450 ABŞ dollarına qaldırılması əsas hədəflərdən biridir. Hökumət ixracı məhz qeyri-neft sektoru məhsulları hesabına genişləndirməyi qarşıya məqsəd qoymuşdur. Sənəd 2025-ci ilədək ticari mal və xidmətlər sektorunda 150 min əlavə iş yerinin yaradılmasını da hədəfləyir.

Dövlət büdcəsinin ARDNF-nin transfertlərindən asılılığının azaldılması da qarşıya qoyulmuş əsas vəzifələrdən biridir. Bu gün dövlət sektorunda xərclənən hər ikinci manat (təqribən 50 faizi) məhz ARDNF-nin transfertləri hesabına maliyyələşdirilir. Hökumət 2015-ci ilədək bu rəqəmi 15 faizə endirməyi qarşıya məqsəd qoymuşdur. Bu, Azərbaycan iqtisadiyyatına neft qiymətlərindəki dəyişikliklərin ciddi təsirini əsaslı şəkildə azaltmış olacaqdır.

Dövlət başçısı İlham Əliyev Nazirlər Kabinetinin son iclasında neft amilindən asılılığın tamamilə azaldılmasını ölkəmiz üçün prioritet məsələlərdən biri olduğunu xüsusi vurğulamışdır: *"Bəzi hallarda sual yaranır ki, indi neftin qiyməti bir qədər sabitləşdi, bu islahatlar davam etdiriləcəkmi, yoxsa yox? Mütləq davam etdiriləcək. Neftin qiyməti bizim üçün əsas amil olmamalıdır və Azərbaycan iqtisadiyyatı elə bir səviyyəyə çatmalıdır ki, neftin istənilən qiyməti bizə böyük təsir etməsin, yalnız ehtiyatlarımızın artırılmasına xidmət göstərsin. Giriş sözümdə qeyd etdiyim kimi, bu ilin birinci rübündə biz 2,2 milyard dollar əlavə vəsait toplamışıq. Ona görə bu il də iqtisadi islahatlar davam etdiriləcək. Nəinki iqtisadi, bütün digər sahələrdə islahatlar aparılacaqdır ki, ölkəmiz daha da güclənsin, müasirləşsin və Azərbaycanda dayanıqlı uzunmüddətli inkişaf təmin edilsin".*

Ölkə başçısının 3 fevral 2016-cı il tarixli "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apelyasiya şuralarının yaradılması haqqında", 19 may 2016-cı il tarixli "Dövlət əmlakının özəlləşdirilməsi prosesinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" və "Bəzi tikinti obyektlərinin istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" fərmanları, habelə 2016-cı il 21 may tarixli fərmanla təsdiq edilmiş "Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları", 21 aprel 2016-cı il tarixli Azərbaycan Respublikasında "Sahibkarlar Günü"nün təsis edilməsi haqqında" sərəncamı, 1 iyun 2016-cı il tarixli "Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması haqqında" fərmanı ölkədə sahibkarlığın inkişafına ciddi təkan verən sənədlər kimi yüksək dəyərləndirilməlidir.

Bütün bunlar bir daha təsdiqləyir ki, 2018-ci ilin 11 aprel seçkilərində Yeni Azərbaycan Partiyasının layiqli namizədinə - cənab İlham Əliyevə yüksək etimad göstərmiş milyonlarla insan məhz ölkəmizin uğurlu sabahı və dinamik inkişafı baxımından düzgün qərarı vermiş, beləliklə, həm də gələcəyinə biganə olmadığını göstərmişdir. Ümumilikdə tamamilə azad, ədalətli, şəffaf və sivil rəqabət şəraitində keçirilmiş prezident seçkiləri müstəqil Azərbaycanın demokratikləşməsi prosesində mühüm mərhələnin əsasını qoymuş, liberal dəyərlərə, demokratik norma və prinsiplərə səmimi sadiqliyini nümayiş etdirmişdir.

Demokratiyanın mühüm göstəricilərindən biri də hökumətin ictimai rəyə münasibəti əsasında müəyyənləşir. İctimai rəy dövlətin işinə nəzarət funksiyasını yerinə yetirməklə müsbət və mənfi meyillərə obyektiv qiymət verən, hökuməti mövcud problemlərin həllinə doğru istiqamətləndirən mühüm mexanizmdir. Ötən 15 ildə hökumətin vaxtaşırı olaraq xalqa hesabat verməsi milli dövlətçilik tariximizdə mütərəqqi ənənəyə çevrilmiş, demokratik dəyərlərə hörmətin, ictimai rəyə həssas münasibətin ifadəsi kimi diqqəti çəkmişdir. Bu, eyni zamanda cəmiyyətdə şəffaflığın və sosial ədalət normalarının qorunmasını təmin etmiş, dövlət məmurlarının xalq və prezident qarşısında məsuliyyətini artırmışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində korrupsiya və digər neqativ hallarla mübarizədə siyasi iradə nümayiş etdirməsi, dövlət məmurları qarşısında sərt tələblər müəyyənləşdirməsi həm də praktik addımlarla müşayiət olunur. Dövlət orqanlarının fəaliyyətində elektron xidmətlərin genişləndirilməsi, vətəndaş məmnunluğu ideyasını praktik surətdə reallaşdıraraq Azərbaycan milli brendinə çevrilmiş "ASAN xidmət" mərkəzlərinin uğurlu fəaliyyəti cəmiyyətdə şəffaflıq və hesabatlılığı gücləndirməklə yanaşı, ümumilikdə ictimai şüurda inqilabi dəyişikliklərə yol açır.

Dövlət başçısı hökumətin fəaliyyətini son 15 ildə özünəməxsus tələbkarlıqla saat mexanizmi kimi təkmilləşdirmiş, "cilalamışdır". İdarəçilik sistemində özünü göstərən cüzi qüsurların belə aradan qaldırılması üçün ardıcıl kadr və struktur islahatları həyata keçirmiş, xalqa layiqli xidmət məramını vəzifədə irəli çəkdiyi kadrlar qarşısında ümdə vəzifə kimi aktuallaşdırmışdır. İdarəçiliyin təkmilləşdirilməsi prosesini diqqət mərkəzində saxlamaqla, cəmiyyətin inkişaf qanunauyğunluqlarından irəli gələrək yeni, çevik və işlək strukturların, dövlət komitələrinin, nazirliklərin yaradılmasını da vacib saymışdır. Nazirlər Kabinetinin 2018-cü ilin aprel ayında təsdiqlənmiş yeni tərkibi və aparılmış kadr dəyişiklikləri fonunda bunu bir daha əminliklə söyləmək mümkündür.

Dövlət başçısının həyata keçirdiyi idarəetmə strategiyasının, habelə imzaladığı müvafiq fərman və sərəncamların tələblərindən irəli gələn vəzifələr Azərbaycanın ən böyük sənaye mərkəzi olan Sumqayıt şəhərinin rəhbərliyi tərəfindən də ciddiliklə nəzərə alınır. Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə Sumqayıt şəhəri son illər inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuş, bütün sahələrdə müasirləşmişdir.

Dövlət başçısının Sumqayıtın sənaye potensialının möhkəmləndirilməsi, burada sahibkarlığın inkişafı, yeni iş yerlərinin açılmasının vacibliyi ilə bağlı söylədiyi fikirlər şəhərin iş adamları tərəfindən böyük rəğbətlə qarşılanır. Şəhərdə sənayenin qeyri-neft sektorunun inkişaf istiqamətlərinin genişləndirilməsi, rəqabətədavamlı sənaye məhsullarının istehsalının dəstəklənməsi və ixracyönümlü istehsal sahələrinin yaradılmasının təşviqi qarşıya qoyulan əsas məqsədlərdəndir. Nəticə etibarilə Sumqayıtda müxtəlif təyinatlı məhsulların istehsalı ilə məşğul olan müəssisələrin maddi-texniki bazası davamlı olaraq möhkəmləndirilir, müasir tələblərə uyğunlaşdırılır, yeniləri inşa edilir. Bütün bunlar həm də çoxlu sayda yeni iş yerlərinin yaradılmasına, əhalinin sosial rifahının yaxşılaşmasına səbəb olur, ictimai münasibətlər sistemi sağlamlaşır. Sumqayıt yalnız yaşayış məntəqəsi kimi deyil, eyni zamanda sağlam ictimai iqlim zonası və ölkənin sosial-iqtisadi inkişafında xüsusi yeri olan ərazi təsərrüfat kompleksi kimi də inkişaf edir.

*Sumqayıtlılar son prezident seçkilərində Yeni Azərbaycan Partiyasının ən layiqli namizədini dəstəkləməklə, 15 iyun Milli Qurtuluş Günündən başlayan inkişaf strategiyasının davamlılığı naminə ciddi siyasi iradə nümayiş etdirdilər. Bu, seçkilərin nəticələri, ümumən Azərbaycan cəmiyyətinin Heydər Əliyev siyasi kursuna dərin inamının növbəti təcəssümü olmuşdur. Hamı ürəkdən inanır ki, ölkə başçısının rəhbərliyi altında qarşıdakı illərdə respublikamızın hər bir şəhəri, rayonu, kəndi daha sürətlə inkişaf edəcək, müstəqil Azərbaycan inkişaf etmiş ölkələr sırasında öz layiqli yerini tutacaqdır.*

**Qüdrət KƏRİMOV,**
**"Xəzər" ASC-nin sədri, iqtisad elmləri doktoru**



# MİLLİ QURTULUŞ
## - SÜRƏTLİ İNKİŞAF, MÜSTƏQİL SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993
2018



# QURTULUŞUN "ÖVLADLARI"

"Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, BMT Təhlükəsizlik Şurasına sədrlik, kosmik kluba üzvlük, "Eurovision", Avropa Oyunları, İslamiada və "Formula-1"ə evsahibliyi, yeni neft müqaviləsi, Beynəlxalq Dəniz Ticarət Limanı, "Cənub qaz dəhlizi", Lələtəpə, Günnüt zəfəri... və

## Tarixin ən qüdrətli Azərbaycanı

*Əvvəli 1-ci səh.*

Beləliklə, 1994-cü ilin 20 sentyabrında Bakıda dünyanın 6 ölkəsinin 11 tanınmış neft şirkəti ilə imzalanan "Əsrin müqaviləsi" müstəqil Azərbaycan dövlətini öz hədəflərinə doğru aparan böyük bir yolun başlanğıcı oldu. Qarşımızda açılan gələcəyin üfüqləri məhz bu ilk addımdan sonra görünməyə başladı. Bu saziş təbii sərvətlər amilinin Azərbaycanın gələcək inkişafındakı rolu barədə ictimai düşüncədə dolaşan mücərrəd təsəvvürləri konkretləşdirdi, qarşıdakı istiqamətlərə aydınlıq gətirdi. "Əsrin müqaviləsi" ilə Azərbaycan özünün halal sərvətlərinə sahib çıxmaq haqqını bütün dünyaya bəyan etdi, milli mənafelərimizi, iqtisadi və strateji maraqlarımızı qorumaq əzmini sərgilədi, bu müqavilə dövlət müstəqilliyimizin mühüm təminatına çevrildi.

### BTC və BTƏ Azərbaycanın müstəqil enerji siyasətinin təsdiqi oldu

"Əsrin müqaviləsi"nin imzalanmasından sonra qarşıda duran əsas məsələlərdən biri Xəzərin Azərbaycan sektorundan hasil olunacaq "qara qızıl"ın dünya bazarlarına hansı marşrutla çatdırılması idi. İlk baxışdan sadə bir məsələ kimi görünsə də, əslində ən optimal neft marşrutunun seçilməsi onun tranzit ölkələrə gətirəcəyi dividenddən başqa Azərbaycanın milli maraqlarının təmin olunması baxımından müstəsna əhəmiyyət kəsb edirdi.

Bakı-Tbilisi-Ceyhan ideyasının ortaya çıxması da məhz neftin bir neçə kəmər vasitəsilə nəql olunması arzusundan doğmuşdu. BTC-nin reallığa çevrilməsi çox çətin mərhələlərdən keçməli oldu və nəhayət, bu məsələyə də Heydər Əliyev dühası son qoydu. Məhz Heydər Əliyev qətiyyətinin sayəsində 2002-ci il sentyabrın 18-də Azərbaycanın və Türkiyənin milli maraqlarına cavab verən, ermənipərəst siyasi dairələrin müxtəlif çabalarının əksinə olaraq Ermənistandan yan keçən BTC neft kəmərinin təməli qoyuldu. Hələ BTC-nin təməli qoyulmazdan əvvəl və sonralar həm Azərbaycanda, həm də xarici ölkələrdə bəziləri layihənin reallaşmayacağını və hətta kəmərin inşası başa çatdıqdan sonra rentabelli olacağına inanmır, Heydər Əliyevin kökündə Azərbaycan dövlətinin milli maraqlarına və ölkənin inkişafına yönəlik bu qətiyyətinə şübhə ilə yanaşırdılar.

BTC 2006-cı il iyulun 13-də keçirilən açılış mərasimindən sonra həyata rəsmən vəsiqə aldı. Beləliklə, bu böyük enerji layihəsinin reallaşdırılması ilə ümummilli lider Heydər Əliyevin uzaqgörənliklə düşünülərək həyata keçirilən neft strategiyası tarixi yolçuluğunda özünün ən uca zirvəsinə çatdı. Bütün dünyada "əsrin layihəsi" kimi dəyərləndirilən və üç ölkəni birləşdirən BTC-nin əfsanədən reallığa çevrilməsi müəllifi Heydər Əliyev olan Azərbaycanın neft strategiyasının, Prezident İlham Əliyevin qətiyyətinin təntənəsini və eləcə də Azərbaycanın dünyanın və regionun söz sahibi olan ölkələrindən birinə çevrildiyini bariz şəkildə ortaya qoydu. Məhz Azərbaycanın təşəbbüsü ilə BTC və daha sonra Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin işə düşməsindən sonra karbohidrogen ehtiyatların nəqli ilə bağlı regionda tamamilə yeni vəziyyət yarandı. Yəni Xəzərin karbohidrogen ehtiyatları ilk dəfə olaraq alternativ yollarla dünya bazarlarına çıxarılmağa başlandı ki, bu da Azərbaycanın enerji siyasətinin həm də müstəqil olmasından xəbər verdi.

### Bölgənin əsas nəqliyyat qovşağı

Tarixi İpək yolunun keçdiyi Azərbaycanın yerləşdiyi ərazi bütün dövrlərdə Avropa və Asiyanı, ən uzaq dövlətləri birləşdirən, strateji ticari-iqtisadi dəhlizlərin qovuşduğu məkanlardan biri olub. Bu gün də Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşir və bu baxımdan əlverişli geostrateji mövqeyə malikdir. Bu potensialı böyük uzaqgörənliklə qiymətləndirən ümummilli lider Heydər Əliyev respublikamızın bu imkanlarından faydalanmağı zəruri hesab edirdi. Təsadüfi deyil ki, 1998-ci ildə 32 ölkənin və 13 beynəlxalq təşkilatın səlahiyyətli nümayəndəsinin iştirakı ilə tarixi İpək yolunun bərpasına həsr olunmuş konfrans məhz Bakıda təşkil olunmuş və həmin tədbirdə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin (TRASEKA) həyata keçirilməsinin texniki və iqtisadi məsələlərini özündə əks etdirən "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanmışdı.

Ötən 20 ildə Azərbaycan nəqliyyat imkanlarının realizə edilməsi baxımından olduqca mühüm layihələr həyata keçirib. Qeyd edək ki, xüsusən son dövrlərdə istər sərnişin, istər beynəlxalq yükdaşımalar sahəsində ciddi rəqabət yaranıb. Belə şəraitdə böyük tranzit potensialına malik Azərbaycan müşahidəçi mövqeyində dayana bilməzdi. Ona görə hazırkı dövrdə Azərbaycanın tranzit potensialının reallaşdırılması ölkəmizin iqtisadi diversifikasiya siyasətində əsas yerlərdən birini tutur. Prezident İlham Əliyevin qarşıya qoyduğu əsas məqsədlərdən biri də ölkəmizin tranzit mərkəzinə çevrilməsini tam təmin etməkdir.

Respublikamızın tranzit potensialından və onun əlverişli coğrafi mövqeyindən tam faydalanmaq üçün son illərdə ölkə rəhbərliyinin təşəbbüsləri və xüsusi diqqəti sayəsində kifayət qədər mühüm islahatlar və irimiqyaslı tədbirlər həyata keçirilib. Bir neçə beynəlxalq hava limanının tikintisi, yeni təyyarə və gəmilərin alınması, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri istiqamətində beynəlxalq əhəmiyyətli avtomobil yollarının tikintisi, dəmir yolu xətlərinin yenilənməsi və digər bu kimi başa çatdırılan infrastruktur layihələri ölkəmizin nəqliyyat imkanlarının güclənməsində mühüm rol oynayıb. O cümlədən respublikamızın tranzit daşımalarda iştirak imkanlarını genişləndirib.

### Asiya ilə Avropanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xətti

Avrasiya məkanının mühüm logistik mərkəzlərindən birinə çevrilən Azərbaycan həm də öz tranzit imkanlarını artırmağa yol açan yeni təşəbbüslərin müəllifidir. Bu təşəbbüslərdən biri Bakı-Tbilisi-Qars dəmir yolu layihəsidir. Tarixi İpək yolunun bərpası çərçivəsində nəqliyyat infrastrukturunun təkmilləşdirilməsində böyük addım olan bu layihənin Prezident İlham Əliyevin böyük siyasi iradəsi nəticəsində uğurla reallaşması Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yeni səviyyədə inkişafına şərait yaradıb. Ən əsası, bu dəmir yolu bağlantısı nəqliyyatın inkişafında yeni mərhələnin başlanması deməkdir. Çünki iqtisadi baxımdan səmərəli, dayanıqlı, təhlükəsiz və ekoloji normalara tam cavab verəcək BTQ dəmir yolu xətti "Şərq-Qərb nəqliyyat dəhlizi"nin əsas elementlərindən olmaqla Cənubi Qafqaz, eləcə də bütövlükdə Avrasiyada ticarət-iqtisadi münasibətlər sahəsində sıx əməkdaşlığa, regionda sosial-iqtisadi artımın sürətlənməsinə, eləcə də ölkələrin qlobal səviyyədə əməkdaşlığının genişlənməsinə artıq böyük töhfə verir.

BTQ dəmir yolu xətti Azərbaycanın beynəlxalq səviyyəli tranzit və logistika mərkəzinə çevrildiyinin növbəti əyani sübutudur. BTQ dəmir yolu ilə yüklərin Avropa və Asiyaya çatdırılması ilə yanaşı, ixrac mallarının Azərbaycan ərazisindən tranzitinin artmasına, Xəzər hövzəsi regionunun Avropa ilə bilavasitə nəqliyyat əlaqələrinin qurulmasına, Avropaya inteqrasiya proseslərinin sürətlənməsinə, əmtəə və xidmətlərin nəqli yollarının diversifikasiyasına xidmət edir, Azərbaycanın və region dövlətlərinin xarici iqtisadi əlaqələrinin səmərəliliyini daha da yüksəldir. Beləliklə, bu dəmir yolu Avropa və Asiya ölkələri arasında yüklərin daşınmasında əvəzsiz rol oynamaqla bərabər Azərbaycanın tranzit ölkə kimi də əhəmiyyətini daha da artırıb.

### Xəzərin ən böyük limanı

Ötən ay Ələt qəsəbəsində Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin istifadəyə verilməsi Azərbaycanın yerləşdiyi bölgədəki aparıcı rolunu bir qədər də yüksəltdi. Bu layihənin başa çatdırılması göstərir ki, ölkəmizdə güclü nəqliyyat-logistika infrastrukturunun formalaşdırılması istiqamətində qarşıya qoyulan vəzifələr uğurla reallaşır.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi layihəsinin uğurla reallaşması ilə Azərbaycanın tranzit imkanlarının genişlənməsi baxımından yeni mərhələ başladı. Bununla ölkəmiz gələcəyə hesablanmış daha bir möhtəşəm addım atdı. Bu limanın işə salınması nəticəsində Azərbaycanın tranzitdən gələn gəlirləri əhəmiyyətli dərəcədə artacaq, respublikamız logistik mərkəz kimi mövqelərini daha da möhkəmləndirəcək. Ən əsası isə, gətirəcəyi bütün iqtisadi dividendlərlə yanaşı, bu liman kompleksi Azərbaycanın regionda söz sahibi statusunu möhkəmləndirən mühüm faktordur.

### Cənubi Qafqazın lideri, dünyada söz sahibi, BMT Təhlükəsizlik Şurasının sədri

Sürətli inkişaf dövrünü yaşayan Azərbaycanın Cənubi Qafqazın lider dövlətinə çevrilməsi və bu statusu uğurla daşıması bütün dünyanın, xüsusən bu regionu özünün iqtisadi mənafeyi baxımından vacib tərəfdaşı kimi görən Avropanın qəbul etdiyi inkarolunmaz reallıqdır. Elə buna görə təsadüfi deyil ki, Cənubi Qafqazı əhatə edən hər hansı beynəlxalq layihənin Azərbaycanın maraqlarını nəzərə almadan həyata keçirilməsi mümkün deyil. Azərbaycanla hesablaşır, məsləhətləşir və hər bir əməkdaşlıq məsələsində onu əsas tərəfdaş kimi qəbul edirlər.

Azərbaycanın dünyadakı yüksək siyasi nüfuzunun ən bariz nümunəsi kimi ölkəmizin 2011-ci ilin oktyabrında BMT Təhlükəsizlik Şurasına (TŞ) üzv seçilməsini misal göstərmək olar. TŞ-yə keçirilən səsvermədə Azərbaycana səs verənlər sadəcə Cənubi Qafqazın sıradan bir ölkəsinin deyil, beynəlxalq miqyasda özünün müsbət imici ilə tanınan, bütün dünyada hər bir sahə üzrə ciddi nüfuz qazanan bir respublikanın namizədliyini dəstəkləmiş oldular. Bu səsvermə nəticəsində BMT Təhlükəsizlik Şurasına seçilmək Azərbaycanın dünyadakı nüfuzunun göstəricisi, beynəlxalq aləmdə ciddi və etibarlı bir ölkə olduğunu nümayiş etdirdi.

Azərbaycanın BMT TŞ-nin üzvü seçilməsi ilk növbədə Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin göstəricisi idi. Ölkəmizin bu qələbəsini məhz Prezident İlham Əliyev təmin etdi. Çünki məhz beynəlxalq münasibətlər sistemini dəqiqliyi ilə bilmək, əks mövqelər hazırlamaq, Azərbaycanın xarici siyasətinin doktrinasının tələblərinə müvafiq real, çevik manevrlər etmək və bu planda BMT müstəvisində, xüsusilə də BMT Baş Məclisinin sessiyalarında ölkəmizin maraqlarını müdafiə edən ardıcıl tədbirlər reallaşdırmaq məhz dövlət başçısının iradəsinin, mövqeyinin, siyasi dəst-xəttinin nəticələridir. Odur ki, Azərbaycanın bu posta seçilməsi Prezident İlham Əliyevin indiyədək apardığı düşünülmüş və məqsədyönlü siyasətin məntiqi sonluğudur.

### Beynəlxalq tədbirlər məkanı

Azərbaycan tarixi, geostrateji mövqeyi, ənənələri və dinamik inkişafı ilə qlobal arenaya mühüm töhfələr verməkdədir. Bunu müxtəlif amillərlə yanaşı, respublikamızın artıq neçə illərdir ki, mühüm beynəlxalq tədbirlərə uğurla evsahibliyi etməsi də təsdiqləyir. Mədəniyyətlərarası və sivilizasiyalararası forumlar, Qlobal Bakı Forumu, digər qlobal əhəmiyyətli tədbirlər Bakını beynəlxalq əməkdaşlığın əsas mərkəzlərindən birinə çevirib.

Belə mövzulu forumların keçirilməsi üçün Azərbaycanın seçilməsi təsadüfi deyil. Çünki qədim və zəngin mədəniyyətə malik, müxtəlif ənənələrin, sivilizasiya və konfessiyaların əsrlər boyu dinc yanaşı mövcud olduğu Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün həqiqətən də nümunəvi məkandır. Digər tərəfdən, xalqımızın qədim tarixi, zəngin mədəniyyəti, tolerantlığı barədə vaxtilə yetərincə məlumatı olmayan dünya dinamik inkişafın nəticəsi olaraq Azərbaycanı ildən-ilə daha yaxından tanıyır və onun artan nüfuzunun şahidinə çevrilir. Elə bu amillər də Azərbaycanın sivilizasiyalararası və mədəniyyətlərarası dialoqa mühüm töhfə verən ölkə statusunu daha da möhkəmləndirir və bu mövzuda dünyanı düşündürən məsələlərin müzakirə edildiyi beynəlxalq tədbirlərin məhz ölkəmizdə keçirilməsini şərtləndirir.

### "Eurovision", Avropa Oyunları, "Formula-1", İslam Həmrəyliyi Oyunları...

Son illərdə çoxsaylı tədbirlərin ən mötəbər ünvanına çevrilən respublikamız bunların hamısına layiqincə evsahibliyi edib. Bu evsahibliyinə və ideal təşkilatçılığa isə başqa ölkələr ancaq həsəd apara bilərlər.

Azərbaycan isə digər beynəlxalq tədbirlərlə yanaşı, həm də idman və mədəniyyət tədbirlərinin ünvanıdır. Bunu son altı ildə Azərbaycanda "Eurovision", I Avropa Oyunları, "Formula-1" və İslam Həmrəyliyi Oyunları kimi beynəlxalq tədbirlərin keçirilməsi təsdiq edir. Bu musiqi və idman yarışlarının yüksək səviyyədə təşkil olunması və keçirilməsi Azərbaycanın beynəlxalq miqyasda nüfuzunun daha da yüksəlməsinə növbəti töhfə və dəstək oldu. Həmin günlərdə paytaxtımıza təşrif buyuran xarici vətəndaşlar, turistlər Azərbaycandakı inkişafı öz gözləri ilə gördülər, ölkəmizi daha yaxından tanımaq imkanı əldə etdilər. Bakının qonağı olacaq əcnəbilər təkcə bu mahnı müsabiqəsinin deyil, həmçinin zəngin tarixi izlərin yaşadığı doğma Bakımızın gözəlliyinin, müxtəlif mədəniyyətlərə məxsus elementləri ahəngdar şəkildə özündə birləşdirən adət və ənənələrimizin və azərbaycanlıların səmimi qonaqpərvərliyinin şahidi oldular. Bu mənada sözügedən tədbirlərin hər biri Azərbaycanın inkişafının və turizm potensialının beynəlxalq miqyasda daha yaxından tanıtımı baxımından böyük hadisəyə çevrildi. Digər tərəfdən, bu cür tədbirlərə yüksək səviyyədə evsahibliyi etməklə Azərbaycan bir daha sübut etdi ki, beynəlxalq tədbirlərin keçirilməsi üçün əsas ünvanlardan biridir.

### Kosmik klubun üzvü

Azərbaycan həm də kosmos dövlətidir. Qeyd edək ki, kosmik sənayenin yaradılması, telekommunikasiya peyklərinin, o cümlədən digər çoxməqsədli peyklərin orbitə çıxarılması öz xüsusi və strateji əhəmiyyəti ilə seçilir. Bu məqsədlə 2008-ci ildən etibarən Prezident İlham Əliyevin qərar və tövsiyələri ilə kosmik tədqiqatlara başlanılıb, dövlət başçısı "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında" sərəncam imzalayıb, "Kosmik sənayenin yaradılması və inkişafı üzrə" Dövlət Proqramı qəbul edilib, daha sonra "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti təsis edilib. Qarşıya qoyulan məqsədə çatmaq üçün müvafiq strukturlar kosmik sənaye sahəsində beynəlxalq təcrübəni tədqiq edərək Azərbaycanın ilk telekommunikasiya peykinin hazırlanması və istifadəyə verilməsində dünyanın qabaqcıl kosmik sənaye qurumları ilə əməkdaşlıq həyata keçiriblər.

Bütün bunların nəticəsidir ki, artıq Azərbaycan kosmik klubun üzvüdür. Orbitə buraxılan peyklərimiz ölkəmizin inkişafına xidmət edir. Bu hadisə həm də Azərbaycanın hərtərəfli inkişafının göstəricisidir. Bu, eyni zamanda, Azərbaycanın müasirləşməsinin, modernləşməsinin, ölkəmizin ən müasir texnologiyalara sahib olmaq niyyətlərinin bariz nümunəsidir. Ən əsası, bu tarixi uğur Prezident İlham Əliyevin müasir, güclü və ən yeni texnologiyalara sahib olan Azərbaycan konsepsiyasının reallaşmasının tərkib hissəsidir.

### Yeni neft müqaviləsi

Ötən ilin sentyabrında Azərbaycanın müstəqillik tarixinə qızıl hərflərlə yazılan növbəti hadisə baş verdi. Bakıda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənilməsi üzrə xarici neft şirkətləri ilə yeni saziş imzalandı. Bununla da 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ilə neft hasil olunan sözügedən yataqların işlənilməsində yeni mərhələ başlandı. SOCAR, BP, "Chevron", INPEX, "Statoil", "ExxonMobil", "TP", "Itochu" və "ONGC Videsh" şirkətlərinin imzaladığı sazişə əsasən növbəti 32 il müddətində "Azəri-Çıraq-Günəşli" yataqlarına 40 milyard dollardan artıq sərmayə qoyulacaq.

Bu sazişlə ilk növbədə Azərbaycanın neft ehtiyatları barədə mübahisələrə son qoyuldu. Məlum olduğu kimi, indiyədək "Azəri-Çıraq-Günəşli" yataqlarından 436 milyon ton neft hasil edilib. Amma son kəşfiyyat işləri bu yataqlarda hasil edilməmiş təxminən 500 milyon ton neft ehtiyatının olmasından xəbər verir. Ümumilikdə isə burada 1 milyard ton neftin olduğu proqnozlaşdırılır.

"Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycan bir dövlət kimi müstəqilliyini daha da möhkəmləndirdi. Yeni müqavilə isə, təbii ki, ölkəmizin əldə etdiyi bu nailiyyətlərin miqyasını daha da artıracaq. İlk növbədə Azərbaycan bir dövlət kimi beynəlxalq mövqelərini möhkəmləndirəcək, enerji təhlükəsizliyi sahəsində aparıcı söz sahibi olaraq qalacaq. Ən əsası, yeni müqavilədən sonra Azərbaycana gələcək gəlirlər ölkəmizin inkişafına böyük töhfələr verəcək. İndi əldə etdiyimiz inkişaf dinamikasının miqyası artacaq.

### Azərbaycandan Avropaya uzanan "Cənub qaz dəhlizi"

Bu il may ayının 29-da açılışı olan "Cənub qaz dəhlizi" göstərdi ki, Azərbaycan qarşısına qoyduğu məqsədlərə doğru inamla addımlayan, aydın və düşünülmüş strategiyası, dəqiq siyasəti olan dövlətdir. Eyni zamanda bu tarixi hadisə rəsmi Bakının 1994-cü ildən həyata keçirdiyi enerji siyasətinin məntiqi nəticələrindən biri və həm də uğurlu davamıdır.

Bu günlərdə "Cənub qaz dəhlizi"nin 4 seqmentindən biri və bu mürəkkəb infrastrukturun ən uzun hissəsi olan Transanadolu təbii qaz boru kəmərinin (TANAP) istifadəyə verilməsi bu layihə üzrə işlərin vaxtında tamamlandığını bir daha təsdiq etdi.

"Cənub qaz dəhlizi" layihəsinin uğurla reallaşmasının əsas səbəbi, təbii ki, Azərbaycanın həyata keçirdiyi uğurlu siyasi-diplomatik fəaliyyətdir. Bu qələbə respublikamızın enerji təhlükəsizliyində söz sahibinə çevrilməsi ilə yanaşı, hər bir məsələdə qətiyyətli mövqeyindən, əməkdaşlıq əlaqələrində etibarlı tərəfdaş olmasından və beynəlxalq birlikdə yüksək nüfuz sahibinə çevrilməsindən irəli gəlir.

Hazırda "Cənub qaz dəhlizi"nin icrasında yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya iştirak edir, eyni zamanda, üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqronun da növbəti mərhələdə bu layihəyə qoşulacağı gözlənilir. Bu, artıq layihənin qlobal xarakterini və böyük beynəlxalq əməkdaşlıq platforması üzərində ucaldığını göstərir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Cənub qaz dəhlizi" Azərbaycanın liderliyi ilə həyata keçirilən, tarixi əhəmiyyətə malik, xalqımızın firavan gələcəyini təmin edən, regionda, Avropada təhlükəsizliyin, əməkdaşlığın möhkəmlənməsinə xidmət göstərən qlobal layihədir.

### Lələtəpədə dalğalanan Azərbaycan bayrağı

Güclü ordu dövlətin və onun xalqının təhlükəsizliyinin əsas təməl prinsiplərindən biridir. Ona görə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin daim artırılması torpaqlarımızın işğal altında qaldığı bir vaxtda təbii olaraq qarşımızda dayanan ən əsas vəzifədir. Nizami Azərbaycan Ordusunun təməlinin qoyulduğu 1993-cü ilin payızından sonra bu istiqamətdə mühüm addımlar atılıb. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə qısa vaxtda bütün qoşun növlərinin mövcud olduğu, müasir döyüş imkanlarına malik Azərbaycan Silahlı Qüvvələri formalaşdırılıb.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin fəaliyyətində ordu quruculuğu məsələləri daim prioritetdir. Reallıq ondan ibarətdir ki, hazırda Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri öz döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir.

İki il öncə 2016-cı ilin aprelində düşmənlə təmas xəttində 22 illik atəşkəs dövrünün ən güclü hərbi qarşıdurması zamanı Azərbaycan Ordusu nəyə qadir olduğunu sübut etdi. İşğal olunmuş minlərlə hektar sahə, o cümlədən strateji Lələtəpə yüksəkliyi düşməndən azad edildi, Cocuq Mərcanlı sakinlərinin həyatı üçün təhlükə tamamilə aradan qaldırıldı. Bu gün Lələtəpədə Azərbaycan bayrağı dalğalanır.

Bu günlərdə cəbhə xəttindən alınan növbəti xoş xəbər ölkəmizin bütün ictimaiyyətini həm sevindirdi, həm də qürurlandırdı. 1992-ci ildə erməni silahlı birləşmələri tərəfindən işğal edilən Şərur rayonunun Günnüt kəndi 26 ildən sonra ordumuz tərəfindən azad olundu. Bu, 2016-cı ilin Aprel döyüşlərindən sonra Azərbaycan Ordusunun növbəti mühüm zəferidir.

Bütün bu uğurların hamısı Milli Qurtuluşun nəticəsidir. 25 il əvvəl ulu öndər Heydər Əliyevin başlatdığı və bu gün Prezident İlham Əliyevin davam etdirdiyi böyük siyasətin möhtəşəm uğurlarıdır.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***



# MİLLİ QURTULUŞ

## - SÜRƏTLİ İNKİŞAF, MÜSTƏQİL SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993 2018

*Əvvəli 5-ci səh.*



# ÜÇ GÖRÜŞÜN UNUDULMAZ TƏƏSSÜRATI

Gecə ikən Yevlaxa qayıtdıq. Sərin, rahat vaqonumuzda şirin-şirin yatıb, gözümüzü Əli Bayramlıda açdıq.

Yenə də al günəş üfüqdən təzəcə baş qaldırırdı. Uzaq ənginliklər tünd qırmızı rəngə boyanmaqdaydı. Muğan düzündə gecələmiş seyrək duman ətəyini ehmal-ehmal dəstələyib göyə çəkilirdi. Çöllərə gümüşü şeh düşmüşdü. Yolumuz Sabirabada idi.

Bərdə səfərimizdəki təmtəraq burda gözə çarpmadı. Xüsusi hazırlıqla pişvazımıza çıxanlar olmadı. Yəqin ki, göstəriş belə idi. Birbaşa tarla düşərgələrinə yollandıq. Tarlalarda məhsul bol idi. Kolxozçu qadınlar alatorandan öz sahələrində idilər.

Burada da Bərdə proqramı üzrə davrandıq. Yenə beş iri kolxozu gəzdik. Eyni qaydada görüşlər, yığıncaqlar keçirildi. Yorulmaq, usanmaq bilməyən Heydər Əliyev həvəsləndirici, zəhmət qələbəsinə ruhlandırıcı nitqlərinin arasını burada da kəsmədi. Gəzdiyimiz beş kolxozun beşinin də yığıncağında ilk dəfələrdəki coşqunluq hamını heyran qoydu. Ancaq bölgə müşavirəsi ötəngünkünə bənzəmədi. Müşavirənin lap əvvəlindən Heydər Əliyev pərt görünürdü.

O, iclası başlanğıcdan tənqidi müstəviyə yönəltdi. Pambıq toplanışının yarıtmaz təşkilində kolxoz sədrlərini, rayon rəhbərlərini ciddi tənqid etdi. İşdə intizamsızlıq halları ilə rastlaşdığını bildirdi. Böyük zəhmətlə becərilmiş məhsulun yerə tökülüb toz-torpağa bələnməsini, keyfiyyətini itirməsini ziyankarlıq adlandırdı. Öz növbəsində nəyəsə açıqlama vermək istəyən rayon başçısının isə sözünü əsəbi sərtliklə kəsdi: "Vəzifənin öhdəsindən gələ bilmirsən. İşindən çox narazıyam", - dedi. Bu kəskin ifadələrdən rayon başçısı sarsıldı. Sifəti gah ağarıb, gah qaraldı. O dərəcədə çaşdı ki, müvazinətini itirdi. Az qaldı xitabət kürsüsündən yerə yıxılsın.

Heydər Əliyev gərginliyin qarşısını tezcə aldı. Mülayim rəftarla, zarafatla əsəb hovunu yumşaltdı.

Ağır keçmiş müşavirədən sonra bizi ayrı bir otaqda çay süfrəsinə dəvət etdilər. Heydər Əliyev hər iki qolunu oturduğu dərin kürsünün dirsəkliyindən ağır-ağır sallandırıb, başını sağ çiyninə söykəmişdi. Günəş altında qaralmış sifətindən də, bir qədər qıyılmış gözlərindən də qədərsiz yorğunluq yağırdı. Asan iş deyildi, dünəndən bəri fasiləsiz fəaliyyətdəydi. Dikəlib şux təbəssümlə:

- Hə, dostlar, deyəsən, çox yorulubsunuz. Siz belə olanda, təsəvvür edin mən nə gündəyəm. Boynuma alıram, gücüm tükənib. Yoxsa sizi ayaq üstə qarşılayardım, - dedi.

Nurəddin Babayev müəllim dilavərliyi ilə hamıdan cəld cavab verdi:

- Sizin yorulmağınızın səbəbi məlumdur, Heydər müəllim, - dedi, - iki gündür rahatlıq nədir bilmirsiniz. Adamlarla canlı ünsiyyətdəsiniz. Hər görüşdə bir-birindən gözəl, çox mənalı, məntiqli çıxışlar edib, dərin nitqlər söyləyibsiniz. Mən yazıçılıqdan əlavə, həm də müəlliməm. Universitetdə mühazirələr oxuyuram. Aramsız danışığın insanı əldən necə saldığını öz təcrübəmdən bilirəm. Biz müəllimlər auditoriyalarda, sinif otaqlarında dərs keçirik. Siz isə açıq havada, qızmar günəş altında, günün günorta çağlarında, nəfəs çəkmək çətin olan vaxtlarda, zəhmətkeşlər əhatəsində hamı üçün anlaşıqlı söhbətlər aparıbsınız. Əlbəttə yorularsınız.

Xoş sözlər üzlərdə şən təbəssüm yaratdı. Heydər Əliyevin də kefini açdı. Minnətdarlıq edib, qəddini bir az da dikəltdi. Qollarını kürsü dirsəkliyindən götürüb qoynunda çarpazladı. Gümrah səslə, aram-aram əsas mətləbə keçdi:

- Gecə yarı olur, vaxtımız dardır. Gələk əsas məsələyə. Sizi bura çağırmaqda məqsədim səfərimiz barədə təəssüratınızı öyrənməkdir. Nə gördünüz? Nə eşitdiniz? Nələrin şahidi oldunuz? Mənim üçün bunlar çox maraqlıdır. Siz yaradıcı, aydın zəkalı insanlarsınız. Gözləriniz iti, müşahidələriniz dəqiqdir. Xahiş edirəm, buyurun, rəy açıqlayın.

Nurəddin Babayev bu dəfə də qabağa düşdü. Oçerkist idi. Qəzet və jurnal ezamiyyətləri ilə kolxozlarda, sənaye müəssisələrində çox olurdu. Oçerklər, məqalələr, reportajlar yazırdı. Təsərrüfat işlərindən müəyyən biliyi, məlumatı vardı. O, kolxozçuların əzmkarlığından, pambıqçılıq sənətinə yetərincə yiyələndiklərindən və rəhbərə - Heydər Əliyevə böyük məhəbbət bəslədiklərindən gen-bol danışdı.

Sonra bəstəkarlar, rəssamlar, jurnalistlər səfər təəssüratlarını bölüşdülər. Ən axırda Heydər Əliyevin nəzərləri mənim üzümdə əyləndi. Ayağa durdum. Adətim üzrə bəlağətə gücüm çatmadı. Sadəcə olaraq, bəzi müşahidələrimi dilə gətirdim. Diqqəti son müşavirədə baş vermiş insidentə çəkdim. Rayonun birinci katibinin düşdüyü vəziyyəti xatırlatdım. Müvazinətini itirmiş katibi psixoloji sarsıntıdan necə çıxarmasında Heydər Əliyevin ustalıq göstərdiyini xüsusi vurğuladım. Bunu yadımda ən çox qalan yaxşı hal, yüksək keyfiyyət kimi qeyd etdim.

Dediklərimin Heydər Əliyevə necə təsir bağışladığını bilmədim. Çünki həmin anlarda başqa intizardaydım: Bakı vağzalında yarımçıq qalmış söhbətin davamını gözləyirdim. Lakin ona qayıdılmadı. Ya yorğunluqdan unudulmuşdu, ya da yeri münasib sayılmamışdı. Geri qayıdandan beş-altı gün sonra gördüklərim əsasında böyük oçerk yazıb, o vaxtın mühüm mətbu orqanı olan "Kommunist" qəzetində çap etdirdim.

❖ ❖ ❖

İkinci görüşümüz üç il sonra, Moskva şəhərində, Kremlin Qurultaylar Sarayında oldu.

Bu illərdə Heydər Əliyev Azərbaycanda işləmirdi. Vəzifəsi daha da böyüdülmüşdü. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin büro üzvü seçilmiş, SSRİ Nazirlər Kabineti sədrinin birinci müavini təyin edilmişdi.

Möhtəşəm Qurultaylar Sarayında iki gün idi RSFSR yazıçılarının qurultayı öz işinə başlamışdı. Siyasi büronun üzvləri də tədbirdə iştirak edirdilər. O cümlədən, Heydər Əliyev də rəyasət heyətində idi. Yazıçıların bəzən sərt, bəzən də mübahisəli çıxışlarını diqqətlə dinləyirdi.

Mən bu qurultaya Azərbaycan yazıçılarının nümayəndəsi kimi gəlmişdim.

Sarayda yerlər əlifba sırası ilə bölünmüşdü. Mən lap öndə - ikinci cərgənin ortalarında əyləşmişdim. Heydər Əliyevi buradan çox aydın görürdüm. İftixar hissi keçirirdim. Ərazicə kiçik bir respublikanın yüksək zəkalı oğlu böyük SSRİ-nin ən nüfuzlu, ən səlahiyyətli rəhbərləri cərgəsində idi. Deyəsən, Heydər Əliyevin də gözü məni almışdı. Arabir çönüb mənə sarı baxırdı.

Səhər iclası günorta, təxminən saat ikidə bitdi.

Axşam iclası da yekunlaşdı. Siyasi büro üzvləri rəyasət heyətini nəyə görəsə tələm-tələsik tərk etdilər. Heydər Əliyev ayaq saxladı. Qanrılıb mənə sarı bir də baxdı. Mən güman içində, aralıdan ona salam verdim. O, salamımı xoş təbəssümlə alıb, əli ilə yanına çağırdı. Ona doğru iki-üç addım atmışdım ki, mülki paltarda, ətli-canlı iki oğlan qarşımı kəsdi. Anladım ki, mühafizə işçiləridir. Həmən anda Heydər Əliyevin rus dilində rəsmi müraciəti eşidildi:

- Buraxın gəlsin!

Mühafizəçilər dərhal kənara çəkildilər. Görüşə şərait yaratdılar. İrəli getdim. Heydər Əliyev özü də bir neçə pillə aşağı endi. Əl tutuşub, mehribanlıqla hal-əhval soruşdu:

- Nə var, nə yox? Necəsən?

Bir qədər tutularaq:

- Çox sağ olun, pis deyiləm, - dedim. Belə səmimi söhbətə hazırlıqsız olduğum üçün səsim də xeyli həzin çıxdı. Heydər Əliyev çaşqınlığımı, şübhəsiz ki, sezdi. Həqiqi siyasət adamının gözü və duyumu iti olur. Söhbəti sərbəst məcraya yönəltdi:

- Yazıçı yoldaşların nə ilə məşğuldurlar? İşləriniz necə gedir?

- Hər şey qaydasındadır. Hamının sizə salamı var, - söylədim.

Heydər Əliyevin mehriban baxışlarının nisbətən soyumasından duydum ki, cavablarımdan razı qalmayıb. Elə özümün də özümdən xoşum gəlməmişdi. Sözü ağzımdan sanki kəlbətinlə çəkib çıxarırdılar. Neyləyim ki, bir para qələm yoldaşlarımda olan gözəgirmək, tezcə şirin münasibət yaratmaq qabiliyyətindən kasıbam. Bu sarıdan qıfılbəndli dilim heç yerdə məni yarıtmayıb.

Heydər Əliyevin həlim sifət cizgiləri bir qədər dəyişsə də, səsinin xoş ahəngi dəyişmədi.

- Mənə nə sözün, xahişin? - soruşdu.

Xahiş olunacaq məsələm, əlbəttə, vardı. Mənzil şəraitim son dərəcə dözülməz idi (bu məsələm heç indi də qəlb oxşamır). Əlaqədar təşkilatlara ərizələr, xahiş məktubları ilə dəfələrlə müraciətlər etmişdim. Hətta ən yuxarı instansiyalara teleqramlar vurmuşdum. Müsbət bir nəticə yox idi.

Budur, indi əlimə yaxşıca fürsət düşmüşdü. Məsələnin yüz faizlik həlli üçün Allahtərəfi imkan yaranmışdı. Di gəl ki... nitqim bağlanmışdı, o deyildi ki, utanırdım, ya nədənsə çəkinirdim. Sadəcə, ayaqüstü söhbətdə şəxsi dərddən danışmağa arlanırdım.

Heydər Əliyev vaxt itirmədi. Cibindən "vizit kartı"nı çıxarıb mənə uzatdı.

- Al, - dedi, - yanıma gəlmək istəsən, zəng elə. Telefona köməkçim yaxınlaşacaq. Deyərsən ki, səni özüm çağırtdırmışam.

Kartı məmnunluqla aldım. O, bir də əl tutuşdu. Səmimiyyətlə sağollaşıb aralandı. Mən isə yerimdən tərpənmədim. Onun arxasınca heyrətlə boylandım.

Ertəsi gün münasib vaxtda zəng etdim. Qarşıdakı söhbətə daxilən hazırlaşırdım. Nədən, necə danışacağımı kifayət qədər düşünüb-daşınmışdım. Dəstəyi, deyildiyi kimi, köməkçi götürdü. Məni dinləyib, nəzakətlə bildirdi ki, Heydər Əliyeviç çox vacib bir məsələ ilə əlaqədar ezamiyyətə gedib. Həftənin axırına qayıdacaq.

Təəssüfləndim. Həftənin axırını gözləmək imkanım yox idi. Qurultay işlərini bitirmək üzrə idi. Nümayəndələrə geri qayıtmaq üçün yol biletləri artıq paylanmışdı. Mehmanxanada əlavə günlər qalsam, xərci öz cibimdən olacaqdı. Xərcliyimin də, necə deyərlər, başına daş salmışdım. Özümlə götürdüyüm pula uşaqlara əyin-baş almış, Bakıda çox az tapılan bəzi ərzaq tədarükü görmüşdüm.

Nə isə, gözləyəsi olmadım. Fikirləşdim ki, gedib Bakıdan telefonla əlaqə saxlayaram.

Bu ümidlə evə qayıtdım. Bakıdan ayrı-ayrı vaxtlarda bir neçə dəfə telefon açdım, köməkçisi ilə danışdım. İş nəhsə düşdü. Bəxtimdən küsüb daha əlaqə saxlamadım...

❖ ❖ ❖

Yenə aradan illər ötdü. Sovet quruluşu dağıldı. Sosialist respublikalarının ittifaqı uçub-söküldü. Müstəqillik qazandıq. Bəxti kəm şairimiz Məhəmməd Hadinin arzuladığı imzamızı mühüm imzalar cərgəsinə qoyduq. Lakin şadyanalığımız uzun sürmədi. Xarici və daxili bədxahlarımız bizə çətin problemlər yaratdılar. Partiyalar arasında didişmələr, çəkişmələr baş alıb getdi. Düşmən hədəflərindəki kəndlər, şəhərlər, qəsəbələr xəyanətkarlıqla boşaldıldı, fitnəkar erməni birləşmələrinə müqavimətsiz təhvil verildi. Nəyəsə ümid etmək, İlahidən imdad diləmək artıq mənasız bir şey idi, ondan heç nə hasil deyildi. Dövlətə başçılıq etməyə, ümumi rəhbərliyə yetərli ağlı, qətiyyəti, siyasi işlərdə zəngin təcrübəsi olan adamın köməyinə kəskin ehtiyac duyuldu. Uzun axtarışsız-filansız Heydər Əliyev yada düşdü.

Heydər Əliyev həmin vaxtlarda Naxçıvanda Ali Məclisin Sədri idi. Siyasi büro üzvlüyündən çıxarılmış, Moskvadan qayıtmış, bu müdrik, dərin zəkalı şəxs doğulub ərsəyə gəldiyi Naxçıvan şəhərinə gedərək tez bir zamanda camaatla qaynayıb-qarışmış, orada canlı, səmimi ünsiyyət yaradaraq böyük etimad qazana bilmişdi. Bu etimadın səbəbinə də yenidən yüksək vəzifə kürsüsündə əyləşdirilmişdi.

Ən gərgin, ziddiyyətli anlarda "cəbhəçilər" ona minnətçi düşmək məcburiyyətində qaldılar. Yanına tanınmış ziyalılardan təvəqqeçilər göndərdilər, Bakıya dəvət etdilər. Çox get-gəllərdən sonra, nəhayət ki, razılıq alındı. Heydər Əliyev Bakıya təşrif buyurdu. əvvəlcə Milli Məclisə Sədr seçildi. Daha sonra (Əbülfəz Elçibəy Kələkidə məskunlaşanda) isə prezident səlahiyyətləri də ona həvalə edildi. Və respublikada idarəçilik oz çəmini yavaş-yavaş tapdı. Təşvişli, təlatümlü cəmiyyətdə sabitlik, sakitlik bərqərar oldu. Lakin cəbhə xətlərində, qanlı döyüş meydanlarında vəziyyət hələ də qəlb ağrıdırdı.

Bir axşam televiziya xəbərlərində çox təsirli, həyəcanlı bir hadisə göstərdilər. Ağbirçək bir qadın hərbi paltarda, əlində silah cəbhəyə yollanırdı. Diktor dedi ki, bu qadının yeganə oğlu vətən uğrunda döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. İndi ana oğlunun əsgər paltarını geyinib onun intiqamını almağa gedir.

Hadisə məni son dərəcə təsirləndirdi, hətta kövrəltdi də. Bir neçə saat həmin təsir sıxıntısında evin içində vurnuxdum. Handan-hana beynimdə "Ana intiqamı" adlı povest süjeti yarandı. Dərhal qələmə sarıldım. İki-üç ay müddətində intensiv işləyib povesti tamamladım. Qarabağ müharibəsindən bəhs edən, ədəbiyyatımızda ilk irihəcmli əsər olan bu povest o dövrün ən çox oxunan "Səhər" qəzeti səhifələrində hissə-hissə çapdan çıxdı, geniş oxucu marağı qazandı.

Povest qəzetdə tam çap olunub qurtaran günün ertəsi Milli Akademik Dram Teatrının direktoru və bədii hissə rəhbəri, istedadlı aktyor Həsənağa Turabov mənə zəng vurub "Ana intiqamı"nın əlyazmasını istədi: "Əsəri qəzetdə axıracan izləyə bilməmişəm, - dedi. - Amma yoldaşlardan izləyən olub. Xüsusən də Leyla xanımın (Leyla Bədirbəylinin - **V.B.**) könlünə yaman yatıb. Oğlunu döyüşdə əvəz eləyən qəhrəman ana obrazını səhnədə yaratmaq həvəsindədi. Xahiş edirəm povesti mənə çatdır, oxuyum. Və onu səhnələşdirmək barədə düşünək".

"Ana intiqamı"nın özümdə olan nüsxəsini Turabova çatdırdım. İki-üç gecəyə oxuyub məni teatra çağırtdırdı. Povestin səhnə variantını yazmaq üçün rejissor Bəhram Osmanovu mənə məsləhətçi təyin etdi.

Pyesi yay müddətində yazıb bitirdim. Payızda bədii şuradan keçdi. Bəhram Osmanovun rejissorluğu ilə məşqlər başlandı. Bir ay ərzində tamaşa hazır oldu. Teatrdaxili baxışdan sonra Turabov qoluma girib məni xidməti otağına apardı. Adəti üzrə dodaqucu qımışa-qımışa: "Tamaşa pis alınmayıb, - dedi. - İnanıram ki, ictimaiyyət tərəfindən də rəğbətlə qarşılanacaq. Gəl sən belə bir iş elə: götür, mənim "hökumət telefonum"la cənab Prezidenti tamaşanın premyerasına dəvət elə. Səni tanıyır. Sözünü yerə salmaz". Mən tərəddüd göstərdim. Bu hərəkəti etikadan kənar saydım. Respublikada işlərin hədsiz gərgin, problemlərin aşıb-daşan, macalın dar vaxtında Heydər Əliyevin tamaşaya gələcəyini ağlıma heç cür sığışdıra bilmədim. Turabov ciddi təkidə keçdi: "Mən deyənə qulaq as! Səndən nə gedir, qəbahət bir iş tutmursan ki?! Çox vacib mövzuda, günün tələbinə uyğun əsər yazıbsan. Qarabağ uğrunda ölüm-dirim mübarizəsini qələmə alıbsan. Biz də öz tərəfimizdən onun uğurlu səhnə təcəssümünü vermişik. Düşünürəm ki, bu dəvət hörmətli Prezidentimizin ürəyincə olacaq. Dövlət qayğıları başından aşsa da, vaxt ayırıb mütləq gələcək. O, teatrı çox sevir".

Mən tərəddüdümdə davam etdim. Çiynimi çəkib susdum. Turabov incidi: - "Ayrı söz demə, sadəcə, Prezidentin köməkçisinə arzumuzu bildir. Kollektiv adından danış..."

Mən yerimdən qımıldanmadım. Əl-qolumu bağlayan səbəbi duruxa-duruxa açıqladım:

- Qorxuram qınaq sahibi olaq, - dedim, - cənab Prezident düşünər ki, respublikanın bu ağır, hərcəhətli gərgin vəziyyətində biz şan-şöhrət hayındayıq. Ondan hansısa bir ənam, mükafat umuruq.

Turabov aktyor təbiri ilə bərk yırğalandı. Boynunu sağa-sola burub, təəssüflə fısıldadı. Sonra ürək yanğısı ilə həzin-həzin dilləndi:

- Əlbəttə, cənab Prezidenti kollektivimiz adından mən özüm də dəvət edə bilərəm. Heç bir problem yoxdur. Ancaq sənin bir müəllif kimi ona müraciətin, zənnimcə, məqsədə daha uyğundur.

İnada yer qalmadı. Telefona yaxınlaşdım. Nömrələri Turabovun özü yığdı. Prezident köməkçisi məni tanıdı. Ərzimi ünvanına mütləq çatdıracağını bildirdi. Nə üçünsə buna az inandım.

Evə gəldim. Qabağıma təzəcə bir stəkan çay qoymuşdular ki, telefonumuz ötkəm-ötkəm cingildədi. Şəhərlərarası rabitə zənginə bənzədi. Təlaş keçirdim.

Dəstəyi həyəcanla götürdüm. Xətdəki qadın bir qədər rəsmi ahənglə:

- Sizinlə Prezidentin köməkçisi danışacaq, - dedi, - xahiş edirəm, gözləyin.

Gözlədim. Ürəyim xeyli toxtadı. Pis xəbər eşitmədiyimə görə sevindim. Köməkçi mənimlə bir daha salamlaşıb, cənab Prezidentlə danışacağıma işarə vurdu: - Hələlik dəstəyi qoyun yerinə. Bir də zəng olacaq.

Dəstəyi yerinə qoydum.

Telefon təkrar cingildədi. Dəstəyi qulağıma yaxınlaşdırdım. Yenə köməkçinin səsi eşidildi:

- Vidadi müəllim, xətdə olun, bu dəqiqə sizi cənab Prezidentlə calaşdırıram.

"Calaşma" xeyli ləngidi.

- Salam, necəsən? - Heydər Əliyev çox yorğun danışdı. - Mənə zəng edibsən deyirlər. Nə məsələdi?

Diqqətinə görə təşəkkür edib, məramı eynən söylədim.

Araya sükut çökdü. Heydər Əliyev fikirli-fikirli xəbər aldı:

- Premyera haçandı?

- Mayın 14-dədir, - dedim.

Bir neçə an susub, yenə xəbər aldı:

- 14-nə niyə salıblar?

Cavab verdim ki, bu barədə bir söz söyləyə bilmərəm. Mədəniyyət Nazirliyi ilə teatrın rəhbərliyi belə məsləhət görüb.

Sükut təkrarlandı. Heydər Əliyevin səsi tutqunlaşdı:

- O günə işlərim coxdu. Xaricdən qonaqlar gələcəklər. Baxım, görüm imkan tapacağammı? - deyib duruxdu. - İkinci premyera nə vaxtdı?

- Ayın 16-dadı, - söylədim.

Heydər Əliyevin səsində birdənbirə gümrahlıq yarandı. Qətiyyətlə:

- Bax, ona gələrəm, - dedi. - Mütləq gələrəm. Mənə başqa sözün?

Səmimi rəftar dilimin abır kilidini qırdı, ötkəmləndim:

- Sizə sözüm çoxdur, Heydər Əliyeviç, - dedim. - Bəzi çətinliklərim var...

Heydər Əliyev tələsdi. Sözümü yarıda kəsdi:

- Elə mənim də sənə deyiləsi sözüm az deyil. Gələrəm, teatrda görüşüb, arxayın söhbətləşərik. Di sağ ol! Yoldaşlara salam yetir.

Dəstək xırıldadı. Əlaqə qırıldı. Nəfəsimi məmnunluqla dərib sevincək Turabova zəng vurdum, muştuluqladım. Həsənağa şadlıqdan aşıb daşa-daşa qışqırdı:

- Əla e, əla! Səni xeyirxəbər olasan! Ürəyimi dağa döndərdin. Afərin! - Sonra sərənəsi yatdı. Haykūydən sakit danışığa keçdi. - Gərək ikinci premyeraya səyimizi artıraq. Daha məsuliyyətlə hazırlaşaq.

Hər ikimiz o xoş günü böyük ümidlərlə gözlədik! Di gəl ki...

Dədələr nahaq deməyiblər ki, sən saydığın qoy dursun, gör fələk nə sayır. Uğurum yenə gəlib çiləkənə ilişdi. Heç gözlənilmədən faciə baş verdi. Tamaşada ana rolunu ifa edən Leyla Bədirbəylinin həyat yoldaşı qəflətən vəfat etdi. Aydındır ki, Leyla xanım səhnəyə çıxa bilməzdi. Və çıxmadı da. Onu əvəz edən (dublyor) olmadığından tamaşa qırx gün müddətinə bağlandı. Sonra da teatr yay tətilinə getdi.

❖ ❖ ❖

Aradan iki il yenə keçdi. 1997-ci ilin oktyabrında Milli Akademik Dram Teatrında yubileyim keçirilirdi. Yetmiş yaşım qeyd olunurdu. Təntənənin qızğın gedişində arxadan kimsə qulağıma pıçıldadı ki, cənab Prezident səni telefona çağırır. Yerimdən durub pərdə arxasına keçdim. Nəfəsimi dərib dəstəyə əl yetirməyimlə Heydər Əliyevin həlim səsi qulağımı oxşadı. Salamlaşdıqdan sonra böyüklük, alicənablıq göstərib üzr istədi:

- Bağışla, - dedi, - mənə gec xəbər veriblər, yubileyində iştirak edə bilmirəm. Sənə möhkəm cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Qələmin daha iti olsun!

Belə həssaslıqdan, qədirbilənlikdən hədsiz məmnun qaldım. Necə də isti, mehriban münasibət! Bu sayğı təkcə mənəmi idi? Əlbəttə yox. Yazımın bir qədər əvvəllərində qeyd etmişdim ki, onun tanınmış ziyalılara - elm, ədəbiyyat, incəsənət xadimlərinə xüsusi rəğbəti vardı. Hərəyə öz istedad çəkisi, ictimai nüfuzu müqabilində dövlət qayğısı göstərirdi. Ağır iqtisadi durumumuz, maddi çətinliyimiz zamanında önəmli adamlarımıza, o cümlədən də mənə prezident təqaüdünün təsisi məhz həmin sayğının nəticəsi idi.

Burada onun həqiqi rəhbər xüsusiyyətini, yüksək insani keyfiyyətini səciyyələndirən bir mühüm çalar da xatirimdə canlandı. Haşiyə çıxaraq onu da oxucu nəzərinə çatdırmağı vacib sayıram.

1995-ci ilin qızmar iyul ayı idi. Dostum, çox istedadlı yazıçı və seçimli ictimai xadim, bütöv şəxsiyyət İsmayıl Şıxlı ilə vida mərasiminə toplaşmışdıq. Şəhriyar adına əzəmətli mədəniyyət klubu mərasim iştirakçılarını tutmurdu.

Vida iclası təyin olunmuş vaxtdan çox gec başladı. Hamı Heydər Əliyevin gəlməsinə müntəzir idi. Göstəriş vermişdi ki, mərasim onsuz başlamasın. Həmin günlərdə Ukrayna Prezidenti respublikamızda rəsmi səfərdəydi. İsmayıl Şıxlının dəfni təsadüfən Leonid Kuçmanın yolasalınma mərasimi ilə üst-üstə düşmüşdü. Heydər Əliyev aeroportdan saat beş radələrində qayıtdı. Son dərəcə üzgün olsa da, fəxri qarovulda dayandı. Hərarətli çıxış etdi. İsmayıl Şıxlının ruhuna özünün dərin hörmətini büruzə verdi.

Mən yenə də heyrətdə qalmışdım. Bu böyük şəxsiyyətin ürək genişliyindən, xalqa gərəkli ziyalılara mehrindən əfsunlanmışdım. Əgər onun yerinə başqa bir dövlət başçısı olsaydı, çox yəqin ki, vidalaşmağa gəlməzdi. Baş qarışıqlığını, rəsmi dövlət tədbirini bəhanə edərək özünə əlavə zəhmət verməzdi. Onda isə o, əlbəttə ki, mərifət elminin Heydər Əliyevi olmazdı. Onun hər hərəkəti, hər davranışı həyat dərsidir. Bu dərsdən bəhrələnənlər heç nədə uduzmazlar.

Ruhu şad olsun!

***Vidadi BABANLI***




## Parisdə Bakının “Expo 2025”ə evsahibliyinə namizədliyi ilə bağlı mətbuat konfransı keçirilib

Parisdə Beynəlxalq Sərgilər Bürosunun Baş Assambleyasının 163-cü sessiyasında Bakı şəhərinin “Expo 2025” Ümumdünya Sərgisinə evsahibliyinə namizədliyi ilə bağlı təqdimatından sonra mətbuat konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının maliyyə naziri, “Bakı Expo 2025” Ümumdünya Sərgisinin işçi qrupunun rəhbəri Samir Şərifov və Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, ölkəmizin Beynəlxalq Sərgilər Bürosundakı nümayəndə heyətinin rəhbəri Elçin Əmirbəyov Bakı şəhərinin “Expo 2025” sərgisinə namizədliyi ilə bağlı məlumat veriblər.

Samir Şərifov Bakının namizədliyinin Azərbaycan hökuməti və cəmiyyəti tərəfindən tam dəstəkləndiyini söyləyib. O, ziyarətçilər üçün yaradılan şəraitdən, viza rejiminin sadələşdirilməsindən danışıb.

Nazir Ümumdünya Sərgisinin Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi kimi milli strategiyaya uyğun gəldiyini bildirib. Qeyd edib ki, sərgi ölkəmizdə turizmin inkişafına da təkan verəcək.

“Biz əminik ki, Beynəlxalq Sərgilər Bürosunun son missiyası Bakı şəhərinin “Expo 2025” sərgisinə tam hazır olduğunun şahidi olacaq” - deyə S.Şərifov vurğulayıb.

Elçin Əmirbəyov Bakıda “Expo 2025” üçün seçilən məkan haqqında məlumat verib. Bildirib ki, sərgi üçün nəzərdə tutulan məkan infrastrukturun inkişafına da töhfə verəcək.

Sonra jurnalistlərin sualları cavablandırılıb.

# Beynəlxalq layihələr ikitərəfli iqtisadi əməkdaşlığın inkişafına geniş imkanlar yaradır

Milli Məclisin Azərbaycan-Slovakiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev, işçi qrupunun üzvü, millət vəkili, YAP Nizami rayon təşkilatının sədri Sədaqət Vəliyeva və millət vəkili Azər Badamov Slovakiyanın paytaxtı Bratislavada rəsmi səfərdə olublar.

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər zamanı Milli Məclisin nümayəndə heyətinin Slovakiyanın Baş naziri Peter Pelleqrini, Slovakiyanın Xarici İşlər və Avropa Məsələləri üzrə Nazirliyinin dövlət katibi Lukas Parizek, həmin ölkənin Milli Şurasının Slovakiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Peter Marçek və qrupun üzvləri ilə məhsuldar görüşləri keçirilib, parlamentlərarası əlaqələrin, ikitərəfli və çoxtərəfli münasibətlərin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

Slovakiyanın Baş naziri Peter Pelleqrini ilə keçirilən görüşdə iki ölkə arasında formalaşmış dostluq münasibətlərinin, siyasi, iqtisadi və humanitar sferada qarşılıqlı əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib. Görüşdə Azərbaycanda aparılan kompleks və sistemli islahatlar, həyata keçirilən nəhəng transmilli nəqliyyat və enerji layihələri, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu xətti, “Şimal-Cənub nəqliyyat dəhlizi”, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası, “Cənub qaz dəhlizi” haqqında ətraflı söhbət açan Ş.Hacıyev qeyd edib ki, bütün bunlar gələcək dövrdə ikitərəfli iqtisadi əməkdaşlığımızın sürətlə inkişaf etdirilməsinə geniş imkanlar yaradır.

Azərbaycanda son dövrlərdə əldə edilmiş uğurlardan məmnunluğunu bildirən Baş nazir P.Pelleqrini həm Azərbaycana investisiya qoyuluşlarında, həm də ölkəmizdən sərmayələrin cəlb edilməsində, xüsusilə iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsində maraqlı olduğunu qeyd edib, iki ölkənin əməkdaşlıq potensialının genişləndirilməsi məqsədilə Azərbaycan-Slovakiya Hökumətlərarası İqtisadi Komissiyanın yaradılması və biznes forumlarının keçirilməsinin, eləcə də hər iki ölkədə səfirliklərin açılmasının vacibliyini vurğulayıb. Baş nazir öz tərəfindən bu istiqamətdə müvafiq addımların atılacağını da diqqətə çatdırıb. Bununla əlaqədar olaraq Slovakiyanın Baş naziri P.Pelleqrininin bu il sentyabr-oktyabr aylarında Azərbaycana gözlənilən səfəri barədə də məlumat verilib.

Parlament nümayəndə heyətinin rəhbəri Ş.Hacıyev əlavə edib ki, Beynəlxalq Sərgilər Bürosunun Ümumdünya Expo Sərgisinə 2025-ci ildə evsahibliyi etməsi üçün Bakı şəhərinin namizədliyi irəli sürülüb. Azərbaycanda nüfuzlu beynəlxalq tədbirlərin ən yüksək standartlar səviyyəsində müvəffəqiyyətlə həyata keçirildiyinə diqqəti çəkərək Ş.Hacıyev “Expo 2025” sərgisinə evsahibliyi etməsi üçün Bakı şəhərinin namizədliyinin Slovakiya tərəfindən dəstəklənəcəyinə ümidvar olduğunu bildirib. Baş nazir son üç ildə iki dəfə Bakıda səfərdə olduğunu məmnunluqla xatırladaraq paytaxtımızda bu kimi qlobal tədbirlərin keçirilməsi üçün bütün imkanların və lazımi infrastrukturun mövcud olduğunu qeyd edib və Bakının “Expo 2025” sərgisinə evsahibliyi etməsinə tam layiq olduğunu vurğulayıb.

Slovakiyanın Xarici İşlər və Avropa Məsələləri üzrə Nazirliyinin Dövlət Katibi Lukas Parizek ilə görüşdə nümayəndə heyətimiz tərəfindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında ətraflı məlumat verilib və sözügedən münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin pozulmaması prinsipləri əsasında həll olunmasının mümkünlüyü bir daha bəyan edilib. Eyni zamanda, bir neçə Slovakiya vətəndaşının, o cümlədən bəzi deputatların, jurnalistlərin, elm və təhsil işçilərinin Azərbaycan Respublikasının müvafiq hakimiyyət orqanlarının icazəsi olmadan işğal edilmiş ərazilərimizə qeyri-qanuni səfərlərinin, həmin ərazilərdə yaradılmış qanunsuz rejimlə əməkdaşlıqların yolverilməz olduğu diqqətə çatdırılıb.

Qarşı tərəf məsələnin ciddi araşdırılacağını, gələcəkdə bu cür halların baş verməməsi üçün müvafiq tədbirlərin görüləcəyini bildirib. Bununla yanaşı, Slovakiyanın hazırda BMT Baş Assambleyasına, gələn 2019-cu ildə isə ATƏT-ə sədrlik edəcəyini qeyd edərək L.Parizek beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlığın vacibliyini xüsusi olaraq vurğulayıb və bununla bağlı ölkəmizə ilin sonlarına yaxın nəzərdə tutduqları səfərlərinin əhəmiyyətindən danışıb. İkitərəfli münasibətlərin möhkəmləndirilməsi imkanları barəsində fikir mübadiləsinin aparılması ilə davam edən görüşdə hər iki ölkədə səfirliklərin açılması məsələsinin vacibliyi bir daha qeyd edilib.

Eyni zamanda, ölkəmizdə multikulturalizmin əhalinin həyat tərzinə çevrildiyinə diqqəti çəkən Ş.Hacıyev Bakı şəhərinin mərkəzi rayonu hesab olunan Səbail rayonu ilə Bratislavanın mərkəzi inzibati rayonlarından biri ilə dostluq əlaqələrinin yaradılması və “qardaşlaşmış rayonlar” çərçivəsində qarşılıqlı ictimai-mədəni tədbirlərin, o cümlədən mədəniyyət günlərinin həyata keçirilməsi təklifi ilə çıxış edib və bunun böyük mədəni, ticari-iqtisadi və turizm əhəmiyyətindən danışıb. Təklif böyük maraqla qarşılanıb və ikitərəfli münasibətlərin gücləndirilməsinə əhəmiyyətli töhfə verəcək bu məsələnin müsbət həll olunması üçün Slovakiya tərəfindən müvafiq addımların atılacağı diqqətə çatdırılıb.

Görüşdən sonra Slovakiya Milli Şurasında tanışlıq məqsədilə gəzinti turu və rəsmi ziyafət təşkil edilib.

Səfər proqramı Azərbaycanın Bratislavadakı fəxri konsulluğu, Azərbaycan Respublikasının Avstriyadakı səfirliyi və səfirliyin Bratislavadakı nümayəndəliyi tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi, habelə Azərbaycan və Slovakiya diplomatik əlaqələrinin 25 illiyi münasibətilə Bratislavanın filarmoniyasında təşkil edilmiş rəsmi qəbul və konsert proqramı ilə sona çatıb.

# Naxçıvanda VI Beynəlxalq “Caspian Energy Forum Nakhchivan-2018” keçirilib





İyunun 14-də Naxçıvan Biznes Mərkəzində VI Beynəlxalq “Caspian Energy Forum Nakhchivan-2018” keçirilib. Forum iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsinin önünə gül dəstəsi qoyub, Heydər Əliyev Muzeyini ziyarət edib və Biznes Mərkəzi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, forumda çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının iqtisadiyyat şöbəsinin müdiri Rafiq Novruzov iştirakçıları Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun adından salamlayaraq forumun fəaliyyətinə uğurlar arzulayıb. Bildirib ki, VI Beynəlxalq “Caspian Energy Forum Nakhchivan-2018” ölkəmiz üçün çox əlamətdar bir tarixdə - Milli Qurtuluş Günü ərəfəsində keçirilir. Düz 25 il bundan əvvəl ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının təkidli tələbi ilə ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıtması ilə müstəqil Azərbaycan məhv olmaq, parçalanmaq təhlükəsindən xilas edildi. Məhz həmin dövrdən başlayaraq ictimai-siyasi, sosial-iqtisadi həyatın bütün sahələrində tərəqqinin əsası qoyuldu. Ulu öndərin müəllifi olduğu siyasətin uğurla davam etdirilməsinin nəticəsidir ki, hazırda ölkəmiz və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası yeni bir mərhələyə - dinamik və davamlı inkişaf mərhələsinə qədəm qoyub, geniş sahibkarlar təbəqəsi formalaşıb, sosial-iqtisadi inkişafda özəl bölmənin rolu daha da artıb.

Forumda “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı, nailiyyətlər və perspektivlər” mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov bildirib ki, həyata keçirilən quruculuq tədbirləri, iqtisadi və sosial sahədə əldə olunan nailiyyətlər Naxçıvan Muxtar Respublikasını Azərbaycanın ən qabaqcıl, inkişaf etmiş bölgəsinə çevirib. 1995-ci ildən başlayaraq muxtar respublika iqtisadiyyatının əsas sahələrinin, o cümlədən sənayenin, tikintinin, kənd təsərrüfatının, nəqliyyat və rabitənin inkişafı istiqamətində aparılan məqsədyönlü siyasət məhsul istehsalının artımına, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə öz müsbət təsirini göstərib, iqtisadi və sosial sahədə makroiqtisadi göstəricilər hər il yüksələn xətlə davam edərək 2017-ci ildə ümumi daxili məhsulun həcmi 2 milyard 701 milyon 663 min manata, onun hər bir nəfərə düşən həcmi isə 5 min 990 manata çatıb.

“Caspian European Club”un sədrinin birinci müavini və baş icraçı direktoru Telman Əliyev “Caspian European Club”un Azərbaycan regionlarının inkişafında rolu” mövzusundakı çıxışında deyib ki, ölkəmizdə investisiya mühitinin yaxşılaşdırılması, sahib olduğu karbohidrogen sərvətlərinin qeyri-neft sektoruna yönəldilməsi və dövlətimizin uğurla həyata keçirdiyi regional inkişaf strategiyası Prezident İlham Əliyevin yorulmaz fəaliyyəti sayəsində mümkün olub. Vurğulanıb ki, 2017-ci ilin göstəricilərinə əsasən, Naxçıvan Muxtar Respublikasının lider olması çox əhəmiyyətli hadisədir və bu, qədim diyarda həyata keçirilən iqtisadi və sosial siyasətin uğurlu nəticəsi kimi qiymətləndirilir. Naxçıvanın ixrac potensialının artması, yerli məhsullar istehsal edən yeni müəssisələrin yaradılması onun investisiya cazibədarlığından xəbər verir. Telman Əliyev forumun əhəmiyyətindən danışaraq “Caspian European Club”un gələcəkdə də naxçıvanlı sahibkarlara işgüzar dəstək verəcəyini qeyd edib.

Forumda Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının İdarə Heyətinin sədri Vüqar Abbasov, “Caspian European Club”un İdarə Heyətinin üzvü Avni Dəmirçi, “Nəqşicahan Holdinq” Şirkətlər Qrupu MMC-nin direktoru Mübariz Vəliyev, “Ləzzət Qida Sənaye” MMC-nin direktoru Teymur Rzayev, “Caspian European Club”un İdarə Heyətinin üzvü Vüqar Eyvazov çıxış ediblər.

Çıxışlardan sonra müzakirələr keçirilib. Tədbirdə 2017-ci ildə Naxçıvan Muxtar Respublikasında əldə olunmuş nailiyyətlərlə bağlı film nümayiş etdirilib.

Günün ikinci yarısında forum iştirakçıları Naxçıvan şəhərindəki tarixi abidələrlə tanış olub, istehsal və xidmət sahələrinə baş çəkiblər.

Qeyd edək ki, forumda Naxçıvanda səfərdə olan Moldova Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri George Leukan və naxçıvanlı sahibkarlar iştirak ediblər.

# Müdafiə Sənayesi Nazirliyinin hərbi təyinatlı məmulatlarının “EUROSATORY-2018” sərgisində nümayişi davam etdirilir

Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal olunan hərbi təyinatlı məmulatlar Parisdə keçirilən “EUROSATORY-2018” beynəlxalq müdafiə və təhlükəsizlik sərgisində nümayiş etdirilir. Bununla bağlı müdafiə sənayesi naziri Yavər Camalovun başçılıq etdiyi geniş tərkibli nümayəndə heyəti Fransada səfərdədir.

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, iyunun 11-dən öz işinə başlayan sərgidə Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal olunan 270 adda hərbi təyinatlı məmulat nümayiş etdirilir.

Dünyanın inkişaf etmiş ölkələrinin qabaqcıl şirkətlərinin qatıldığı “EUROSATORY” sərgisində ilk dəfə təmsil olunan Müdafiə Sənayesi Nazirliyinin nümayiş etdirdiyi məmulatlar, xüsusilə ilk dəfə beynəlxalq sərgiyə çıxarılan - 14,5 millimetrlik “NST” snayper tüfəngi, 81 millimetrlik minaatan, 12,7 millimetrlik silahla təchiz olunmuş məsafədən idarə olunan döyüş modulu, 81 millimetrlik atəş yığımı və “Tufan” minaya davamlı milli zirehli nəqliyyat vasitəsi, “Gürzə” patrul maşını, “İstiqlal”, “Vaşaq” və “Yalquzaq” snayper tüfəngləri böyük maraqla qarşılanır.

Sərgi çərçivəsində nazir Yavər Camalovun başçılıq etdiyi nümayəndə heyəti tədbirə qatılan ölkələrdən - Türkiyənin “Havelsan” və “Çukurova”, İsrailin “Aeronautics”, Fransanın “Rokcell”, Almaniyanın “Diehl” və Serbiyanın “Yugoimport” şirkətlərinin stendlərini ziyarət edib, nümayiş etdirilən yeni növ məmulatlarla yaxından tanış olub. Sərgiyə qatılan qabaqcıl şirkətlərin nümayəndələri ilə görüşlər təşkil olunub, yeni növ müdafiə təyinatlı məmulatların yaradılması və istehsalı üçün mövcud əməkdaşlıqların inkişaf etdirilməsi və yeni əməkdaşlıqların qurulması istiqamətində danışıqlar aparılıb. Eyni zamanda, Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal olunan hərbi təyinatlı məmulatların ixracına dair danışıqlar aparılıb.

Görüşlərdə nazir Yavər Camalov Beynəlxalq Sərgilər Bürosu tərəfindən 2025-ci ildə keçiriləcək “Expo 2025” Ümumdünya Sərgisinə evsahibliyi etməsi üçün Bakının irəli sürülmüş namizədliyinin dəstəklənməsi ilə bağlı müzakirələri davam etdirir.

Sərgi çərçivəsində cari il sentyabrın 25-dən 27-dək Azərbaycanda keçiriləcək “ADEX-2018” üçüncü beynəlxalq müdafiə sərgisi ilə bağlı nazirliyin nümayəndə heyəti tərəfindən geniş məlumat verilir və dəvətlər çatdırılır.

“EUROSATORY-2018” beynəlxalq müdafiə və təhlükəsizlik sərgisi iyunun 15-də başa çatacaq.







# Əbədi Qurtuluş





Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyun günü onu qiymətləndirənlər, dərindən dərk edənlər üçün çox əzizdir. Vətənini, xalqını sevən, həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycanda ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə yenə də Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan bir insandır - bu, Heydər Əliyevdir.

Ulu öndər Heydər Əliyevin yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıdışı Azərbaycan xalqı üçün həqiqi qurtuluş olmuşdur. Bu tarixi qayıdışın şərəfinə Azərbaycanda 1997-ci ildən etibarən elan edilən Milli Qurtuluş Günü hər il olduğu kimi, bu il də Səbail rayonunda geniş şəkildə qeyd olunmuşdur. Əlamətdar günlə əlaqədar rayon icra hakimiyyəti Badamdar qəsəbəsində möhtəşəm bayram konserti təşkil etmişdir.

Səbail Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun, rayonun hüquq mühafizə orqanlarının, elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrin, təsərrüfat və xidmət sahələri kollektivlərinin, veteran və gənclər təşkilatının, din xadimlərinin, rayon ictimaiyyətinin və çoxsaylı KİV nümayəndələrinin, habelə qəsəbə sakinlərinin iştirakı ilə Badamdar qəsəbəsindəki Heydər Əliyev parkında xalq musiqiləri, dünya və Azərbaycan bəstəkarlarının mahnılarından, şən melodiya və rəqslərdən ibarət böyük ədəbi-bədii bayram tədbiri keçirilmişdir.

Tədbirdə qeyd olunmuşdur ki, düz 25 il əvvəl yenicə müstəqilliyini qazanmış respublikamız dağılmaq, parçalanmaq təhlükəsi ilə üz-üzə durduğu bir vaxtda ulu öndər Heydər Əliyevin səyləri, bacarığı, təcrübəsi sayəsində Azərbaycan dövlətçiliyi ona qarşı yönəlmiş qəsdlərdən uğurla çıxdı. Ümummilli liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı, sabitlik və əmin-amanlıq yaratdı və bununla da 15 iyun tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu.

Qeyd olunmuşdur ki, ulu öndər Heydər Əliyevin səyləri nəticəsində Azərbaycan öz müstəqilliyini və dövlətçiliyini qoruyub saxlaya bilmişdir.

Heydər Əliyevdən sonra isə bu siyasəti möhtərəm Prezidentimiz cənab İlham Əliyev uğurla inkişaf etdirmiş, Azərbaycan daha da möhkəmlənmiş və qüdrətlənmişdir.

Çox böyük bir xoşbəxtlikdir ki, bu gün ölkəmizin başında ulu öndərin siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyev durur və bu gün İlham Əliyev həqiqətən ən yeni tarixin parlaq şəxsiyyətidir.

Bayram tədbirində respublikanın xalq artistləri Brilyant Dadaşova, Mübariz Tağıyev, Bilal Əliyev, Gülyaz Məmmədova, əməkdar artist Təyyar Bayramov, populyar ifaçılar Ayaz Qasımov, Pərviz Abdullayev, Kənan Qədimov, Rəvanə Əmiraslanlının, Vaqif Mustafazadə adına "Sevil" vokal qrupunun, Cahangir Cahangirov adına xorun, "Şirvan" folklor ansamblının ifalarında xalq mahnıları, tanınmış dünya və Azərbaycan bəstəkarlarının əsərləri səslənmiş, iştirakçıların çıxışları alqışlarla qarşılanmış, sakinlər konsert boyu parkın ərazisində rəqs etmişlər.

Bayram konsertinin sonunda əzəmətli atəşfəşanlıq keçirilmişdir.

***Səbinə MƏMMƏDOVA,***
***"Azərbaycan"***

# XİN: "Qondarma Dağlıq Qarabağ rejiminin "sənəd"inin BMT-də yayılması xəbəri yalan və cəfəngiyyatdır"

Ermənistanın BMT yanındakı daimi nümayəndəliyinin Azərbaycanın işğal olunmuş ərazilərində yaradılan qondarma rejim adından BMT-də "sənəd"lərin yayılması ilə əlaqədar Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev açıqlama yayıb. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Açıqlamada deyilir: "Məlum olduğu kimi, cari ilin mayında Ermənistanın BMT yanındakı daimi nümayəndəliyi bu ölkə tərəfindən Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində yaradılmış qondarma rejim adından BMT-də sənəd yayıb. Bundan əvvəl də Ermənistanın BMT yanında nümayəndəliyi tərəfindən bənzər addımlar atılmışdı.

Bu məsələdə də Ermənistanın BMT yanında nümayəndəliyi saxtakarlıq və BMT üzv dövlətlərini aldatmağa cəhd etmək yolunu seçib. Belə ki, Ermənistanın BMT yanında nümayəndəliyi tərəfindən göndərilən məktuba qondarma rejim adından hər hansı bir sənəd əlavə edilir. Sonra bu Ermənistan KİV-də qondarma rejimin "sənəd"inin guya BMT-də yayılması kimi təqdim olunur. Əslində isə bu yalan və cəfəngiyatdır. Bununla əlaqədar olaraq cari ilin 7 iyun tarixində Azərbaycan Respublikasının BMT yanındakı daimi nümayəndəliyi tərəfindən BMT-nin Baş katibinə məktub ünvanlanıb. Elə həmin gün sənəd BMT Təhlükəsizlik Şurasının sədri tərəfindən TŞ-nin üzvləri arasında yayılıb və BMT-nin rəsmi sənədi kimi dərc olunub.

Məktubda BMT TŞ tərəfindən 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı qətnamələrə istinad edilərək, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmət edildiyi, Dağlıq Qarabağ bölgəsinin Azərbaycan Respublikasının ayrılmaz hissəsi olduğunun bir daha təsdiqləndiyi bildirilir. Habelə ərazinin zəbt olunması üçün gücdən istifadə edilməsinin qəbuledilməzliyi və işğalçı qüvvələrin işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılması barədə tələblərin əks olunduğu diqqətə çatdırılır.

Bildirilib ki, Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən yaradılmış qondarma rejim hərbi təcavüz və qanlı etnik təmizləmənin nəticəsidir.

Məktubda həmçinin Ermənistanın beynəlxalq ictimaiyyətin mövqeyinə məhəl qoymayaraq Azərbaycana qarşı törətdiyi təcavüzə görə davamlı şəkildə məsuliyyətdən yayınması cəhdlərinə şərh verilərək, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "Çıraqov və başqaları Ermənistana qarşı" işi üzrə 2015-ci ildə qəbul etdiyi hüquqi qərara istinad edilib. Məlum olduğu kimi, məhkəmənin qərarında qondarma rejimin Ermənistanın nəzarətində olduğunu və onun siyasi, maliyyə, hərbi və digər dəstəyi sayəsində mövcud olduğu öz təsbitini tapıb.

Bir daha vurğulanıb ki, Ermənistan yürütdüyü təcavüz və anneksiya siyasəti ilə heç zaman güddüyü məqsədlərinə nail ola bilməyəcək, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, bu, belə olub və gələcəkdə də belə olacaq və Ermənistanın öz qoşunlarını işğal edilmiş Azərbaycan ərazilərindən çıxarmaqdan başqa yolu yoxdur.

Məktubda rəsmi Yerevanın öz xalqı və beynəlxalq ictimaiyyəti çaşdırmaq üzrə cəhdlərə son qoymalı və münaqişənin həll edilməsi məqsədilə üzərinə düşən öhdəliklərini yerinə yetirməli olduğu vurğulanıb və yalnız belə olan şəraitdə bölgədə çoxdan gözlənilən sülh və sabitliyin bərqərar ola biləcəyi qeyd edilib".

# Filadelfiyada Azərbaycan bayrağı ucaldılıb

ABŞ-ın tarixi şəhərlərindən biri olan Filadelfiyada Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar dövlət bayrağımızın ucaldılması mərasimi keçirilib.

Şəhərin ən məşhur tarixi məkanı olan meriyanın binası qarşısında keçirilən mərasim Pensilvaniya ştatında yaşayan Azərbaycan icmasının fəalları və Filadelfiya şəhər meriyasının birgə təşkilatçılığı ilə baş tutub. Tədbirdə Azərbaycan icmasının, Filadelfiya şəhər meriyasının və ABŞ-dakı səfirliyimizin nümayəndələri iştirak ediblər.

Amerika Azərbaycan Cəmiyyətinin rəhbəri Tomris Azəri mərasimdə çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi barədə məlumat verib. O, Azərbaycanın güclü və müstəqil dövlət olduğunu, hər bir azərbaycanlının öz dövləti ilə fəxr etdiyini söyləyib.

Filadelfiya şəhər merinin köməkçisi Şila Has çıxışında tarixi gün münasibətilə Pensilvaniya ştatında yaşayan Azərbaycan icmasının nümayəndələrini təbrik edib. O, şəhər meri Cim Kenni tərəfindən 28 may 2018-ci il tarixinin Filadelfiya şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Günü elan edilməsi barədə imzalanmış bəyannaməni tədbir iştırakçılarına elan edib. Pensilvaniyada yaşayan Azərbaycan icmasının fəalları adından çıxış edən Gülər Mehdiyeva göstərilən diqqətə görə Filadelfiya şəhər meriyasının nümayəndələrinə və tədbirin təşkilatçılarına təşəkkürünü bildirib.

Sonda məşhur amerikalı musiqişünas Cefri Verbok Azərbaycan muğamlarını ifa edib. Daha sonra icma fəalları Zamin Əkbərov və Rövşən Səfərov Azərbaycan milli rəqslərini və musiqilərini tədbir iştirakçılarına təqdim ediblər. Azər Dəmirov skripkada Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin "Arazbari" kompozisiyasını ifa edib.

***AZƏRTAC***












# Dünya çempionatının "Qızıl fit" hakimi

**Futbol üzrə dünya çempionatları tarixində uğur qazananlar sırasında azərbaycanlı hakim də var. Bu Nikolay Latışevdən sonra dünya futbol çempionatında hakimlik edən ikinci sovet hakimi Tofiq Bəhramovdur (1925-1993). Onun ən böyük uğuru 1966-cı il dünya çempionatında İngiltərə və Almaniya komandaları arasındakı final oyununda olub.**

Bu final mundialın bütün tarixi ərzində ən maraqlı və dramatik oyunlardan biri olub. T.Bəhramov matçın yan xətt hakimi idi. Əsas vaxt heç-heçə (2:2) başa çatıb. Qalibi müəyyənləşdirmək üçün 30 dəqiqə əlavə olunub. 110-cu dəqiqədə ingilislərin hücumçusu Herst topu almanların qapısına göndərir. Top dirəyə dəyib yerə düşür. Oyunun baş hakimi, isveçrəli Dinst topun uçuş trayektoriyasını görmədiyindən özünü itirir. Lakin dərhal oyunun bütün taleyini üzərinə götürəcək adamı tapır. Dinst özünün yan xətt köməkçisinə işarə edərək son sözü onun deyil, köməkçisi - sovet hakimi Bəhramovun deyəcəyini göstərir. O isə bayrağı yelləndərək mərkəzi göstərməklə ingilislərdə sevinc, almanlarda isə qəzəb doğurur.

Almanlar onu əhatəyə alaraq bu qərara etiraz edirlər, lakin Bəhramov fikrindən dönmür. Oyun davam edir, hakimin əlavə vaxtın bitdiyini bildirən fitinə az qalmış Herst bu oyun ərzində özünün üçüncü qolunu vurur. Oyun 4:2 hesabı ilə İngiltərənin xeyrinə başa çatır.

Oyundan sonra İngiltərə Kraliçası T.Bəhramova "Qızıl fit"i (o vaxtadək bu mükafat yalnız meydan hakimlərinə verilirdi) və "Qızıl ilahə"nin kiçik modelini təqdim edir. Bu gün yeni "Uembli" stadionunun muzey vitrinlərinin birində Tofiq Bəhramovun bürüncdən tökülmüş heykəli yerləşdirilib.

Tofiq Bəhramov eyni zamanda Avropa kuboklarının finallarında hakimlik edən ilk sovet arbitri olub. Bundan başqa, 1972-ci ildə o, Argentinanın "İndependyente" və Hollandiyanın "Ayaks" komandaları arasında qitələrarası kubok uğrunda oyunu da idarə edib.

***"Azərbaycan"***

# Mərkəzi matç italiyalı hakimə tapşırıldı



Bu gün DÇ-2018-in B qrupunda keçiriləcək Portuqaliya - İspaniya oyunu üçün hakim təyinatları açıqlanıb. FİFA-dan verilən məlumata görə, görüşü italiyalı referi Canluka Rokki idarə edəcək. Köməkçiləri isə Elenito Di Liberatore və Mauro Tonolini olacaq.

Qeyd edək ki, Portuqaliya - İspaniya görüşü Bakı vaxtı ilə saat 22:00-da başlayacaq.

# Cüneyt Çakırın ilk təyinatı

Türkiyəli FİFA referisi Cüneyt Çakır dünya çempionatında ilk təyinatını alıb. FİFA-dan verilən məlumata görə, Cüneyt bu gün keçiriləcək Mərakeş - İran oyununu idarə edəcək. Ona Bahattin Duran və Tarık Orgun kömək edəcək.

Qeyd edək ki, Mərakeş - İran matçı Bakı vaxtı ilə saat 19:00-da başlayacaq.



## DÇ-2018-in TƏQVİMİ

**15 iyun**

A Qrupu:
16:00 Misir-Uruqvay
B qrupu:
19:00 Mərakeş -İran
22:00 Portuqaliya - İspaniya

**16 iyun**

C qrupu:
14:00 Fransa-Avstraliya
20:00 Peru-Danimarka
D qrupu:
17:00 Argentina-İslandiya
23:00 Xorvatiya-Nigeriya

**17 iyun**

E qrupu:
16:00 Kosta Rika -Serbiya
22:00 Braziliya-İsveçrə
F qrupu:
19:00 Almaniya-Meksika

**18 iyun**

F qrupu:
16:00 İsveç-C.Koreya
G qrupu:
19:00 Belçika-Panama
22:00 Tunis -İngiltərə

**19 iyun**

A qrupu:
22:00 Rusiya-Misir
H qrupu:
16:00 Kolumbiya -Yaponiya
19:00 Polşa -Seneqal

**20 iyun**

A qrupu:
19:00 Uruqvay-S.Ərəbistanı
B qrupu:
16:00 Portuqaliya -Mərakeş
22:00 İran -İspaniya








## Dünya Bankı ilə ədliyyə sahəsində birgə layihələr uğurla həyata keçirilir

İyunun 14-də ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Dünya Bankının icraya dəstək missiyasının nümayəndələri ilə görüşüb. Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir dövlət başçısının siyasi iradəsi ilə məhkəmə sisteminin təkmilləşdirilməsi üzrə görülən işlərdən danışıb, Dünya Bankı ilə ədliyyə sahəsində uzun müddətdir səmərəli əməkdaşlıq edildiyini, Bankın məhkəmə-hüquq islahatlarına dəstəyini qeyd edərək ədliyyə və məhkəmə infrastrukturunun müasirləşdirilməsi üzrə birgə həyata keçirilən layihələrin nəticələrini vurğulayıb. Bildirilib ki, aparılan islahatlara beynəlxalq maraq artaraq artıq bir çox dövlətlərin nümayəndələri müsbət təcrübəmizdən bəhrələnmək üçün ölkəmizə səfərlər edir.

Dünya Bankının ölkəmizlə əməkdaşlığını yüksək qiymətləndirən Bankın Avropa və Mərkəzi Asiya regionunun dövlət idarəçiliyi üzrə meneceri Daniel Boys bu layihənin Bankın 25 il ərzində müxtəlif sahələrdə həyata keçirdiyi 50-dən çox layihələr içərisində ən uğurlularından olduğunu qeyd edib. Azərbaycanın məhkəmə sistemində nailiyyətlərinin artıq beynəlxalq aləmdə tanındığını və müxtəlif beynəlxalq mükafatlara layiq bilindiyini söyləyib.

Nümayəndə heyəti səfər zamanı layihə çərçivəsində inşa olunmuş müasir Şəki məhkəmə kompleksi ilə tanışlıqdan məmnunluğunu ifadə edərək bu sahədə həyata keçirilən tədbirlərin, o cümlədən ən qabaqcıl informasiya-kommunikasiya texnologiyalarının, xüsusilə elektron məhkəmə informasiya sisteminin tətbiqinin şahidi olduqlarını bildirib. Həmçinin birgə layihənin icrası barədə məlumat verilib, onun davam etdirilməsinin perspektivlərinə dair faydalı fikir mübadiləsi aparılıb.

Qonaqlar nazirlikdə bu il 100 illiyi qeyd edilən Azərbaycan ədliyyəsinin tarixi muzeyi ilə tanış olublar.

## M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı iş yerlərinə sənədlərin qəbulunu elan edir

**M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı** müsabiqədə iştirak etmək üçün aşağıda qeyd olunan iş yerlərinə sənədlərin qəbulunu elan edir:

**Tədris-metodiki şöbənin müdiri (1 yer).**

**Dekan (filologiya fakültəsi, 1 yer).**

Vəzifələri tutmaq üçün müsabiqədə ali təhsilli, elmi dərəcəsi və elmi adı olan, Azərbaycan və rus dillərini sərbəst bilən, tədris prosesinin təşkili və idarə olunması sahəsində ən azı 3 il və ya ali təhsil müəssisəsində tədris sahəsində ən azı 5 il iş stajı olan əməkdaşlar sənəd verə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- şəxsiyyəti təsdiq edən sənədin surəti
- CV
- ali təhsil haqqında sənədin surəti
- elmi dərəcəsi və elmi adı təsdiq edən sənədin surəti.

Müsabiqədə iştirak etmək istəyənlər sənədləri 18 iyun 2018-ci il tarixindən 10 iyul 2018-ci il saat 17:00-dək **hr@msu.az** elektron poçt ünvanına göndərməlidir.

**Əlaqə telefonu:** + 99412 598 93 28.




## FİFA mundialdan 6,1 milyard dollar qazanacaq




**FİFA Rusiyada keçiriləcək dünya çempionatından 6.1 milyard dollar gəlir götürəcək. "The New York Times" nəşrinin verdiyi xəbərə görə, bu məbləğ 2014-cü ildə keçirilən mundialın qazancından 1.3 milyard dollar çoxdur.**

Yayım hüquqlarından əldə olunan vəsait isə 2 faiz artıb. Həmçinin, FİFA sponsorluq müqavilələrindən gözləniləndən 200 milyon dollar çox gəlir əldə edəcək.

Bu, Çin şirkətləri ilə əməkdaşlığın genişləndirilməsi nəticəsində mümkün olub. Yarışa sponsorluq edən 20 şirkətdən 7-si Çini təmsil edir. 2014-cü ildəki mundialda isə Çindən yalnız bir şirkət var idi.

## DÇ-2026-nın ev sahibləri məlum oldu




**2026-cı ildə dünya çempionatına evsahibliyi edəcək ölkə müəyyənləşib. Qərar Moskvada keçirilən FİFA-nın 68-ci konqresində verilib.**

Mundialın evsahibliyi üçün iki namizəd var idi. Bunlar Mərakeş və ABŞ-Kanada-Meksika "trio"sudu. Səsvermə nəticəsində yarışın ABŞ, Kanada və Meksikanın birlikdə təşkil etməsinə qərar verilib.Qeyd edək ki, 2026-cı ildəki dünya çempionatında 48 komanda iştirak edəcək.

## Rusiya böyük hesablı qələbə ilə başladı

**A qrupu**
**Rusiya - Səudiyyə Ərəbistanı - 5:0**

**Qollar:** Yuri Qazinski, 12; Denis Çerışev, 43, 90+1, Artyom Dzyuba, 71; Aleksandr Qolovin, 90+4

**Sarı vərəqələr:** Aleksandr Qolovin, 88 - Taysir əl-Cassim, 90+3

**Baş hakim:** Nestor Pitana (Argentina),

Rusiya, Moskva. "Lujniki" stadionu.

Futbol dünyasının böyük səbirsizliklə gözlədiyi an gəlib çatdı. Dünən Rusiyada sayca 21-ci dünya çempionatına start verildi. Mundialın açılış matçında A qrupunda yer alan meydan sahibi Rusiya millisi Səudiyyə Ərəbistanı seçməsini qəbul etdi. Bu qrupda Uruqvay və Misir yığmalarının da mübarizə apardığını nəzərə aldıqda açılış matçını izlədikdən sonra belə qənaətə gəlmək olar ki, elə qrupun ən "zəif bəndləri" bu komandalardır.

Yəqin ki, Pelenin "Braziliya hokkey üzrə dünya çempionatının qalibi olanda Rusiya da futbolda dünya çempionluğunu qazanacaq" fikri bu dəfə də qüvvədə qalacaq. İlk görüşdə 5:0 hesablı qələbə əslində heç kimi aldatmamalıdır. Nəzərə alsaq ki, rəqib daha zəif və təcrübəsiz Səudiyyə Ərəbistanı yığmasıdır. Bunu təkcə bizlər yox, rusiyalı həmkarlarımız da bildirirlər. Rusiya KİV-i mundialın ölkələrində keçirilməsinin onlar üçün üstünlüklərindən yazarkən bunun sayəsində komandanın dünya çempionatında oynamaq imkanının olduğunu, əks halda bunun mümkünsüzlüyünü qeyd edirdilər.



Bu görüşə kimi son 7 yoxlama oyununda qələbəyə həsrət qalan ruslar 4 dəfə məğlub olub, hətta son iki qarşılaşmada qapı çərçivəsinə cəmi bir zərbə vurublar. Stanislav Çerçesov isə yeddi qələbəsiz oyunla Rusiya yığmasının bütün baş məşqçiləri arasında antirekorda imza atıb.

Hər halda qazanılan 5:0 hesablı qələbəyə baxmayaraq, bu oyunla rusların qrupdakı digər iki güclü komanda ilə görüşü ciddi sual yaradır.

Argentinalı hakim Nestor Pitananın start fitindən sonra ilk 5 dəqiqə komandalar start həyəcanından nə etdiklərini heç bilmirdilər. Yeri gəlmişkən, rusların heyətində 2 legioner var ki, onlardan biri Belçikanın "Brüqqe" klubunda forma geyən ehtiyat qapıçı Vladimir Qabulov, digəri İspaniya "Vilyareal"ında oynayan yarımmüdafiəçi Denis Çerışevdir. Yığmanın heyətində Azərbaycan əsilli yarımmüdafiəçi Aleksandr Səmədovun da yer alması diqqətçəkən məqamlardan idi.

Lakin start həyəcanını tədricən üzərlərindən atan ruslar ərəblərin ard-arda etdikləri ötürmə səhvlərindən təhlükəli epizodlar yaratmağa başladılar. Bunlardan biri 12-ci dəqiqədə qolla yekunlaşdı. Yuri Qazinski baş zərbəsi ilə mundialın ilk qoluna imzasını atdı.

Qoldan sonra özünə gələ bilməyən S.Ərəbistanı yığmasının müdafiədən oyunu qura bilməməsi, xətlər arasında əlaqənin olmaması və bunun nəticəsində itirilən hər top rusların ciddi hücumları ilə yekunlaşırdı. Belə epiozadlardan birində Denis Çerışev 43-cü dəqiqədə hesab arasındakı fərqi 2 topa çatdırdı.

Fasilədən sonra tədricən oyunu meydançanın rəqibə aid hissəsində qurmağa çalışan ərəblər təcrübəsizliyin qurbanı oldular. Müdafiədə oyunçu bölgüsündə ciddi səhvlərə yol verən komanda qapısında 3-cü qolu gördü. Artyom Dzyuba 71-ci dəqiqədə adını tabloya yazdırdı. Hakimin oyunun əsas vaxtına əlavə etdiyi ilk dəqiqədə Denis Çerışev özünün ikinci, komandasının 4-cü qolunu vurdu. Oyuna son nöqtəni isə 94-cü dəqiqədə Aleksandr Qolovin qoydu-5:0.

Beləliklə, elə də yüksək səviyyədə oyunun nümayiş olunmadığı görüşdə Rusiya yığması S.Ərəbistanı seçməsinə 5:0 hesabı ilə qalib gələrək mundiala doğma divarlar arasında qələbə ilə başladı.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## İspaniyada yeni baş məşqçi



**Futbol üzrə İspaniya millisində istefaya göndərilən Xulen Lopeteqenin yerinə yeni baş məşqçi təyin edilib. Federasiyadan verilən məlumata görə, bu, yığmanın keçmiş üzvü Fernando Yerrodur.**

Qeyd edək ki, Yerro buna qədər İspaniya Futbol Federasiyasında idman direktoru idi. 1989-2002-ci illərdə millinin formasını geyən veteran müdafiəçi 89 oyunda iştirak edib.

## Hər oyunçuya 300 min avro mükafat




**Fransa millisi mundialın qalibi olacağı təqdirdə, oyunçuların alacağı mükafat müəyyənləşib.**

Yerli mətbuatın verdiyi xəbərə görə, komanda DÇ-2018-in kubokunu qazansa, hər oyunçuya 300 min avro mükafat veriləcək. Əgər onlar finalda uduzsalar, 280 min avro, yarımfinalda mübarizəni dayandırsalar, 150 min avro qazanacaqlar. Fransa mundialda Avstraliya, Danimarka və Peru ilə eyni qrupda mübarizə aparacaq.










# Ceyhun Bayramov təhsildə fərqlənən məzunlarla görüşüb

İyunun 14-də təhsil naziri Ceyhun Bayramov Bakı şəhəri Arif Hüseynzadə adına 20 nömrəli məktəb-liseydə təhsildə müvəffəqiyyətləri ilə fərqlənən məzunlarla görüşüb.

AZƏRTAC xəbər verir ki, tədbirdə respublika və beynəlxalq fənn olimpiadalarının, müsabiqələrin qalibləri iştirak ediblər.

C.Bayramov məzunları təhsillərini uğurla başa vurmaları münasibətilə təbrik edib, uğurlar arzulayıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə təhsilin keyfiyyətinin artırılması istiqamətində həyata keçirilən tədbirləri diqqətə çatdıran nazir başa çatan tədris ilinin uğurlarla yadda qaldığını bildirib.



Qeyd edilib ki, təhsilin bütün pillələrində - məktəbəqədər təhsildən başlayaraq ali təhsil pilləsinədək müsbət dinamika müşahidə olunub. Beynəlxalq olimpiadalarda nəticələrin ildən-ilə yaxşılaşdığını və müvafiq sahədə böyük nailiyyətlərin əldə olunduğunu vurğulayan C.Bayramov bildirib ki, bu mötəbər yarışlara hazırlıq prosesinin təkmilləşdirilməsi, diqqət mərkəzində saxlanılması şagirdləri müvəffəqiyyətlə çıxış etməyə ruhlandırır. Belə ki, fənn olimpiadalarında hər il iştirakçı sayının artdığı müşahidə olunur. Bu il bilik yarışlarına 33 mindən çox şagird qatılıb.

C.Bayramov məzunların növbəti təhsil pilləsində də uğur qazanacaqlarına və əldə etdikləri təcrübənin gələcəkdə daha böyük nailiyyətlər üçün onlara imkanlar yaradacağına əminliyini ifadə edib.

Sonda məzunlara ümumtəhsil məktəbini yüksək nailiyyətlərlə başa vurduqlarına görə təşəkkürnamə təqdim olunub.

# Azərbaycan və Qazaxıstan bütün beynəlxalq tədbirlərdə bir-birini dəstəkləyir

İyunun 14-də Qazaxıstan Respublikası Prezidenti Administrasiyası Dəftərxanasının rəhbəri Mahmud Kasımbekovun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyində olub.

AZƏRTAC xəbər verir ki, Mahmud Kasımbekov mədəniyyət naziri Əbülfəs Qarayev ilə görüşündə Azərbaycana səfəri çərçivəsində Heydər Əliyev Mərkəzində Qazaxıstan Prezidentinin həyat və fəaliyyətindən bəhs edən “Nursultan Nazarbayev. Həyat yolu” kitabının Azərbaycan dilində nəşrinin təqdimat mərasimi ilə bağlı təəssüratlarını bölüşüb. Qeyd olunub ki, Azərbaycan ilə Qazaxıstan arasında münasibətlər ulu öndər Heydər Əliyevlə Nursultan Nazarbayevin möhkəm dostluğu sayəsində daha da möhkəmlənib. İki ölkə rəhbərinin xalqlarımız arasında dostluğun daha da möhkəmlənməsi naminə göstərdiyi səylər, tarixi səfərlər, qarşılıqlı səmimi münasibətlər bu gün də davam və inkişaf etdirilir.



Əbülfəs Qarayev Azərbaycanla Qazaxıstan arasında mədəniyyət sahəsində mövcud əməkdaşlıq əlaqələrindən söz açıb. Ölkələrimiz arasında dostluq münasibətlərinin qədim tarixi köklərə malik olduğunu diqqətə çatdıran nazir vurğulayıb ki, bu tarixi, milli bağlılıq səbəbindən iki qardaş ölkə bütün beynəlxalq tədbirlərdə bir-birini dəstəkləyir. Azərbaycanın Qazaxıstanla hərtərəfli əməkdaşlığı mövcuddur və bu əlaqələr daha da genişlənir.

Nazir iki dövlət arasında münasibətlərin yüksək səviyyədə olmasının əsasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevlə Nursultan Nazarbayevin çox yaxın dostluğunun dayandığını vurğulayıb. Diqqətə çatdırıb ki, iki ölkə arasındakı bu dostluq Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Qazaxıstan ilə Azərbaycan strateji tərəfdaş ölkələrdir. 2016-cı ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin Efiopiyanın paytaxtı Əddis-Əbəbə şəhərində keçirilən 11-ci sessiyasında ölkəmizin təşəbbüsü ilə Azərbaycan, Türkiyə, İran, Qazaxıstan və Qırğızıstan tərəfindən UNESCO-ya birgə təqdim edilən “Lavaş, katırma, jupka, yufka - nazik çörəyin hazırlanma və paylaşma mədəniyyəti” təşkilatın Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edilib.

Əbülfəs Qarayev, həmçinin TÜRKSOY-un layihələrində ölkələrimizin fəal iştirakını yüksək qiymətləndirib. Qeyd edib ki, “İstanbul - Avropa Mədəniyyətinin Paytaxtı - 2010” mədəniyyət ili çərçivəsində I Beynəlxalq İstanbul Opera Festivalında TÜRKSOY-un təşəbbüsü ilə hazırlanmış “Koroğlu” operasının nümayişində və ümumilikdə bu layihədə Azərbaycan və Qazaxıstan da yaxından iştirak edib. Bu tamaşa Bakı, Bişkek, Almatı və Ankara şəhərlərində də böyük uğurla nümayiş olunub.

Nazir ölkələrimiz arasında əlaqələrin bundan sonra daha da genişlənəcəyinə əminliyini bildirib.

Qazaxıstanın mədəniyyət və idman naziri Arıstanbek Muxamediulı isə gələcəkdə iki ölkə arasında müştərək mədəni layihələrin həyata keçirilməsi istiqamətində fikirlərini bölüşüb.

Görüşdə Azərbaycanda və Qazaxıstanda qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi, habelə kino və teatr sahəsində əməkdaşlıqla bağlı bir sıra məsələlər müzakirə edilib.

# Heydər Əliyev Fondu Azərbaycanın istedadlı gənclərini birləşdirir









Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) sədri Leyla Əliyevanın təşəbbüsünə əsasən, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Rusiya Federasiyasının Kaluqa vilayətində şəhərətrafı “PineRiver” hotelində tələbələrin “Turizm toplantısı” turniri keçirilib.

AZƏRTAC xəbər verir ki, RAGB-nin idarə heyətinin üzvü Emin Hacıyev açılış mərasimində idman toplantısının iştirakçılarını salamlayaraq gənclər təşkilatı tərəfindən keçirilən idman tədbirlərinə göstərilən marağa görə onlara təşəkkürünü bildirib.

E.Hacıyev gənclərə RAGB-nin fəaliyyəti, görülmüş işlər və gələcək planlar barədə məlumat verib. O deyib: “Leyla xanım Əliyeva bu yaxınlarda, mayın 31-də Həştərxanda RAGB-nin regional nümayəndəliklərinin üzvləri ilə görüşüb. Mühüm məsələlər qaldırılan görüşün iştirakçıları fikir mübadiləsi aparıb, qarşıdakı vəzifələri müzakirə ediblər. Leyla xanım öz çıxışında RAGB-nin idman layihələrinə diqqəti cəlb edib, bizim fəalların bu sahədə qazandığı uğurları qeyd edib. Mənə çox xoşdur ki, siz hamınız sağlam həyat tərzinə böyük diqqət yetirirsiniz. Bizim bugünkü turnirimiz Azərbaycanın istedadlı gənclərini birləşdirir, onların vətənpərvərlik ruhunu möhkəmlədir. Bütün bunlar bizim təşkilatın əsasını təşkil edir. Qarşıda bizi maraqlı layihələr gözləyir. Sizi bu layihələrdə görməyə şad olarıq. Mən hər birinizə yaxşı oyun və gümrahlıq arzu edirəm”.

Sonra komandalar təqdim edilib, onlara təlimat verilib, daha sonra Rusiya Federasiyasının, Azərbaycan Respublikasının və RAGB-nin bayraqları qaldırılıb.

İdman-sağlamlıq turnirinin ən güclü və ən yaxşı iştirakçıları adı uğrunda M.V.Lomonosov adına Moskva Dövlət Universitetini (MDU), RF Hökuməti yanında Maliyyə Universitetini, Ali İqtisad Məktəbini, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetini (MDTU), Q.V.Plexanov adına Rusiya İqtisad Universitetini (RİU), Moskva Dövlət Pedaqoji Universitetini (MDPU), RAGB-nin Kaluqa regional bölməsini təmsil edən 12 komanda mübarizə aparıb.

Yarışlarda RAGB-nin 100-ə yaxın fəal üzvü iştirak edib. Onlar “Friroup”, “Skaladrom”, Kamandan oxatma, “Yüksək şəhərcik”, “Turizm zolağı”, Kanoedə üzmə və digər növlərdə güclərini sınayıblar.

Yarışların yekunlarına əsasən “Panterı” komandası (İ.M.Seçenov adına MDTU) oyunun qalibi olub. İkinci yeri MDPU-nun “Şirlər” komandası, üçüncü yeri MADİ-nin “Qorillalar” komandası tutub. “Canavarlar”, “Şahinlər”, “Ayılar” komandaları qələbə əzminə görə təltif ediliblər.

İdman yarışlarının iştirakçıları bu münasibətlə təşkil edilmiş səhra mətbəxində qidalanıblar.

Günay Bank

Azərbaycan xalqını
Ramazan bayramı
münasibətilə təbrik edir,
hər bir ailəyə səadət,
sevinc dolu günlər arzulayır!




Coca-Cola
şirkəti Azərbaycan xalqını

Milli Qurtuluş Günü
və
Mübarək Ramazan
bayramı

münasibətilə təbrik edir,
bolluq və firavan həyat arzulayır!

Bayramınız mübarək!

# Bakıda ilk dəfə "CANSO-2020" Ümumdünya aeronaviqasiya sammiti keçiriləcək

Azərbaycanın paytaxtı 2020-ci ildə CANSO (Civil Air Navigation Services Organization) beynəlxalq aeronaviqasiya təminatı provayderləri təşkilatının "Global ATM Summit" ümumdünya sammitinə evsahibliyi etmək üçün seçilib.

"Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Bakının namizədliyi Banqkokda İcraiyyə Komitəsinin (FAA (ABŞ), Kanada, Almaniya, Çexiya, Argentinanın aeronaviqasiya sistemləri, Sinqapur, Tanzaniya, Böyük Britaniya və Səudiyyə Ərəbistanının mülki aviasiya administrasiyalarının rəhbərlərindən ibarətdir) iclasında yekdilliklə seçilib. Daha sonra CANSO-nun baş məclisi zamanı Bakının namizədliyinin lehinə 70-dən çox ölkə səs verib.

"Global ATM Summit" illik sammiti mülki aviasiya sahəsində ən mötəbər tədbirlərdən biridir. Sammitə dünyanın 100-dən çox ölkəsindən 250-dən artıq iştirakçı qatılır. Bu tədbir miqyasına görə tez-tez aviasiya sahəsində olimpiada ilə müqayisə edilir.

Azərbaycanın mülki aviasiya tarixində bu cür böyük və əhəmiyyətli sammit Bakıda ilk dəfə olaraq keçiriləcək. CANSO-nun böyük əhəmiyyətli beynəlxalq sammitin keçirilməsini Bakıya etibar etməsi qərarı Azərbaycan Prezidenti İlham Əliyevin mülki aviasiyaya göstərdiyi daimi diqqət və qayğısının, eyni zamanda bu sahədə əldə olunan uğurların əyani göstəricisidir.

2020-ci il üçün tədbirin əsas mövzusu gələcəkdə hava axınlarının qlobal təşkilinin strateji istiqamətini müəyyənləşdirən yenidən baxılmış "CANSO: Fit for the Future of ATM" proqramının təsdiq edilməsi olacaq.

Son illərdə sammit Dublində (2014), Durbanda (2015), Vankuverdə (2016) və Kopenhagendə (2017) keçirilib. Bu il Banqkokda keçirilən sammit 2019-cu ildə Cenevrədə təşkil ediləcək.

CANSO ümumilikdə dünya hava trafikinin 85 faizini əhatə edir və gələcək təhlükəsiz hava məkanı modelinin yaradılması məqsədilə aeronaviqasiya xidmətləri provayderlərini, bütün dünyanın aviasiya hakimiyyətlərinin tənzimləyici və icra orqanlarını, həmçinin aviasiya sənayesinin aparıcı istehsalçılarını özündə birləşdirir.

Bu gün CANSO-nun bütün dünyadan 164-dən çox üzvü var. Azərbaycan 2005-ci ildən təşkilatın üzvüdür.

# Dünyanın neft-qaz regionlarında

*Özbəkistan neftçiləri azərbaycanlı həmkarlarının təcrübəsini yüksək dəyərləndirirlər*

Özbəkistandan söz düşəndə, ilk növbədə, geniş pambıq tarlaları göz önünə gəlir. Lakin bu ölkənin iqtisadiyyatının əsasını təkcə pambıqçılıq təşkil etmir. Özbəkistan iqtisadiyyatında sənayenin və kənd təsərrüfatının bir sıra sahələrinin inkişafı önəm daşıyır. Bunlardan da biri neft-qaz sektorudur. İndiyədək ölkənin ərazisində onlarca neft və qaz yatağı aşkar olunub.





Bu yataqların arasında onilliklərdir istismar edilənlər də, təzə kəşf olunanlar da var. Yataqların bəziləri Özbəkistanın öz mütəxəssisləri, bəziləri xarici şirkətlərlə birgə işlənir.

Özbəkistanın neft yataqları əsasən Qaraqalpaq Muxtar Respublikasının, eləcə də Əndican, Buxara, Qaşqadərya, Nəmənqan, Surxandərya və Fərqanə vilayətlərinin ərazisində yerləşir. Hasilatın əsas hissəsi ölkənin cənub-qərb regionlarındakı yataqlardan əldə olunur. Digər rayonlardakı neft hasilatı obyektləri həcmcə kiçikdir və quyuların debiti də böyük deyil.

"Əndican" neft yatağı Fərqanə vadisinin şərq hissəsində yerləşir. "Əndican" 1937-ci ildə istismara daxil olub və vaxtilə Fərqanədə ən böyük neft yatağı sayılıb. Sözügedən vadinin şərq hissəsində "Boston" adlı daha bir yataq yerləşir. Bu yataqda əsasən 3-cü və nisbətən 20-ci horizontlar neftverimlidir. Yaxınlıqdakı "İzbaskənd" yatağı da Fərqanə vadisinin neftlə zəngin ərazi olduğunu təsdiqləyir.

Özbəkistan əsasən qaz yataqları ilə tanınır. Adından göründüyü kimi, ən zəngin mavi yanacaq mənbələrindən biri "Qazlı"dır. Yatağın ehtiyatları 470 milyard kubmetr həcmində qiymətləndirilir. Burada az miqdarda neft və kondensat ehtiyatları da mövcuddur. Yatağın neftli-qazlı ərazisi 460 kvadratkilometrə çatır.

"Qazlı" xeyli əvvəl kəşf edilsə də, keçən əsrin 60-cı illərinin əvvəllərindən istismar olunur. Yataqdan çıxarılan qaz Qazaxıstana, Qırğızıstana, Rusiyaya ixrac edilir. Neft Özbəkistanın özünün daxili ehtiyaclarına sərf olunur. Yataqdan uzanan qaz kəmərləri Daşkəndə, Urala, Rusiyanın Mərkəzi Avropa hissəsinə qədər çatır.

Özbəkistanın daha bir zəngin qaz-kondensat yatağı Buxara vilayətinin qərb hissəsində yerləşir. Bu, 1980-ci ildə kəşf edilən "Qandım" yatağıdır. Yataq Buxara-Xivə neftli-qazlı rayonuna aiddir. Onun təbii qaz ehtiyatları 202 milyard kubmetr, neft ehtiyatları 6 milyon ton həcmində qiymətləndirilir. Bu yatağın işlənməsi "Qandım-Xayzak-Şadı" neft layihəsi çərçivəsində həyata keçirilir. Əməliyyatçı kimi Rusiyanın "LUKoyl" şirkəti çıxış edir və iştirak payının böyük hissəsi bu kompaniyaya məxsusdur. Layihədə yerli "Özbəkneftqaz" şirkəti də iştirak payına malikdir.

2010-cu ilin mart ayında kəşf olunmuş "Təvəkkəl" ölkənin təzə yataqlarındandır. "Təvəkkəl"in ehtiyatları hələ tam qiymətləndirilməyib.

Özbəkistanın daha neçə-neçə neft-qaz yatağının adını çəkmək mümkündür. Bu yataqların kəşfiyyatı, işlənməsi və istismarı ilə "Özbəkneftqaz" Səhmdar Cəmiyyəti məşğul olur. "Özbəkneftqaz" dinamik inkişaf edərək ölkənin sosial-iqtisadi inkişafına əhəmiyyətli töhfə verən müasir şirkətdir. Şirkətin fəaliyyətinin əsas istiqamətini əhalinin, eləcə də iqtisadiyyatın neft məhsulları ilə, təbii və maye qazla, polimerlərlə təminatı təşkil edir.

"Özbəkneftqaz"ın tərkibinə daxil olan 129 şirkət, müəssisə və təşkilatda 107 mindən çox yüksək ixtisaslı mütəxəssis çalışır. Hazırda "Özbəkneftqaz" dünyanın aparıcı neft-qaz şirkətləri ilə birgə bir sıra iri investisiya layihələri həyata keçirir. Prioritet geoloji-kəşfiyyat işlərinin genişləndirilməsi, innovasiyaların və səmərəli texnologiyaların tətbiqi, karbohidrogenlərin emalının dərinləşdirilməsi sayəsində yüksək keyfiyyətə nail olunması və nəticədə məhsulların bazarda geniş yer tutmasıdır.

Bu il sahə qarşısında mühüm vəzifələr qoyulmuş, qaz hasilatını 63 milyard kubmetrə, neft hasilatını 3 milyon tona çatdırmaq hədəf kimi müəyyənləşdirilmişdir. Bunun üçün 225 yeni quyunun qazılması, 76 mövcud quyunun təmir edilməsi və 26 yeni texnoloji obyektin tikilməsi qərara alınmışdır.

Neft və qaz yataqlarının işlənməsi, hasilat və emal "Uznefteqazdobıça" Səhmdar Cəmiyyətinin üzərinə düşür. Cəmiyyətin tərkibinə bir sıra neft və qaz hasilatı idarələri, sənaye kompleksləri daxildir.

Ölkənin karbohidrogen ehtiyatlarının üzə çıxarılmasında "Uzburnefteqaz" Səhmdar Cəmiyyəti artıq çoxdandır öz dəstxətti ilə tanınıb. Bu şirkət geofiziki və geoloji-kəşfiyyat işləri aparan müəssisələrin fəaliyyətinə rəhbərlik edir, axtarış-kəşfiyyat və istismar quyularının qazılmasını həyata keçirir, sahəyə aid geniş tikinti-quraşdırma işləri görür. Cəmiyyətin tərkibində 9 qazma və tikinti müəssisəsi, 5 servis təşkilatı və digər strukturlar da var.

Özbəkistanın neft-qaz sənayesində "Uzbeknefteprodukt" Səhmdar Cəmiyyəti də əhəmiyyətli yer tutur. Bu müəssisə neftin və qaz kondensatının emalı, neft məhsullarının və maye qazın istehsalı ilə məşğul olur, ölkə iqtisadiyyatının ahəngdar işini təmin edir. Müəssisə eləcə də məhsulların satışını həyata keçirir, xarici investorlar cəlb edir, ölkənin ərazisində və xaricdə birgə istehsalat sahələri yaradır.

Özbəkistanın neft-qaz sənayesini "Uznefteqazmaş"sız təsəvvür etmək mümkün deyil. Burada neft-qazı hasil və emal edən sahələr üçün maşınqayırma avadanlıqları istehsal olunur. Səhmdar cəmiyyətin Əndican, Buxara, Ürgənc və Özbəkistanın bir sıra digər rayonlarında müəssisələri fəaliyyət göstərir.

"Uztransqaz" qazpaylayıcı şəbəkənin istismarı və inkişafı ilə məşğul olur, təbii qazın istehlakçılara çatdırılmasına rəhbərlik edir. Daha bir əhəmiyyətli müəssisə "Nefteqazeksport" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Bu müəssisə "Özbəkneftqaz"ın məhsullarının satışının konseptual əsaslarını işləyib hazırlayır, ixrac potensialının genişləndirilməsi sahəsində mühüm işlər aparır, xarici bazara çıxış istiqamətində agent kimi fəaliyyət göstərir.

Özbəkistanın neft-qaz sənayesinin mütəxəssisləri azərbaycanlı həmkarlarına böyük hörmətlə yanaşır, onların bu sahədəki təcrübəsini yüksək qiymətləndirirlər. "Özbəknetqaz"ın Azərbaycanda keçirilməsi artıq ənənə halını almış Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində dəfələrlə iştirak etməsi bunu bir daha təsdiqləyir. Özbəkistanın sözügedən şirkəti bu yaxınlarda öz işini tamamlamış 25-ci yubiley sərgisinin də fəal iştirakçısı idi. Burada özbək mütəxəssisləri Azərbaycanın və bir sıra digər ölkələrin neft-qaz işçiləri ilə sıx təmasda oldular, işgüzar söhbətlər apararaq gələcək uğurlu əməkdaşlığın, tərəfdaşlığın konturlarını müəyyənləşdirdilər.

***Flora SADIQLI, "Azərbaycan"***

## İqtisadi xəbərlər

# Vahid ölkə stendi mexanizmi çərçivəsində 5,5 milyon manatlıq müqavilə imzalanıb

İlin əvvəlindən vahid ölkə stendi mexanizmi çərçivəsində 5,5 milyon manatlıq müqavilə imzalanıb və 4 milyon manatlığa yaxın məhsul ixrac olunub.

Bu barədə məlumat verən iqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov bildirib ki, 160-dan çox şirkətə ixrac üzrə fərdi qaydada xidmətlər göstərilib, sahibkarlıq subyektlərinə 1,7 milyon manat məbləğində ixrac təşviqi və ümumilikdə indiyədək bu istiqamətdə sahibkarlara 5,3 milyon manat ödənilib".

# İsveçrəyə ixrac missiyası təşkil ediləcək

İyunun 25-29-da İsveçrə Konfederasiyasının paytaxtı Bern şəhərinə ixrac missiyası təşkil ediləcək. Bu barədə AZPROMO-nun prezidentinin səlahiyyətlərini icra edən Yusif Abdullayev deyib.

O həmçinin qeyd edib ki, missiyada əsasən fındıq ixracatçıları iştirak edəcək. Xatırladaq ki, ötən il Azərbaycandan 21 min tona yaxın fındıq ixrac olunub.

Məlumat üçün bildirək ki, bu il Çin, Qazaxıstan, Rusiya, Fransa, Monqolustan, Türkiyə, Almaniya, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərinə ixrac missiyaları təşkil olunacaq.

# Naxçıvan MR-də torpaq sahələrinin planaalma işləri aparılır

Muxtar respublikanın Şərur və Babək rayonlarında torpaq sahələrinin konturlarının çöl geodeziya ölçmə işləri aparılmaqla dəqiqləşdirilməsi və parametrlərin torpaqların elektron kadastr uçotu informasiya sisteminə daxil olunması davam edir.

Planaalma işləri Naxçıvan MR Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin tabeliyində olan Dövlət Yer Quruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutunun mütəxəssisləri tərəfindən müasir geodeziya-ölçü avadanlıqlarından istifadə edilməklə yüksək dəqiqlik və keyfiyyətlə yerinə yetirilir.

Təkcə ötən ay Şərur rayonu üzrə Cəlilkənddə 64, Tənənəmdə 283, Danyeridə 488, Xələcdə 213, Arbatanda 187, Babək rayonunun Zeynəddin kəndində 278 daşınmaz əmlak obyekti plana alınıb. Ümumilikdə ay ərzində 1513, cari ilin əvvəlindən isə muxtar respublika üzrə 6593 daşınmaz əmlak obyektinin elektron kadastr məlumatları komitənin informasiya bazasına daxil edilib. Bununla da plana alınaraq informasiya bazasına daxil edilən torpaq sahələrinin sayı 28 minə çatıb.

Hazırda yeni texnologiyalardan, müasir çöl-ölçmə cihaz və avadanlıqlarından və aerokosmik çəkiliş materiallarından istifadə olunmaqla ölçü işləri başa çatmış yaşayış məntəqələrinin ərazilərində mülkiyyət növündən və təyinatından asılı olmayaraq, bütün torpaq sahələrinin ölçüləri, sərhədləri, konfiqurasiyası dəqiqləşdirilir, torpaqların növləri üzrə kəmiyyət və keyfiyyət göstəricilərində baş verən dəyişikliklər müəyyən edilir.

# "Qaliblər"in məğlubiyyəti

**Ermənistanda hakimiyyətə "demokrat" Paşinyan gəlsə də, bu ölkənin millətçi faşist ideologiyası dəyişmir və hələlik onun siyasi elitası dəbdə olan Daşnaksütyun köhnə havalarında halay vurub yallı gedir. Yeganə nəzərə çarpan erməni ideologiyasının təbliğat maşınının təlqin etdiyi "böyük qələbə" raportlarında bala-bala məğlubiyyət çatlarının sezilməsidir.**

Naxçıvan Əlahiddə Ümumqoşun birləşməsinin Şərur rayonu istiqamətində mövqelərini bir neçə kilometr irəli çəkərək yeni strateji mövqelər tutması, nəticədə 1992-ci ildən bəri düşmən nəzarətində olan Günnüt kəndinin işğaldan azad edilməsi ilə bağlı məlumatlar erməni rəsmi mediasında süst qarşılanıb. Erməni generalları isə yaxalarından əl çəkməyən mətbuat təmsilçilərinə bunu məğlubiyyət kimi yox, qarşı tərəfin o qədər də əhəmiyyətli olmayan manevri kimi dəyərləndirirlər.

Həmişə belə kritik məqamlarda şimal qonşularından ciddi dəstək alan erməni generallarının və siyasi elitasının indiki durumda hər hansı mərhəmət jestinə ümid etmələri mümkün deyil. Məsələ burasındadır ki, Rusiyada ciddi nüfuza və Qafqaz siyasəti ilə bağlı diktəedici gücə malik olan erməni əsilli alim və siyasilərin mövqeyi zəifləmişdir. Bunun da əsas səbəbi Ermənistanın Rusiyadan tədricən aralanaraq Qərblə münasibətləri genişləndirməsidir. Digər tərəfdən isə Moskvada bir sıra politoloqlar artıq çəkinmədən bəyan edirlər ki, erməni diasporu və erməni maraqlarının təmsilçiləri Rusiya siyasi elitasının yüksək çinli məmurları tərəfindən canfəşanlıqla qorunur və bir çox hallarda rus dövlətinin maraqları qurban verilir. Artıq konkret adlar çəkilir, dəqiq ittihamlar səslənir. Bu o deməkdir ki, bundan sonra erməni millətçiləri istəsələr belə, Moskvadan vərdiş olduqları əvvəlki dəstəyi ala bilməyəcəklər. Bunun mümkün olması getdikcə çətinləşir. Artıq Ermənistan Rusiyaya xəyanətdə birbaşa ittiham edilir.

Ermənistan Avropa Şurasının boynuna atıldıqdan sonra şimaldan yumşaq da olsa, şapalaqlar gəlir. Hələ ki səbir nümayiş etdirən Kremlin bu məsələdə hansı həddədək qəzəbini cilovlaya biləcəyi bəlli deyil. Rus siyasi elitası rəsmi olaraq susur və bir qədər də gözləmə mövqeyindədir. Yəni, Ermənistan-Rusiya münasibətlərinin buz erasının başlanması istisna olunmur.

Ona görə də erməni hərbi maşını "Xunut" dağı və "Ağbulaq" yüksəkliyini, daha sonra isə strateji əhəmiyyətli "Qızılqaya" yüksəkliyini və "Mehridağ"ı, işğal altındakı Günnüt kəndinin tamamilə Azərbaycan Ordusunun nəzarətinə keçməsini ciddi məğlubiyyət kimi qabartmır, baxmayaraq ki, "Qızılqaya" yüksəkliyi qədim Azərbaycan torpaqları olan Dərələyəz mahalının Arpa kəndini və İrəvan-Gorus-Laçın yolunu nəzarətdə saxlamağa imkan verir. Strateji əhəmiyyətli Arpaçay Su Dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri qurulub. Günnüt kənd sakinləri ötən gün 26 illik fasilədən sonra ilk dəfə doğma kəndlərinə qayıdıb, yaxınlarının məzarlarını ziyarət ediblər.

Artıq son illər erməni cəmiyyətinin özündə də Dağlıq Qarabağın işğalını pisləyən erməni ziyalılarının etirazları artır. Jurnalist S.Caqinyan belə hesab edir ki, Ermənistan hakimiyyəti hər şeyi edir ki, ölkə ermənisiz qalsın. Jurnalistə görə, bütün generallar xalqı soyaraq varlanıblar . Onların apardığı müharibə isə erməni xalqının vətənpərvərlik hisləri ilə oynayaraq hakimiyyəti əldə saxlamaqdan başa bir şey deyil.

Erməni hüquq müdafiəçisi V.Martirosyan əsgər ailələrinə müraciət edərək deyir: "Sizin uşaqlarınız Dağlıq Qarabağda döyüşür, hakimiyyət isə əlinizdən çörəyinizi, gələcəyinizi və xoşbəxtliyinizi alır".

Adi vətəndaş S.Culakyan isə sual verir ki, bu müharibə bizim nəyimizə lazımdır? Biz niyə özgə torpaqlarında qanımızı tökməliyik. Mən Qarabağda qulluq edən əsgər kimi deyirəm ki, silahınızı əsl düşmənlərinizə qarşı çevirin!"

Bu yaxınlarda Ermənistan və Böyük Britaniya yazıçılar birliklərinin üzvü V.Karapetyan bütün ermənilərə müraciət edərək Qarabağ əsilli ermənilərin Ermənistanda hakimiyyətə gəlmələrinin konstitusiyaya zidd olduğunu, Köçaryan prezident seçildikdən sonra isə yolpulu tapan ermənilərin xaricə qaçdığını deyir: "Hər üç evdən birinin qapısından kilid asılıb, 1,5 milyon erməni vətənini tərk edib. Qarabağ erməniləri nə bu günə, nə də sabaha arxayındırlar. Bugünkü hakimiyyət pulunu yığıb istənilən vaxt qaçacaq".

V.Karapetyan Qarabağın ermənilərə məxsus olmadığını yazır: "Deyirdiniz ki, azərbaycanlılar sizə mane olur. İndi niyə qaçırsız? İndi sizə kim mane olur? Ermənistan və Azərbaycandan 30 minə yaxın gənc nəyin naminə öldülər? Mənim əzizim David də Qarabağda həlak oldu. Onun meyidini gətirdilər. Aradan 20 ildən artıq vaxt keçsə də, heç bir qarabağlı onun qəbrinin həndəvərində görünmədi, valideynlərindən kimsə üzr istəmədi, kədərlərinə şərik çıxan tapılmadı. Bu gün onlar heç bir vicdan əzabı çəkmədən Qarabağdan köçüb gedirlər. Axı, bu gün onlara görə 20 ildən artıq blokadada olan Ermənistan səfalət içindədir. Axı, onlara görə Azərbaycanın 7 rayonu boşaldılıb və oz torpaqlarında yaşayan insanlar məcburi qaçqına çevriliblər. Gec-tez Dağlıq Qarabağ elitası oğurladıqlarını, talan etdiklərini əllərində saxlamaq xatirinə Rusiyanın tabeçiliyinə keçmək üçün müraciət edəcək. Ermənistana isə minlərlə əsgər qəbrindən başqa heç nə qalmayacaq! Amma Ermənistan xalqın sağalmayan yarasını qazanacaq. Sən demə, yalnız insanlar yox, xalqlar da səhv edirmiş. Etiraf etmək lazımdır ki, biz Azərbaycan ərazisinə soxulmaqda səhv etmişik və bu səhvi nəyin bahasına olursa-olsun düzəltməliyik".

Yaxın qonşu uzaq qohumdan irəlidir. Erməni diasporuna artıq gün kimi aydındır ki, barış olmasa, Ermənistan qonşuları ilə sülhə getməsə, səfalət davam edəcək, inkişaf olmayacaq. Dünənki "qaliblər" bu gün məğlubiyyətin uçurumlarına yıxıldıqlarını anlayırlar. Əslində Qarabağ problemi Qorbaçovun erməni əhatəsi ilə dünya erməni lobbisinin birgə layihəsi idi. Yazıçı V.Karapetyan da bu layihənin uğursuz olmasını etiraf edənlərdən biridir. Məhz "böyük Ermənistan" yaratmaq ideyası Ermənistanı faşist dövlətinə çevirdi, Qafqaz ölkələrinin inkişafına, regionda sülhə ağır zərbə vurdu. Özlərini qalib sayanlar indi hansı faciəvi məğlubiyyətlə üzləşdiklərini deyəsən anlayırlar.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

## Son zəng



*Dünən respublikanın ümumtəhsil məktəblərinin XI sinfini bitirən 83.000 şagird üçün "son zəng" çalınıb.*

## Azərbaycan Dövlət Pedaqoji Universiteti açıq tender elan edir

**Tender 1 LOT üzrə keçirilir:**

**LOT -1.** İnvertarın satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Üzeyir Hacıbəyli, 68 (Əlaqələndirici şəxs: Ümid Mehdiyev, telefon: (+99412) 493-00-26 ünvanından ala bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi zərfdən açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır;*
- *tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Yuxarıda qeyd olunan sənədlər (tender təklifi və tender təklifinin təminatı istisna olunmaqla) tender proseduru başlanmasından **7 (yeddi)** bank günü əvvəl təqdim olunmalıdır.

Sənədlər Azərbaycan dilində, 2 (iki) nüsxədə tərtib olunmalıdır (Başqa dildə tərtib olunmuş sənədlərə onların Azərbaycan dilində tərcümə edilmiş surətləri əlavə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İştirak haqqı LOTlar üzrə aşağıdakı məbləğdə təşkil edilir:
LOT -1. 200 manat.

Tenderdə iştirak etmək və əsas şərtlər toplusunu almaq üçün iştirakçı iştirak haqqını aşağıda göstərilən hesaba köçürməlidir:

**VÖEN:** 1700495231
**Hesab:** AZ92AIIB38090019441105141104
**Bankın adı:** Kapital Bank ASC Cəfər Cabbarlı filialı
**VÖEN:** 9900003611
**Kod:** 200048
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944
**S.W.I.F.T.:** AIIBAZ2X

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 24 iyul 2018-ci il, saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 01 avqust 2018-ci il, saat 17:00-a qədər Üzeyir Hacıbəyli, 68 ünvanına təqdim olunmalıdır. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi zərfləri 02 avqust 2018-ci il, saat 10:00-da Üzeyir Hacıbəyli, 68 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Dövlət Pedaqoji Universiteti "Türk Kültür Coğrafiyasında təhsil və sosial elmlər" mövzusunda IV beynəlxalq konfransının və 2017-2018-ci tədris ilinin məzun mərasiminin keçirilməsinin kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (+994 12) 493 00 26 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 22 iyun 2018-ci il 17:00 tarixədək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, Üzeyir Hacıbəyli, 68**

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

### Gürcüstanın Baş naziri istefa verdi



Georgi Kvirikaşvili Gürcüstanın Baş naziri vəzifəsini tərk etmişdir. Bu barədə o, Tbilisidə keçirdiyi brifinqdə məlumat vermişdir.

"Mən komandadakı əhvali-ruhiyyəni görürəm və hər bir komanda rəhbəri kimi qərar qəbul edirəm - mən öz vəzifəmi tərk edirəm" deyə Baş nazir bildirmişdir.

Kvirikaşvili 2013-cü ilin iyulundan Gürcüstan hökumətinə başçılıq edirdi. Xatırladaq ki, iyunun əvvəllərində paytaxtda keçirilmiş kütləvi etiraz aksiyasının iştirakçıları ölkənin Baş prokuroru İrakli Şotadzenin istefasına nail olmuş və Baş nazirlə hökumətin istefasını tələb etmişlər.

Nümayişlərə səbəb ötən ilin dekabrında iki yeniyetmənin qətli ilə bağlı iş üzrə təhqiqatın nəticələridir. Aksiyanın iştirakçıları bildirirdilər ki, prokurorluq qatilləri himayə edir.

### Argentinalı məhbuslar futbol üzündən aclıq elan etdilər



Argentinanın Puerto-Madrin şəhərindəki həbsxanada bir qrup məhbus futbol üzrə dünya çempionatının oyunlarını izləyə bilmədiyinə görə aclıq elan etmişdir. Məhbuslar matçlara baxmaq imkanı yaradılmayanadək yeməkdən imtina etmək niyyətindədirlər. Bu barədə "Rosbalt" agentliyi xəbər verir.

Məhbusların müvafiq məktubunda deyilir ki, "bizim problemimiz həll olunmayanadək günorta və axşam aclıq etmək barədə qərara gəlmişik". Məhkəmə isə məhbusların müraciətinə baxmaqdan imtina edir.

### Afroamerikalı qadın tarixdə ilk dəfə ABŞ-da şəhər meri oldu



ABŞ şəhərinin meri ilk dəfə qaradərili qadın olmuşdur. London Brid iyunun 5-də keçirilmiş seçkilərdə qalib gəlmişdir və indi San-Fransiskoya rəhbərlik edəcək. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Brid 43 il əvvəl yoxsul ailədə dünyaya gəlmişdir. Onu praktiki olaraq nənəsi böyütmüşdür. Buna görə merin yerli sakinlərə verdiyi ilk vəd yoxsullara kömək etmək, əlçatan mənzillər tikmək və şəhərin küçələrində qayda-qanun yaratmaqdır.

Növbədənkənar seçkilər ötən ilin dekabrında şəhər meri Ed Li vəfat etdikdən sonra təyin edilmişdir. Demokratlar Partiyasının üç üzvü favorit hesab olunurdu: nəzarət şurasının başçısı London Brid, Nyu Yorkda anadan olmuş Ceyn Kim və ştatın eks-senatoru, qeyri-ənənəvi seksual oriyentasiyaya malik Mark Leno.

Səslərin hesablanması aparılan ilk günlərdə 66 yaşlı Leno liderliyi ələ almışdı. Lakin sonradan üstünlük Bridin tərəfinə keçmişdir.

### Kolumbiyada 16 qiyamçı zərərsizləşdirildi



Kolumbiyada keçmiş İqilabi Silahlı Qüvvələrin (FARC) 16 qiyamçısı Arauka departamentində məhv edilmişdir. Bu barədə Müdafiə Nazirliyinin məlumatına istinadən TASS agentliyi xəbər verir. Kolumbiya ordusunun Araukada mütəşəkkil silahlı qrupa qarşı keçirdiyi əməliyyat nəticəsində ölənlərin sayı 16-ya çatmışdır.

FARC-ın sabiq üzvləri narkotrafikə nəzarətdə iştirak etmək üçün Milli Azadlıq Ordusunun qiyamçıları ilə əlaqə qurmaq istəmişlər.

FARC 1964-cü ildə yerli Kommunist Partiyasının hərbi qanadı kimi peyda olmuşdu. Onların məqsədi ölkədə sosial ədalət və bərabərlik cəmiyyəti qurmaq uğrunda mübarizə idi. Hökumətlə qiyamçılar arasında uzun illər davam edən danışıqlar sülh sazişinin imzalanması ilə nəticələnmişdir. Ötən il FARC-ın əsasında siyasi partiya yaradılmışdır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədri Əhməd Əhmədzadəyə və Mübariz Əhmədzadəyə bacıları

**ƏLİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev və komitənin kollektivi "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədri Əhməd Əhmədzadəyə bacısı

**ƏLİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədri Əhməd Əhmədzadəyə bacısı

**ƏLİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi və kollektivi Əhməd və Mübariz Əhmədzadələrə bacıları

**ƏLİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Eldar Həsənov və Şahin Həsənov Əhməd, Mübariz, Cuma, Coşqun və Rəşad Əhmədzadələrə əzizləri

**ƏLİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın prezidenti Rövnəq Abdullayev və şirkət rəhbərliyi "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədri Əhməd Əhmədzadəyə bacısı

**ƏLİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektor əvəzi Xalıq Yahudov Əhməd və Mübariz Əhmədzadələrə bacıları

**ƏLİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8685
Sifariş 1781